# AZƏRBAYCAN MÜƏLLİMİ

*Təhsil millətin gələcəyidir!*
*H.Əliyev*

*8 aprel 2017-ci il №12(8728)* www.muallim.edu.az **Azərbaycan Respublikası Təhsil Nazirliyinin orqanı** *muallim@edu.gov.az*


# Diaqnostik qiymətləndirmənin növbəti mərhələsi başlanır

*Qiymətləndirmədən keçən müəllimlərin əməkhaqları 2018-ci ilin yanvarından artırılacaq*

Ölkənin 26 şəhər və rayonunun dövlət ümumi təhsil müəssisələrində çalışan müəllimlərin bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsinə başlanılır. Bununla bağlı aprelin 7-də Təhsil Nazirliyində keçirilən mətbuat konfransında nazirliyin İctimaiyyətlə əlaqələr sektorunun müdiri Cəsarət Valehov bildirib ki, aprelin 16-dan başlayaraq 2 ay ərzində keçiriləcək növbəti diaqnostik qiymətləndirmə təxminən 45 min müəllimi əhatə edəcək. Qiymətləndirmənin "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nın təhsilverənlərin bilik, bacarıq və səriştəsinin artırılmasını nəzərdə tutan maddələrinə uyğun keçirildiyini deyən C.Valehov 2014-cü ildən Bakı şəhərində başlayan prosesin mərhələlərlə ölkənin digər bölgələrində də təşkil olunduğunu söyləyib. Bildirib ki, indiyədək 100 minə qədər müəllim diaqnostik qiymətləndirmədən keçib və ölkə Prezidentinin müvafiq sərəncamları ilə onların dərs yükü və əməkhaqqı artırılıb.

Təhsil Nazirliyinin İnsan resursları şöbəsinin müdir əvəzi Eşqi Bağırov bildirib ki, ilk diaqnostik qiymətləndirmə 16-21 aprel 2017-ci il tarixlərində Bərdə Olimpiya İdman Kompleksində təşkil olunacaq. 5 gün ərzində keçiriləcək qiymətləndirmədə Ağdam, Füzuli, Bərdə, Tərtər, Beyləqan, Laçın, Kəlbəcər, Xocavənd və Cəbrayıl rayonlarının dövlət ümumi təhsil müəssisələrində çalışan müəllimlər iştirak edəcək.

Ağstafa, Tovuz və Qazax rayonlarının ümumi təhsil müəssisələrində çalışan müəllimlərin diaqnostik qiymətləndirilməsi 25-27 aprel 2017-ci il tarixlərində Tovuz rayonunda keçiriləcək.

Qax, Qəbələ, Şəki, Zaqatala, Balakən, Oğuz, həmçinin bu rayonlarda yerləşən Ağdam, Laçın, Kəlbəcər və Xocalı rayonlarının ümumi təhsil müəssisələrində çalışan müəllimlərin qiymətləndirilməsi 1-6 may 2017-ci il tarixlərində Qax rayonunda təşkil olunacaq.

⇨Ardı səh.4



# Birinci sinfə qəbulda mühüm yeniliklər

**Yusif ƏLİYEV**

## Elektron qəbul şagird sıxlığı probleminin də operativ həllinə imkan verir

Birinci sinfə şagird qəbulu ilə bağlı elektron qeydiyyatdan keçmiş sənədlərin ümumi təhsil məktəblərində qəbulu prosesinə başlanıb. Qeyd edək ki, yeni qaydalara əsasən şagirdlər I sinfə müsahibədən keçmədən qəbul olunurlar. Bu mərhələdə əsas vəzifə prosesə bağlı maarifləndirmə işlərinin səmərəli aparılması və vətəndaş məmnunluğunun təmin edilməsidir.

Bu fikirlər aprelin 1-də Bakı Şəhəri üzrə Təhsil İdarəsi tərəfindən məktəb direktorları ilə keçirilən görüşdə səsləndirilib. Məlum olduğu kimi, Bakı şəhərinin ümumtəhsil məktəblərində və Təhsil Nazirliyinin bilavasitə tabeliyindəki lisey və gimnaziyalarda 2017-2018-ci dərs ili üçün I sinfə şagird qəbulu martın 15-dən başlayıb. Ötən illərdə olduğu kimi, bu il də həmin təhsil müəssisələrində I sinfə qəbul Təhsil Nazirliyinin müvafiq əmrinə əsasən Bakı Şəhəri üzrə Təhsil İdarəsi tərəfindən ərizələrin onlayn qeydiyyatı aparılmaqla elektron sistem vasitəsilə həyata keçirilir. İdeyası Təhsil Nazirliyinin rəhbərliyinə məxsus olan yeni sistemin tətbiqində məqsəd "Dövlət orqanlarının elekton xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 23 may 2011-ci il tarixli Fərmanının tələblərinin yerinə yetirilməsini təmin etmək, hamıya bərabər təhsil imkanı yaratmaq, sosial ədaləti bərqərar etməkdir.

I sinfə qəbulun elektron sistem vasitəsilə həyata keçirilməsi cəmiyyətdə ümumi informasiya mədəniyyətinin formalaşması, bütövlükdə informasiya cəmiyyətinin reallaşdırılması, digər tərəfdən şəffaflığın təmin edilməsi və vaxt itkisinin aradan qaldırılması baxımından da olduqca əhəmiyyətlidir. Qəbulun bu qaydada təşkili həm də prosesin düzgün tənzimlənməsinə, şagird sıxlığı ilə əlaqədar problemin vaxtında müəyyənləşdirilib operativ həllinə imkan verir.

⇨Ardı səh.6

# Tam orta təhsilini bitirə bilməyənlər eksternat imtahanları verəcək

Əvvəlki illərdə ümumi təhsil məktəblərində oxuyub tam orta təhsilini bitirə bilməyən şagirdlər üçün 11, 12, 13 may tarixlərində eksternat qaydasında imtahanlar keçiriləcək. Qeydiyyat və sənəd qəbulu aprelin 3-dən 21-dək (yalnız iş günləri) Bakı Şəhəri üzrə Təhsil İdarəsində aparılacaq.

Eksternat imtahanları 45 nömrəli tam orta məktəbdə keçiriləcək. Ərizələri BŞTİ tərəfindən qəbul edilmiş eksternlər 3, 4, 5 may tarixlərində saat 10:00-dan 16:00-dək 45 nömrəli tam orta məktəbdən (şəxsiyyət vəsiqələrini təqdim etməklə) imtahana buraxılış vərəqələrini əldə edə biləcəklər.

Eksternat imtahanları 3 gün ərzində əsas fənlər üzrə keçiriləcək. Eksternlərin hər günə ən çoxu 5 fənn üzrə imtahan verməsi nəzərdə tutulmuş, hər imtahan günü üçün 3 saat vaxt təyin edilmişdir. Eksternlər hər fənn üzrə 10 suala cavab verəcəklər. Eksternat imtahanlarında uğur qazanmış şəxslər tam orta təhsil haqqında sənəd (attestat) almaq üçün Dövlət İmtahan Mərkəzi tərəfindən keçirilən buraxılış imtahanlarında iştirak etmək hüququna sahib olacaqlar.

# UNEC uniRank dünya universitetlərinin reytinqinin birincisi olub

2016-cı ildə dünya universitetlərinin nüfuzlu reytinqi olan QS tərəfindən inkişaf etməkdə olan Avropa və Mərkəzi Asiya regionu üzrə 4-cü ən yaxşı iqtisadyönümlü universitet seçildikdən sonra bu il UNEC dünya universitetlərinin reytinqində daha bir uğura imza atıb. Belə ki, dünya universitetlərinin veb populyarlığını müəyyən edən uniRank reytinqinin 2017-ci ilin son nəticələrinə görə UNEC birinci olub. Reytinq qiymətləndirilməsinə əsasən, universitet internet resursları üzrə ölkənin ən yaxşı və ən populyar ali məktəbi seçilib.

Reytinqdə UNEC-in tarixi, tələbə və müəllim sayı, təqdim olunan təhsil, kitabxana, idman, mübadilə imkanları, həmçinin qəbul olunma faizi və s. barədə məlumatlar da əks olunub. Qiymətləndirmədə əsas meyarlardan biri veb-saytın zənginliyi və daha çox istifadəçiyə çatdırılmasıdır.

Qeyd edək ki, UNEC dünya üzrə reytingə cəlb olunan 12358 universitet və kollec arasında 3318-ci olub. Siyahıya Massaçusets Texnologiya İnstitutu liderlik edir.

Reytinqlə bağlı ətraflı məlumatla www.4icu.org/reviews/180.htm keçidindən tanış olmaq olar.

Qeyd edək ki, 2005-ci ilin may ayından etibarən ildə iki dəfə nəşr olunan uniRank dünya üzrə akkreditasiya olunan ali təhsil müəssisələrinin veb populyarlığı üzrə təhlilini ehtiva edən beynəlxalq ali təhsil direktoriyası və axtarış sistemidir. Reytinq dünya üzrə 12358 universitet və kolleci əhatə edir. uniRank reytinqinin hədəfi dünya universitetləri və kolleclərinin vebsəhifələrinin populyarlığını əks etdirməkdir. Bu, əcnəbi tələbələrə və akademik heyətə hər hansı ölkə daxilində universitet və kollecin nə dərəcədə populyar olması barədə məlumat əldə etməyə imkan verir.

Reytinq 4 veb mənbədən alınan 5 müstəqil veb ölçmələrə əsaslanan alqoritm üzrə aparılır. uniRank-ın komponentləri olaraq Moz Domain Authority, Alexa Global Rank, SimilarWeb Global Rank, Majestic Reffering Domains, Majestic Trust Flow götürülür və ümumilikdə universitetin saytının əhəmiyyəti, onun baxılma genişliyi, daxilolmaların və istinadların sayı, eləcə də fərdi kompüter və mobil vasitələrdən olan "unikal" daxilolmaları ölçür. SimilarWeb Global Rank 2017-ci ildən daxil edilib və məhz belə "unikal" daxilolmaların sayını əhatə edir.

# SABAH qruplarının heyəti xarici səfərdə olub

SABAH qruplarının professor-müəllim heyəti Paris-Sorbon Universitetinin keçirdiyi layihə çərçivəsində mübadilə proqramı üzrə İspaniya Krallığının Madrid şəhərində səfərdə olub. İspaniyanın Kral Xuan Karlos Universiteti, Madrid Komplutense Universiteti və Nebrija Universitetində görüşlərdə olan heyət həmin universitetlərdə tədrisin təşkili, kredit sistemi, tələbələrin qiymətləndirilməsi, tələbə və müəllim mübadiləsi, universitetin idarə olunması metodları haqqında müzakirələrdə iştirak edib.

SABAH qruplarının digər heyəti Çexiya Respublikasının Praqa şəhərində Beynəlxalq Təkmilləşdirmə İnstitutunda keçirilən (Prague Institute for Qualification Enhancement) təlimlərə qatılıb. Müəllimlər "Universitetlərin beynəlxalq əməkdaşlığı: nəzəriyyə və təcrübə", tələbələr isə "Akademik yazı" adlı təlimlərdə iştirak edib.

## Bu sayımızda


**Leyla Əliyeva sağlamlıq imkanları məhdud uşaqlar üçün xüsusi internat məktəblərində olub** ⇨səh.2

**İngilis dilində təhsil alıb innovativ texnologiyalarla işləyənlər** ⇨səh.5

**Direktor olmaq istəyənlər üçün 700-ə yaxın vakansiya** ⇨səh.6

**Müəllimlər elektron lövhələrdən necə istifadə edirlər?** ⇨səh.7

**Əli Əliyev: "Arzum Olimpiya çempionu olmaqdır"** ⇨səh.14

## RƏSMİ XRONİKA



- Aprelin 6-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Bakı Ekspo Mərkəzində "AITF-2017" XVI Azərbaycan Beynəlxalq turizm və səyahətlər və "HOREX Caucasus-2017" XI Qafqaz Beynəlxalq mehmanxana, restoran və supermarketlər üçün avadanlıq və ləvazimatlar sərgiləri ilə tanış olublar.
- Prezident İlham Əliyev aprelin 5-də Bakı şəhərindəki Daş Salnamə Muzeyində "Bakı-2017" IV İslam Həmrəyliyi Oyunlarının Xəzərdən başlayan su səyahətinə həsr olunmuş mərasimdə iştirak edib.
- Dövlət başçısı İlham Əliyev aprelin 5-də Səudiyyə Ərəbistanı Krallığının Şahzadəsi, İslam Həmrəyliyi İdman Federasiyasının prezidenti və Səudiyyə Ərəbistanı Milli Olimpiya Komitəsinin prezidenti Abdullah bin Mosaad bin Əbdüləziz Əl Səudu qəbul edib.
- Prezident İlham Əliyev aprelin 4-də Serbiya Respublikasının Prezidenti Aleksandr Vuçiçə bu vəzifəyə seçilməsi münasibətilə təbrik məktubu göndərib.
- Dövlət başçısı İlham Əliyev aprelin 4-də Rusiya Federasiyasının Prezidenti Vladimir Putinə Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında diplomatik münasibətlərin yaradılmasının 25-ci ildönümü ilə əlaqədar təbrik məktubu ünvanlayıb.
- Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 4-də Serbiya Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Neboyşa Rodiçi qəbul edib.
- Aprelin 3-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və ölkəmizdə rəsmi səfərdə olan Qazaxıstan Respublikasının Prezidenti Nursultan Nazarbayevin məhdud və geniş tərkibdə görüşləri olub. Azərbaycan-Qazaxıstan sənədləri imzalanıb. Dövlət başçıları mətbuata bəyanatlarla çıxış ediblər. Elə həmin gün Prezident İlham Əliyev Qazaxıstan Prezidenti Nursultan Nazarbayevə "Heydər Əliyev" ordenini təqdim edib.
- Dövlət başçısı aprelin 3-də Qazaxıstan Respublikasının Prezidenti Nursultan Nazarbayevin "Heydər Əliyev" ordeni ilə təltif edilməsi haqqında sərəncam imzalayıb.
- Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 3-də Rusiya Federasiyasının Prezidenti Vladimir Putinə Sankt-Peterburq metrosunda baş vermiş partlayış nəticəsində insan tələfatı ilə əlaqədar başsağlığı verib.

# Ötən ay Təhsil Nazirliyinə 16678 müraciət daxil olub

Təhsil Nazirliyinin Telefon Məlumat Mərkəzinə ("Qaynar xətt" xidməti, telefon: 146) daxil olan zənglərlə və Vətəndaşların Qəbulu Mərkəzində 2017-ci ilin mart ayında vətəndaşlara göstərilən xidmətlərlə bağlı statistika açıqlanıb. Qeyd olunan müddət ərzində həmin mərkəzlərə ümumilikdə 16678 müraciət daxil olub. Statistikaya əsasən, Telefon Məlumat Mərkəzində 14118 zəng qəbul edilib. Vətəndaşların Qəbulu Mərkəzində isə bu dövrdə 2560 vətəndaşa xidmət göstərilib.

Telefon Məlumat Mərkəzinə və Vətəndaşların Qəbulu Mərkəzinə daxil olmuş müraciətlərin (əsasən sorğu xarakterli olub) əksəriyyəti dərhal cavablandırılıb və operativ həll olunub. Vətəndaşların Qəbulu Mərkəzində 1201 sənəd (513 məktub, 334 ərizə, 354 digər sənəd) qəbul olunub və qeydiyyata alınıb.

Daxil olan müraciətlər daha çox ümumtəhsil məktəblərinin 1-ci siniflərinə qəbul, ali təhsil sənədlərinin (diplomların) tanınması (nostrifikasiya), müəllimlərin diaqnostik qiymətləndirilməsi ilə bağlı məsələləri əhatə edib.

Qeyd edək ki, Telefon Məlumat Mərkəzinə ötən ay ərzində ən çox həftənin cümə (3215 zəng) və cümə axşamı (3121 zəng) günləri, əsasən, saat 10:00-dan 12:00-dək və 14:00-dan 16:00-dək müraciət olunub. Vətəndaşların Qəbulu Mərkəzinə isə ən çox həftənin cümə (619 müraciət) və cümə axşamı (539 müraciət) günləri, əsasən, saat 10:00-dan 13:00-dək və 14:00-dan 15:00-dək müraciət edilib.

# Müəllimlər üçün Sosial Media Seminarı

Paytaxtda Müəllimlər üçün II Sosial Media Seminarı keçirilib.

Sosial Media Seminarında Səbail və Pirallahı rayonlarındakı ümumi təhsil müəssisələrinin internet resurslarına məsul əməkdaşları iştirak edib.

Seminarın keçirilməsində əsas məqsəd sosial şəbəkələrdə ümumi təhsil məktəblərinin uğurlarının təbliğ edilməsi, yaxşı təcrübənin yayılması və sosial şəbəkələrdən düzgün istifadənin formalaşdırılması, o cümlədən məktəblərin virtual aləmdə daha fəal təmsil olunmasının təmin edilməsindən ibarətdir.

Təhsil Nazirliyi, Milli Olimpiya Komitəsi, Gənclər və İdman Nazirliyinin birgə təşkilatçılığı ilə reallaşdırılan "Olimpiya Hərəkatı-2017" ("Olympic Moves-2017") idman proqramı çərçivəsində təşkil edilmiş seminarda sözügedən rayonlar üzrə hər məktəbdən internet resurslarını idarə edən (məktəb saytı, sosial şəbəkədəki səhifə) şəxslərə sosial mediadan daha fəal istifadə ilə bağlı təlim keçirilib. Təlim zamanı sosial mediada səhifəsi olan məktəblərin bu istiqamətdəki fəaliyyətlərini daha da təkmilləşdirmələri barədə lazımi məlumatlar verilib. Həmçinin, müvafiq səhifəsi olmayan təhsil müəssisələri üçün yeni səhifələr yaradılıb.

Qeyd edək ki, Müəllimlər üçün Sosial Media Seminarının paytaxtın digər rayonları üzrə də keçirilməsi nəzərdə tutulub. Hər rayon üzrə seminarın keçirilmə tarixi barədə məktəblərə öncədən məlumat veriləcək.

# Leyla Əliyeva sağlamlıq imkanları məhdud uşaqlar üçün xüsusi internat məktəblərində olub



Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva sağlamlıq imkanları məhdud uşaqlar üçün 12 və 2 saylı xüsusi internat məktəblərində olub.

AZƏRTAC xəbər verir ki, internat məktəblərində təlim-tərbiyə alan uşaqlarla görüşən Leyla Əliyeva tədris korpuslarındakı mövcud şəraitlə tanış olub, uşaqların təhsili və asudə vaxtlarının təşkili ilə maraqlanıb.

12 saylı internat məktəbinin yetirmələri hazırladıqları müxtəlif bədii proqram, şeir və rəqs nömrələri təqdim ediblər.

Daha sonra 2 saylı internat məktəbinə gələn Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva ibtidai və yuxarı sinif şagirdlərinin təhsil prosesi ilə maraqlanıb.

İnternat evinin yetirmələri müxtəlif səhnəciklər, o cümlədən vətənpərvərlik mövzusunda kompozisiya və rəqs nömrələri ilə çıxış ediblər.

Leyla Əliyeva, eyni zamanda, 12 və 2 saylı internat məktəblərində uşaqların müxtəlif əl işləri ilə tanış olub.

# Respublika fənn olimpiadalarının final mərhələsi keçiriləcək



21-23 aprel 2017-ci il tarixlərində Respublika fənn olimpiadalarının final mərhələsi keçiriləcək.

Fizika, kimya, riyaziyyat, biologiya, informatika, tarix, coğrafiya, Azərbaycan dili və ədəbiyyatı olmaqla 8 müxtəlif fənn üzrə keçirilən fənn olimpiadalarının birinci-rayon (şəhər) mərhələsində 30000 nəfərə yaxın, respublika mərhələsinin yarımfinal turunda isə 5909 nəfər şagird iştirak edib.

Final turunda iştirak edəcək 534 nəfər şagirddən 307-si texniki və təbiət fənləri, 227 şagird isə humanitar fənlər üzrə biliklərini sınayacaq. Şagirdlərdən 282 nəfəri paytaxt, 252 nəfəri isə bölgə məktəblərinin payına düşür.

İlk iki mərhələdə şagirdlərə tapşırıqlar qapalı test formatında təqdim edilsə də, fənn olimpiadalarının final mərhələsində onlara açıq tipli, isbat, izahat, həll tələb edilən sual və tapşırıqlar təqdim olunacaq. Son mərhələdə iştirak edən bütün şagirdlərə olimpiadanın "İştirak" sertifikatı veriləcək.

Yekunda hər fəndən 30 nəfər qalib seçiləcək. Final mərhələdə 240 nəfər şagird müvafiq olaraq qızıl, gümüş, bürünc medal, diplom və müxtəlif hədiyyələrlə təltif olunacaq. Artıq ənənə halını almış məqamlardan biri kimi hər fəndən ölkə üzrə ən güclü şagird "Birincilərin birincisi" nominasiyası üzrə təltif ediləcək.

Final turunda şagirdlərə yazı işlərini təhvil verdikləri zaman sualların düzgün cavabları, izahları, həlləri və qiymətləndirmə meyarları təqdim ediləcək.

Yazı işləri təhsil nazirinin müvafiq əmri ilə təsdiq edilmiş fənlər üzrə münsiflər heyəti tərəfindən yoxlanılaraq qiymətləndirilir. Nəticələr elan olunduqdan sonra qiymətləndirmədən razı qalmayan şagirdlər üçün münsiflər heyəti ilə birgə yazı işlərinin müzakirə edilməsinə şərait yaradılır.

İstedadlı şagirdlərin aşkar edilməsi, onların potensiallarının artırılması və nümayiş etdirmə imkanlarının, həmçinin şagirdlər arasında müsbət rəqabət şəraitinin yaradılması məqsədi ilə 2013-cü ildən olimpiadaların keçirilməsi və təşkili üzrə yeni qaydalar hazırlanıb.

Qeyd edək ki, Respublika fənn olimpiadalarının keçirilməsinə "Kapital Bank" dəstək göstərir. "Kapital Bank" Təhsil Nazirliyi ilə birgə bir sıra layihələrin həyata keçirilməsində yaxından iştirak edib.

# UFAZ ilə Bakı Fransız Liseyi arasında elmi əməkdaşlıq sazişi imzalanıb

Fransa-Azərbaycan Universiteti (UFAZ) ilə Bakı Fransız Liseyi arasında imzalanmış elmi əməkdaşlıq sazişinə uyğun olaraq UFAZ tələbələri ilk dəfə olaraq kimya üzrə praktik dərslərini yerinə yetirmək üçün liseyin laboratoriyalarında təcrübəyə başlayıblar. Təcrübə proqramı aprel ayı ərzində, 1 ay davam edəcək.

Fransa-Azərbaycan Universiteti (UFAZ) Fransa və Azərbaycan respublikaları prezidentlərinin təşəbbüsü ilə irəli sürülmüş və 2016-cı il sentyabr ayından fəaliyyət göstərən bir layihədir. Azərbaycan Dövlət Neft və Sənaye Universiteti (ADNSU) ilə Strasburq Universiteti tərəfindən birgə aparılan tədris 4 ixtisas üzrə həyata keçirilir.

UFAZ-da tədris fransız proqramları əsasında aparılır. UFAZ məzunları iki diplom (Strasburq Universiteti və ADNSU) alacaqlar.

Bütün ixtisaslar üzrə tədris 4 il (1 il hazırlıq + 3 il əsas tədris) ərzində ingilis dilində ADNSU-nun əsas korpusunda aparılır. İxtisaslar üzrə UFAZ-ın ən yaxşı tədris göstəricilərinə malik tələbələrin Fransaya yay məktəblərinə göndərilməsi planlaşdırılır. 2016/2017-ci tədris ili üçün UFAZ-da hər bir ixtisas üzrə 30 dövlət sifarişli və 10 ödənişli əsaslarla, 141 tələbə təhsil alır.

# Olimpiadalara hazırlıq məsələləri müzakirə olunub

Aprelin 5-də Təhsil İnstitutu tərəfindən olimpiadalara hazırlıqla bağlı "dəyirmi masa" keçirilib.

Tədbirdə olimpiadalara hazırlıq məsələləri və institut tərəfindən bununla bağlı məktəblər üçün hazırlanacaq xüsusi kurikulum barədə müzakirələr aparılıb.

"Dəyirmi masa"da Təhsil İnstitutu tərəfindən riyaziyyat fənni üzrə yerli və beynəlxalq olimpiadalarda iştirak etmiş və gələcəkdə iştirak etməyi düşünən şagirdlər, həmçinin fənn müəllimləri üçün çap olunan vəsaitin təqdimatı keçirilib.

Tədbirdə Təhsil Nazirliyinin müvafiq struktur bölmə rəhbərləri, Təhsil İnstitutunun rəhbərliyi, şöbə müdirləri və məktəb direktorları iştirak edib.

# Seul Universiteti dövlət qulluqçuları üçün təqaüd proqramı elan edib

## Proqrama 3 illik iş təcrübəsinə malik namizədlər müraciət edə bilərlər



Cənubi Koreya Respublikasının Seul Universiteti dövlət qulluqçuları üçün "Şəhərin idarə edilməsi və planlaşdırılması" üzrə magistr (MUAP) təqaüd proqramını elan edib. Proqrama 3 illik iş təcrübəsinə malik 40 yaşadək namizədlər müraciət edə bilərlər. Təhsil müddəti 2017-ci ilin avqustundan 2019-cu ilin avqust ayınadək müddəti (25 ay) əhatə edir. Tədris ingilis dilindədir. Tələbələrin aylıq təqaüdü, təhsil haqqı, yataqxana, yol xərci və s. qarşı tərəfdən ödənilir.

Namizədlər sənədlərini 19 aprel 2017-ci il tarixinədək (müraciət forması: *http://isus.uos.ac.kr/isus/iudp/iudp_agree.do*) təqdim edə bilərlər.

Universitet 2008-ci ildən başlayaraq Seul paytaxt hökuməti ilə "Şəhərin idarə edilməsi və planlaşdırılması" üzrə magistr (MUAP) təqaüd proqramını həyata keçirir. Proqramın hədəfi inkişaf etməkdə olan ölkələrdə şəhər təsərrüfatının planlaşdırılması və inkişaf etdirilməsi, yaşayış keyfiyyətinin yaxşılaşdırılmasına kömək göstərməkdir. Magistr proqramı iştirakçılara MUAP üzrə nüfuzlu müəllimlərdən dərs almağa və müasir şəhərin problemlərinin həllinə dair öz biliklərini artırmağa imkan verir. Bu vaxta qədər adıçəkilən proqram üzrə yüzdən artıq magistr hazırlanıb.

Qeyd edək ki, Seul Universiteti Asiya qitəsinin ən nüfuzlu ali məktəbləri arasında ön sıralarda yerləşir. Universitetin məzunları biznes, telekommunikasiya, tibb və digər sahələrdə ən yüksək vəzifələr tutur. Ali məktəb hər il dünyanın 40-dan artıq ölkəsindən mübadilə proqramları əsasında əcnəbi tələbələr qəbul edir. Universitetdə Koreya dilinin effektiv və peşəkar səviyyədə öyrənilməsinə imkan verən mərkəz fəaliyyət göstərir.

**Oruc MUSTAFAYEV**

# Cocuq Mərcanlıda bir gün







## Bir qrup əcnəbi tələbə və media nümayəndələri işğaldan azad edilmiş kəndə səfər edib

**Niyazi RƏHİMOV**

Aprelin 5-də Təhsil Nazirliyinin təşkilatçılığı ilə ölkəmizin ali məktəblərində təhsil alan bir qrup əcnəbi tələbə və media nümayəndələri Cəbrayıl rayonunun işğaldan azad edilmiş Cocuq Mərcanlı kəndinə səfər edib. Təhsil nazirinin müavini Firudin Qurbanovun da iştirak etdiyi səfərin əsas məqsədi əcnəbi tələbələrə Cocuq Mərcanlı kəndində ermənilər tərəfindən törədilən vəhşilikləri göstərmək, torpaqlarımızın geriyə qaytarılması əzmini nümayiş etdirmək, eləcə də ölkə Prezidenti cənab İlham Əliyevin sərəncamı ilə kəndin bərpası istiqamətində görülən işlər barədə məlumatlandırmaq idi.

Öncə səfər iştirakçıları Füzuli rayonunun Horadiz şəhərindəki Heydər Əliyev Mərkəzinə gəliblər. Ümummilli liderin büstü önünə gül dəstələri qoyulub. Sonra Cəbrayıl rayonunun işğaldan azad edilmiş Cocuq Mərcanlı kəndinə səfər edilib. Azərbaycan Respublikası Prezidentinin sərəncamına müvafiq olaraq, Cocuq Mərcanlı kəndinin bərpası ilə bağlı görülən tədbirlər, ərazidə aparılan minadan təmizləmə və tikinti işləri haqqında əcnəbi tələbələrə məlumat verilib.

İştirakçılar Cocuq Mərcanlıda yeni bünövrəsi qoyulan məktəbin tikinti işləri ilə tanış olduqdan sonra 20 ildən artıq Cocuq Mərcanlı kəndində yaşayan Həziyevlər ailəsi ilə görüşüb. Yenidən bərpa olunan yaşayış məntəqəsində xeyli sayda ağac əkiblər.

Səfər çərçivəsində həmçinin Horadiz şəhərindəki Heydər Əliyev Mərkəzində N saylı hərbi hissənin əsgərləri ilə də görüş keçirilib.

Görüşdən sonra Horadiz şəhərində Heydər Əliyev Fondu tərəfindən inşa olunan 3 nömrəli tam orta məktəbdə müəllim və şagirdlərlə görüş keçirilib, burada təhsil alan şəhid övladlarına kitablar hədiyyə olunub.







# Əcnəbi tələbələrin səfər təəssüratları



**Ella STRİGUTA,**
*Bakı Dövlət Universitetinin tələbəsi*

Səfərimiz çox gözəl oldu. Bu səfərə görə təşkilatçılara təşəkkür edirəm. Qarabağın bir hissəsini, əsasən də işğaldan azad olunan ərazini görmək, buradakı insanlarla tanış olmaq çox yaxşı idi.

Mən Rumıniya vətəndaşıyam və tarixçi olduğum üçün orada yaşayarkən də Dağlıq Qarabağ münaqişəsi haqqında müəyyən məlumatlarım var idi. Etiraf edim ki, Azərbaycana gəlmədən öncə məsələnin mahiyyətini tam anlamış deyildim. Münaqişədə kimin haqlı, kimin haqsız olduğu mənim üçün qaranlıq idi. Lakin ölkənizdə tələbə olduqdan sonra bu münaqişə ilə bağlı daha çox bilgilərə sahib oldum. Beynəlxalq təşkilatların, müxtəlif dövlətlərin məsələyə münasibətini öyrəndim. Digər araşdırmalarımdan sonra ermənilərin işğalçı siyasət yeritdiyini, qonşu ölkənin torpaqlarının bir hissəsini zəbt etdiyini başa düşdüm. Ötən il münaqişə zonasında müharibənin yenidən davam etdiyini eşidəndə və biləndə isə çox pis oldum. Çünki heç kim insan qanının tökülməsinin tərəfdarı deyil. Lakin biz istəməsək də, qlobal dünyamızda münaqişələr qaçılmazdır. Azərbaycan tərəfinin ötən il baş verən bu qısa sürən savaşda işğal olunmuş ərazisinin kiçik bir qismini qaytarması yaxşı haldır. Düşünürəm ki, hər bir dövlətin öz ərazisini işğalçıdan təmizləməyə haqqı var. Bu gün işğaldan azad olan Cocuq Mərcanlının gerçək sahibinə qaytarılması ədalətin bərpasıdır. İstərdim ki, bu kənddə böyüyüb boya-başa çatan insanlar öz torpaqlarına qayıtsın. Burada rahat, xoşbəxt yaşasınlar.



**Garreth SHOKO,**
*Azərbaycan Dövlət İqtisad Universitetinin tələbəsi*

Erasmus proqramı çərçivəsində UNEC-də təhsil alıram. Bakını və insanlarınızı çox sevirəm. Çox mehriban, istiqanlı insanlarınız var. Bakıda özümü rahat və təhlükəsiz hiss edirəm. Təhsil aldığım universitetdə də dərslərimiz çox yüksək səviyyədə keçir. Bakıdan kənara çıxmaq, bu coğrafiya ilə yaxından tanış olmaq mənim arzum idi. Bu arzumu gerçəkləşdirdiyinə görə təşkilatçılara minnətdaram. Təşkilatçılar bizə səfər müddətində Azərbaycanın mədəniyyəti, iqtisadi və siyasi həyatı haqqında ətraflı məlumat verdi. O ki qaldı yeni azad olunan Cocuq Mərcanlı kəndinə, burada gördüyüm mənzərə məni sevindirdi. Ona görə sevindim ki, haqq öz yerini tapıb və yerli əhali öz kəndlərində yaşaya biləcək. Bu gün mən qəsəbədəki məktəbdə olarkən uşaqların gözündə bir sevinc və bununla yanaşı, bir mərhəmət hissi də gördüm. Düşünürəm ki, müharibələr zamanı ən çox əziyyət çəkən uşaqlar, körpələrdir. Mən özüm Zimbabvedə anadan olmuşam. Bildiyiniz kimi, Afrika ölkələri də daim münaqişə zonasında olub. Bu münaqişələr zamanı insanlar tələf olur, evləri dağıdılır. Təbii ki, bu, çox pis bir şeydir.

Heç bir insana müharibə görməyi arzulamıram. Lakin işğalçılıq olanda, başqasının torpağına göz dikəndə təbii ki, həmin dövlət cəzalanır. Necə ki, bildiyim qədər, ötən ilin aprel ayında Azərbaycan ordusu qarşı tərəfi cəzalandırmışdı.



**Can AKAR,**
*Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin tələbəsi*

Münaqişə zonasında olmaq, bu torpaqları gəzmək, işğaldan azad olmuş kəndi görmək mənim üçün çox gözəl bir hiss idi. Bugünkü səfərimiz zamanı şahid olduq ki, hazırda burada qızğın işlər gedir. Ermənilər tərəfindən dağıdılan kənd yenidən bərpa olunur. Məktəb, kitabxana və evlər tikilir. Bu, uzun illər boş qalan kənddə yenidən həyatın canlanması deməkdir. Bu torpaqların gerçək sahibinə qaytarılması, Cocuq Mərcanlıda yenidən həyatın canlanması məni çox sevindirir. Fürsətdən istifadə edib ötən il ərazilərin qaytarılmasında iştirak edən şəhidlərə Allahdan rəhmət diləyirəm. Ruhları şad olsun. İnanıram ki, Azərbaycan əsgəri bu torpaqları geri aldığı kimi, digər işğal olunmuş əraziləri də azad edəcək. Biz tələbələrə bu tarixi yerləri görmək üçün şərait yaradan Təhsil Nazirliyinə minnətdarlığımı bildirirəm. Ümid edirəm ki, gələcəkdə də bu kimi səfərlər təşkil olunacaq və biz tələbələr Azərbaycanı daha yaxından tanıyacağıq.



**Mahmud ATHAR,**
*Bakı Dövlət Universitetinin tələbəsi*

Artıq iki ildir ki, Azərbaycandayam. Pakistan vətəndaşıyam. Ölkənizi, insanlarınızı çox sevirəm. Təhsil aldığım universitetlə bağlı da çox müsbət fikirlərim var. Bugünkü səfərimizə gəldikdə isə onu deyə bilərəm ki, bu səfər mənim üçün çox əhəmiyyətli idi. Ona görə əhəmiyyətlidir ki, mətbuat vasitəsilə əldə etdiyim informasiyaların bir çoxunun bu gün şahidi oldum. Düzünü deyim ki, Azərbaycanda olduğum müddətdə Bakıdan kənara çıxmamışdım. Səfər zamanı təkcə getdiyimiz yeri deyil, həm də yol boyu əraziləri də gördüm. Doğrudan da Qarabağın əsrarəngiz, məftunedici təbiəti var. İşğaldan azad olunmuş Cocuq Mərcanlı kəndində yenidən quruculuq işlərinə başlanması, məktəb binasının inşası isə məni çox sevindirdi. Düşünürəm ki, artıq insanlar öz yurdlarında yaşaya biləcək. Bizə belə bir şərait yaratdığına görə Təhsil Nazirliyinə minnətdarlığımı bildirirəm. Münaqişə ilə bağlı məsələyə gəldikdə onu deyə bilərəm ki, dünyanın bütün dövlətləri və beynəlxalq təşkilatlar Azərbaycanın ərazi bütövlüyünü tanıyır. Ermənilər artıq işğal etdikləri torpaqlardan çıxmalıdır və müharibəyə, qan tökülməsinə son qoyulmalıdır. Mən dünyanın hər bir yerində sülh, əmin-amanlıq olmasının arzusundayam.

# Lələtəpə bu ərazilərdə çox mühüm strateji yüksəklikdir

**Mənsur MƏMMƏDOV,**
*keçmiş döyüşçü*



Horadiz və ətraf kəndlərin ermənilərdən təmizlənməsi uğrunda gedən döyüşlərdə yaxından iştirak etmişəm. Həmin dövrdə biz döyüşçülərdə çox yüksək əhvali-ruhiyyə, döyüş əzmi var idi. Düzdür, itkilərimiz də olurdu. Lakin bu itkilərə baxmayaraq Füzuli rayonunun işğal olunmuş böyük bir ərazisini düşmənlərdən geri ala bildik. Ötən ilin aprel ayındakı döyüşlərdə ordumuzun Lələtəpə yüksəkliyini geri qaytarması isə məni və bütün xalqımızı çox sevindirdi. Keçmiş döyüşçü olaraq demək istəyirəm ki, Lələtəpə bu ərazilərdə çox mühüm strateji yüksəklikdir. İnanıram ki, ordumuz düşmən tapdağı altında qalan digər torpaqlarımızı da azad edəcək. Allah həmin günü görməyi hər birimizə qismət eləsin.

# Ordumuzun gücünə, qüdrətinə həmişə inanmışam

**Oktay HƏZİYEV,**
*kənd sakini*



1994-cü ildən Cocuq Mərcanlıda yaşayıram. Keçən ilin aprel ayına qədər bu kənddə yaşamaq nə qədər təhlükəli olsa da, mən öz ata-baba yurdumu tərk etmədim. Ordumuzun gücünə, qüdrətinə həmişə inanmışam. Heç vaxt ermənilərdən qorxmamışam. Lakin buna baxmayaraq ehtiyatımı da əldən verməmişəm. Şükürlər olsun ki, Lələtəpə yüksəkliyi ordumuz tərəfindən geri qaytarıldıqdan sonra kənddə artıq təhlükəsiz yaşayırıq. Bu gün sizin də gördüyünüz kimi kənddə cənab Prezidentimizin sərəncamı ilə yeni evlər, məktəb binası tikilir. Artıq uzun müddət didərgin düşən həmkəndlilərim öz torpaqlarına qayıtmağa hazırlaşır. Bu, kənd sakinlərini çox sevindirir.

# Müəllimlərin bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi tədbirlərinin davam etdirilməsi barədə

## Azərbaycan Respublikası təhsil nazirinin əmri

“Dövlət ümumi təhsil müəssisələrində çalışan bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılan müəllimlərin dərs yükünün və əməkhaqqının artırılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 16 yanvar 2015-ci il tarixli 994 nömrəli Sərəncamına əsasən bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılan müəllimlərin həftəlik dərs yükü normasının 1,5 dəfə, aylıq vəzifə maaşlarının isə orta hesabla 2 dəfə artırılması nəzərdə tutulmuşdur.

2014-cü ildə Bakı şəhərinin dövlət ümumi təhsil müəssisələrində işləyən 30 mindən çox müəllim üçün diaqnostik qiymətləndirilmə keçirilmişdir. Müəllimlərin sosial rifah halının yaxşılaşdırılması üçün qeyd olunan tədbirlər 2015-ci ilin noyabr-dekabr aylarında da davam etdirilərək, Gəncə, Sumqayıt, Şirvan şəhərlərinin, Abşeron, Cəlilabad, Hacıqabul, Xaçmaz, İmişli, Qubadlı, Masallı, Saatlı, Sabirabad rayonlarının dövlət ümumi təhsil müəssisələrində çalışan 26 minə yaxın müəllimin bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi keçirilmişdir. 2016-cı ilin noyabr-dekabr və 2017-ci ilin yanvar ayında keçirilmiş diaqnostik qiymətləndirmənin növbəti mərhələsində digər 26 şəhər və rayonlar əhatə olundu: Ağcabədi, Ağsu, Astara, Biləsuvar, Daşkəsən, Gədəbəy, Göygöl, İsmayıllı, Kürdəmir, Lənkəran, Lerik, Neftçala, Quba, Qusar, Samux, Salyan, Siyəzən, Şabran, Şamaxı, Şəmkir, Şuşa, Ucar, Xaçmaz, Xızı, Yardımlı, Zərdab.

Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamının icrası istiqamətində ümumi təhsil müəssisələrində işləyən müəllimlərin peşəkarlıq səviyyəsinin qiymətləndirilməsi və əlavə təlim ehtiyaclarının müəyyənləşdirilməsi, müəllimlərin dərs yükü norması və əməkhaqqının artırılması üzrə başlamış prosesin ölkənin digər şəhər və rayonlarının ümumi təhsil müəssisələrində davam etdirilməsi məqsədilə “Azərbaycan Respublikasının Təhsil Nazirliyi haqqında Əsasnamə”nin 13.5-ci bəndini rəhbər tutaraq

**ƏMR EDİRƏM:**

**1.** 2017-ci ilin aprel-may aylarında Mingəçevir, Naftalan şəhərlərinin, Ağdam, Ağdaş, Ağstafa, Balakən, Bərdə, Beyləqan, Cəbrayıl, Füzuli, Goranboy, Göyçay, Kəlbəcər, Laçın, Oğuz, Qax, Qazax, Qəbələ, Şəki, Tərtər, Tovuz, Xocalı, Xocavənd, Yevlax, Zaqatala və Zəngilan rayonlarının dövlət ümumi təhsil müəssisələrində çalışan müəllimlərin bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi keçirilsin.

**2.** Bakı, Gəncə, Sumqayıt, Şirvan şəhərlərinin, Abşeron, Ağcabədi, Ağsu, Astara, Biləsuvar, Cəlilabad, Daşkəsən, Gədəbəy, Göygöl, Hacıqabul, İmişli, İsmayıllı, Kürdəmir, Lənkəran, Lerik, Masallı, Neftçala, Qobustan, Quba, Qubadlı, Qusar, Saatlı, Sabirabad, Samux, Salyan, Siyəzən, Şabran, Şamaxı, Şəmkir, Şuşa, Ucar, Xaçmaz, Xızı, Yardımlı, Zərdab rayonlarının dövlət ümumi təhsil müəssisələrinə işə yeni qəbul edilən, eləcə də müxtəlif səbəblərdən əvvəlki qiymətləndirmədə iştirak etməyən müəllimlərin 2017-ci ilin aprel-may aylarında bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi keçirilsin.

**3.** Bu əmrin 2-ci bəndində adları çəkilən şəhər (rayon) təhsil idarələri (şöbələri) diaqnostik qiymətləndirmədə iştirak edəcək kontingentin siyahısının 10 gün müddətinə Təhsil Nazirliyinin elektron bazasına daxil edilməsini təmin etsinlər.

**4.** Bu əmrin 1-ci bəndində adları çəkilən şəhər (rayon) təhsil şöbələrinə, De-institutlaşma və uşaqların müdafiəsi idarəsinə (M.Hacıyeva) tapşırılsın ki:

4.1. tabeliklərindəki ümumi və xüsusi təhsil müəssisələrində işləyən müəllimlərin siyahılarının hazırlanmasını və cari ilin martın 15-dək Təhsil Nazirliyinin elektron bazasına daxil edilməsini təmin etsinlər;

4.2. müəllimlərin diaqnostik qiymətləndirilmədə iştirakını təmin etsinlər;

4.3. diaqnostik qiymətləndirmədə iştirak edəcək müəllimlərin İKT bacarıqlarının inkişaf etdirilməsi üçün tədbirlər təşkil etsinlər.

**5.** Diaqnostik qiymətləndirmənin keçiriləcəyi rayonlar üzrə müvafiq ərazi maliyyə hesablaşma mərkəzləri şəhər (rayon) təhsil idarələri (şöbələri) tərəfindən elektron bazaya daxil edilmiş kontingent haqqında məlumatın dürüstləşdirilməsini təmin etsinlər.

**6.** İnformasiya şöbəsinə (E.Əliyev) və İnsan resursları şöbəsinə (E.Bağırov) tapşırılsın ki:

6.1. nazirliyin aidiyyəti struktur bölmələri və müvafiq yerli təhsili idarəetmə orqanları ilə birgə diaqnostik qiymətləndirmənin keçirilməsi üçün hazırlıq işlərini və zəruri təşkilati tədbirlərin həyata keçirilməsini təmin etsinlər;

6.2. diaqnostik qiymətləndirmə başa çatdıqdan sonra nəticələri rəhbərliyə təqdim etsinlər.

**7.** Təhsilin inkişafı proqramları şöbəsinə (E.Əmrullayev) tapşırılsın ki:

7.1. nazirliyin aidiyyəti şöbələri ilə birlikdə diaqnostik qiymətləndirmənin nəticələrini təhlil etsin;

7.2. diaqnostik qiymətləndirmənin nəticələrinə əsasən müəllimlərin peşəkar ehtiyaclarını nəzərə almaqla onların ixtisasartırma üzrə təlimlərə cəlb olunmasını təşkil etsinlər.

**8.** Təhsilin inkişafı proqramları şöbəsi (E.Əmrullayev), Ümumi və məktəbəqədər təhsil şöbəsi (A.Əhmədov) qiymətləndirmənin nəticələri əsasında ümumi təhsil üzrə fənn kurikulumlarının və ixtisasartırma təhsili proqramlarının, eləcə də müəllim hazırlığı proqramlarının təkmilləşdirilməsi üzrə təkliflər hazırlayıb təqdim etsinlər.

**9.** Maliyyə şöbəsi (R.Orucov), Əsaslı Tikinti və Təchizat İdarəsi (A.Axundov) diaqnostik qiymətləndirmənin keçirilməsi ilə əlaqədar maliyyə və digər təşkilatı məsələlərin həll olunmasını təmin etsinlər.

**10.** Əmrin 1-ci bəndində qeyd olunan şəhər və rayonlar üzrə diaqnostik qiymətləndirmədən keçən müəllimlərin əməkhaqqı artımının 01 yanvar 2018-ci il tarixdən tətbiq olunacağı nəzərə alınsın.

**11.** İnformasiya şöbəsi (E.Əliyev) bu əmrin “Azərbaycan müəllimi” qəzetində dərc edilməsini, aidiyyəti struktur qurum və bölmələrə çatdırılmasını, Nazirliyin internet saytında yerləşdirilməsini təmin etsin.

**12.** Əmrin icrasına nəzarət nazir müavininə (M.Eynullayev) həvalə edilsin.

**Mikayıl CABBAROV,**
**Azərbaycan Respublikasının təhsil naziri**

*1 mart 2017-ci il*

# Diaqnostik qiymətləndirmənin növbəti mərhələsi başlanır

## *Qiymətləndirmədən keçən müəllimlərin əməkhaqları 2018-ci ilin yanvarından artırılacaq*

⇦ **Əvvəli səh.1**

12-17 may 2017-ci il tarixlərində Mingəçevirdə Kür Olimpiya İdman Mərkəzində keçiriləcək diaqnostik qiymətləndirmədə Mingəçevir və Naftalan şəhər, Yevlax, Ağdaş, Goranboy, Göyçay, eləcə də bu rayonlardakı Kəlbəcər, Ağdam, Xocalı və Laçın rayonlarının ümumi təhsil müəssisələrinin müəllimləri iştirak edəcək.

Bakı şəhərində keçiriləcək diaqnostik qiymətləndirmə isə iki gün davam edəcək. 24-25 may 2017-ci il tarixlərində keçiriləcək qiymətləndirməyə Bakı şəhərindəki Zəngilan, Xocavənd, Cəbrayıl, Xocalı, Kəlbəcər, Ağdam, Füzuli və Laçın rayonlarının ümumi təhsil müəssisələrində çalışan müəllimlər cəlb ediləcək.

Bununla da respublikada çalışan bütün müəllimlərin diaqnostik qiymətləndirmədən keçmiş olacaqlarını deyən E.Bağırov bu mərhələdə qiymətləndirmədən keçən müəllimlərin əməkhaqlarının 2018-ci ilin yanvarından artırılacağını diqqətə çatdırıb.

Qeyd olunub ki, diaqnostik qiymətləndirmədə iştirak edəcək müəllimlər *www.dq.edu.az* saytına daxil olmaqla bu barədə ətraflı məlumat ala bilərlər. Hər bir namizədin şəxsi səhifəsində diaqnostik qiymətləndirmənin keçirilmə tarixi və vaxtı ilə bağlı məlumat yerləşdiriləcək. Eyni zamanda həmin saytda diaqnostik qiymətləndirmənin elektron qaydada kompüter vasitəsi ilə keçirilməsi və hər bir müəllimin imtahana qədər kompüterdən istifadə vərdişlərinin inkişaf etdirilməsi məqsədi ilə “Simulyativ test” bölməsi yaradılıb.

Diaqnostik qiymətləndirmədə qeyd olunan rayonların dövlət ümumi təhsil müəssisələrində müddətsiz və müddətli müqavilə ilə çalışan müəllimlərlə yanaşı, gənclərin çağırışaqədərki hazırlıq rəhbərləri də iştirak edəcəklər.

Diaqnostik qiymətləndirmənin nəticələrinə əsasən müəllimlərin bilik və bacarıq səviyyələri müəyyənləşdiriləcək, onların dərs yükü norması və əməkhaqqı artırılmaqla maddi rifahı yaxşılaşdırılacaq. Həmçinin həmin müəllimlər inkişafyönümlü təlimlərə cəlb ediləcəklər.

**Yusif ƏLİYEV**

# 156 azərbaycanlı gənc ikili diplom alıb

## *“Azərbaycan-Avstriya Turizm Proqramı”nın 10 illik yubileyi qeyd olunub*



Aprelin 7-də “JW Marriot Absheron” hotelində “Azərbaycan-Avstriya Turizm Proqramı”nın (AATP) 10 illik yubileyi münasibətilə “Azərbaycan-Avstriya Turizm Proqramı Azərbaycanda ilk ikili diplom proqramı təcrübəsi: nailiyyətlər və perspektivləri” mövzusunda beynəlxalq konfrans keçirilib.

Konfrans Mədəniyyət və Turizm Nazirliyi və Azərbaycan Turizm və Menecment Universitetinin birgə təşkilatçılığı ilə reallaşıb.

Azərbaycan Turizm və Menecment Universitetinin rektoru səlahiyyətlərini icra edən Eldar Aslanov çıxış edərək konfransın proqramı haqqında iştirakçılara ətraflı məlumat verib. Bildirilib ki, sözügedən proqram üzrə indiyədək 143 bakalavr və 13 magistr olmaqla 156 azərbaycanlı gənc hər iki universitetin diplomunu alıb. Onlar hazırda beynəlxalq tələblərə cavab verən əmək bazarlarında layiqincə təmsil olunurlar.

Tədbirdə mədəniyyət və turizm naziri Əbülfəs Qarayevin “Azərbaycan turizm sektorunda keyfiyyətin kadr təminatı” mövzusunda məruzəsi dinlənilib. Nazir proqramın önəmindən danışaraq bildirib ki, proqram üzrə məzun olmuş tələbələr Azərbaycan turizm sənayesinə öz töhfələrini verməkdədir. Buna görə də bu proqram üzrə təhsil alan tələbələrin sayının artırılması vacibdir.

Qeyd olunub ki, dövlət başçısı tərəfindən turizm sahəsinə yüksək diqqət və qayğı göstərilir. Bu qayğı nəticəsində yaxın gələcəkdə turizm peşə məktəblərinin sayının çoxaldılması nəzərdə tutulub.

Nazir bildirib ki, bu ilin ilk üç ayında ölkəmizə gələn turistlərin sayında ötən ilin müvafiq dövrü ilə müqayisədə 24,9 faiz artım olub. 3 ayda ölkəmizə 544 min xarici turist səfər edib. Azərbaycan turizmi ölkənin ümumi daxili məhsulunda (ÜDM) 4 faiz paya malikdir. 2025-ci ilədək Azərbaycan turizmi ÜDM-in 8 faizini təşkil edəcəyi gözlənilir.

Təhsil naziri Mikayıl Cabbarov “Azərbaycanda ali təhsildə beynəlxalq proqramların tətbiqi: nəticələr və perspektivlər” mövzusunda çıxış edib. Ölkəmizdə təhsil sisteminin inkişafından danışan Mikayıl Cabbarov bildirib ki, müasir dövrdə qloballaşan dünyanın tələblərinə uyğun təhsil sisteminin formalaşdırılması əsas amildir: “Təhsil sistemimiz iqtisadi cəhətdən dayanıqlı və dünyanın aparıcı təhsil sistemlərinin standartlarına uyğun səviyyəyə qaldırılmalıdır. Hazırda ölkəmizin ali təhsil müəssisələrində Avropa Komissiyasının TEMPUS, ERASMUS plyus, HORİZON və digər təhsil proqramları çərçivəsində müxtəlif layihələr həyata keçirilir. Bu layihələrin hər birinin məqsədləri vardır. Bu layihələr arasında Azərbaycanın bir neçə ali təhsil müəssisəsi ilə Avropa ali təhsil müəssisələri arasında ikili diplom proqramlarının işlənilməsinə aid layihələr xüsusi yer tutur”.

Avstriyanın GMC Tətbiqi Elmlər Universitetinin prezidenti Hans Boyer “Avstriya universitetlərində ikili diplom proqramları və AATP təcrübəsi” adlı məruzəsində müasir təhsil sisteminin inkişaf istiqamətlərinə toxunub. Sonra Hans Boyer rəhbəri olduğu ali təhsil ocağında turizmin tədrisinə həsr olunmuş təqdimatla çıxış edib. Daha sonra tədbir çərçivəsində AATP üzrə təhsil alan 156 tələbə ilə görüş keçirilib, maraq doğuran mövzular müzakirə olunub.

# UNEC kollektivi Lələtəpədə



UNEC-in rektoru, professor Ədalət Muradov və universitetin müəllim-tələbə heyəti Azərbaycan Ordusunun ötən ilin aprel döyüşlərində qazandığı qələbə münasibətilə Horadiz şəhərinə və Lələtəpə yüksəkliyinə səfər edib.

Müdafiə Nazirliyi və Füzuli Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə keçirilən səfərdə UNEC kollektivi ümummilli lider Heydər Əliyevin Horadizdəki abidəsini ziyarət edərək, önünə təzə gül dəstələri qoyublar. Heydər Əliyev parkından Horadiz-Cəbrayıl avtomobil yolunun kənarında inşa edilən “Aprel şəhidlərinə xatirə” abidəsinə qədər davam edən zəfər yürüşünə qatılıblar.

Zəfər yürüşündən sonra UNEC kollektivi Birlik komandiri, general-mayor Mais Bərxudarov, əməkdar incəsənət xadimi, polkovnik Abdulla Qurbani, millət vəkili, UNEC-in qiymət və qiymətləndirmə kafedrasının müdiri Xanhüseyn Kazımlı ilə birlikdə aprelin ilk günlərində Azərbaycan Ordusunun Ermənistan silahlı qüvvələrinin işğalından azad etdiyi strateji əhəmiyyətli “Lələtəpə” yüksəkliyinə gediblər.

Əsgər və zabitlərlə görüşdə general-mayor Mais Bərxudarov Azərbaycan Ordusu ilə qürur duyduğunu bildirib.

UNEC-in rektoru, professor Ədalət Muradov iftixar hissi ilə qeyd edib ki, 2016-cı il tariximizə həm də Azərbaycan ordusunun uzun illərdən sonra düşmən üzərində qazandığı ilk qələbə ili kimi də daxil olub. Ermənistan silahlı qüvvələrinin təxribatlarına cavab olaraq Azərbaycan əsgəri aprel ayının əvvəllərində əks-hücum əməliyyatı ilə düşmənin layiqli cavabını verib. Aprel döyüşlərində qazanılan qələbə Azərbaycan Prezidenti cənab İlham Əliyevin uzaqgörən diplomatiyasının, uğurlu daxili və xarici siyasətinin, sərkərdə məharətinin, Ali Baş Komandanın daimi diqqət və qayğısı ilə əhatə olunan Silahlı Qüvvələrimizin əsgər və zabitlərinin peşəkarlığının, mənəvi-psixoloji hazırlığının, döyüş ruhunun, vətənpərvərlik hissinin yüksək səviyyədə olması və xalqımızın ordu ilə monolit birliyi nəticəsində mümkün olub.

Polkovnik Abdulla Qurbani və millət vəkili Xanhüseyn Kazımlı görüşdə Azərbaycan Ordusunun qüdrətindən, hərbçilərimizin döyüşlərdə göstərdikləri qəhrəmanlıqlardan danışıblar.

Görüşdə UNEC-in tələbəsi, aprel döyüşlərinin iştirakçısı Məftun İsmayılov xatirələrini bölüşüb.

Goranboy rayonunun Tapqaraqoyunlu kəndində şəhid olan Qiyas Quliyevin qardaşı, UNEC-in müəllimi İbrahim Quliyev də qardaşı ilə bağlı xatirələrindən danışıb.

Çıxışlardan sonra UNEC kollektivinin əsgər və zabitlərə təbrik müraciəti səsləndirilib. Universitet kollektivi adından onlara hədiyyələr təqdim olunub.

# İnşaat Kollecinin şəhid məzunu AzMİU-da anılıb



Azərbaycan Memarlıq və İnşaat Universitetinin (AzMİU) Tələbə Həmkarlar İttifaqı Komitəsinin (THİK) təşkilatçılığı ilə AzMİU-nun nəzdində İnşaat Kollecinin məzunu, bu il fevralın 24-dən 25-ə keçən gecə erməni təxribatının qarşısını alarkən qəhrəmancasına həlak olan Zakir Cəfərov və ötən il aprel döyüşlərində şəhidlik zirvəsinə ucalan qəhrəmanların xatirəsinə həsr olunan anım mərasimi keçirilib.

Tədbirdə əvvəlcə Dövlət himni səslənib, şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Anım tədbirində AzMİU-nun rektoru, professor Gülçöhrə Məmmədova, şəhidin anası Kəmalə Abdullayeva, şəhidin ailə üzvləri, universitet və kollecin professor-müəllim, tələbə heyəti də iştirak ediblər.

Şəhidin anası Kəmalə Abdullayeva tədbirdə çıxış edərək oğlunun vətənpərvər, mərd, vətənini sevən gənc olmasından söz açıb və tədbirin təşkil edilməsində əməyi keçən universitet və kollec rəhbərliyinə öz təşəkkürünü bildirib.

AzMİU-nun rektoru, professor Gülçöhrə Məmmədova çıxış edərək ölkə rəhbərliyinin apardığı uğurlu siyasətdən, aprel döyüşlərində əldə edilən böyük qələbədən danışıb.

G.Məmmədova AzMİU-nun nəzdində İnşaat Kollecinin şəhid məzunu Z.Cəfərovdan söz açaraq bildirib ki, Zakir tək təhsil aldığı müəssisənin yox, xalqımızın başını uca edən bir qəhrəman olub. Yaşadığı qısa ömür yolu ilə o, bütün Azərbaycan gənclərinə örnəkdir, ən yaxşı nümunədir. Sonda rektor şəhidin anasına və yaxınlarına Allahdan səbr diləyib.

Tədbirdə AzMİU-nun və universitetin nəzdində İnşaat Kollecinin tələbələrinin birgə iştirakı ilə Z.Cəfərovun həyatından bəhs edən bədii kompozisiya nümayiş etdirilib, vətənpərvərlik mövzusunda şeirlər və musiqilər səsləndirilib.

Xatırladaq ki, AzMİU-nun nəzdində İnşaat Kollecinin “Avtomobil yolları və aerodromların tikintisi, istismarı və təmiri” ixtisasının 2014-2015-ci illərdə təhsil alan məzunu Zakir Cəfərov fevralın 24-dən 25-nə keçən gecə bütün cəbhə boyu irimiqyaslı təxribatlar törədən Ermənistan ordusunun hücumunun qarşısını alarkən öz komandirini döyüş meydanından çıxararkən düşmən gülləsinə tuş gəlib və şəhid olub.

# İngilis dilində təhsil alıb innovativ texnologiyalarla işləyənlər

## *Bakı Mühəndislik Universitetindən reportaj*

**Ruhiyyə DAŞSALAHLI**

Ötən ilin sonunda Azərbaycan ali təhsil müəssisələrinin sırasına daha bir universitet də qatıldı. Ölkədə mühəndis kadrların hazırlanması prosesinə öz töhfəsini verəcək həmin təhsil müəssisəsi fəaliyyətdə olduğu bir neçə ay ərzində sübut etdi ki, qarşısına qoyulan məqsədə nail olacaq. Söhbət ölkə başçısı İlham Əliyevin sərəncamı ilə 2016-cı il noyabrın 8-də yaradılan Bakı Mühəndislik Universitetindən gedir.

Təhsil naziri Mikayıl Cabbarov bu günlərdə yeni yaradılan universitetin tədris şəraiti ilə maraqlanıb. Ali təhsil ocağının maddi-texniki bazası ilə tanış olan nazir universitet rəhbərliyi və bir qrup müəllimlə görüşüb.

Məlumat üçün qeyd edək ki, Bakı Mühəndislik Universiteti ölkədə fundamental və tətbiqi elmi tədqiqatlar aparmaq üçün insan kapitalına və güclü maddi-texniki bazaya malik olan ali təhsil müəssisələrindəndir. Ali təhsilin bütün səviyyələri üzrə mühəndis kadrlarının hazırlığını, bu sahədə ali və əlavə təhsil proqramlarını həyata keçirən, fundamental və tətbiqi elmi tədqiqatlar aparan universitetdə Azərbaycan iqtisadiyyatının indiki inkişaf səviyyəsinə əsasən mövcud elmtutumlu sənaye müəssisələrində istehsal proseslərini təşkil etmək və innovativ texnologiyalarla işləmək bacarığına malik mütəxəssislərin hazırlığının həyata keçirilməsi nəzərdə tutulub.

Xırdalan şəhərində yerləşən universitet ümumilikdə 20 ha ərazini əhatə edib. Binalarının ümumi sahəsi 30 min kvadratmetrdir. 2 tədris korpusu, 2 yataqxanası var. Universitetdə mühəndislik fakültəsi laboratoriyası, kimya, mexanika, kompüter mühəndisliyi, fizika, biologiya, linqvistika laboratoriyaları fəaliyyət göstərir.

### Həm nəzəri bilik, həm də təcrübə

Nazir Mikayıl Cabbarov universitetin maddi-texniki bazası ilə tanışlığa Mexanika mühəndisliyi laboratoriyalarından başladı. Nazirə bildirildi ki, burada tədris ingilis dilində aparılır. Bundan başqa, ona kompüter inteqrasiyalı avtomatlaşdırılmış sistem barədə məlumat verildi. Kompüter mühəndisliyi ixtisası üzrə təhsil alan tələbələrə tədris edilən, insan əməyini əvəz edən robotun işi göstərildi.

Maşın mühəndisliyi ixtisası üzrə təhsil alan tələbələr dizayn etdikləri hissələrin 3D modelini necə hazırladıqlarını göstərdilər. Nazirə bildirdilər ki, tələbəsi olduqları universitetin loqosunun da 3D modeli tezliklə hazır olacaq.

Alternativ enerji laboratoriyasında günəşdən elektrik enerjisi əldə edilməsini təmin edən kollektorların işinə nəzər salan nazirə bildirildi ki, universitetin tələbələri günəş və ondan enerji əldə edilməsi təcrübəsini məhz burada qazanırlar. Çünki universitetdə mexanika mühəndisləri yetişdirmək üçün kifayət qədər avadanlıq var.

Nazir Mikayıl Cabbarov universitet tələbələrinin sənaye müəssisələrində istehsal proseslərini təşkil etmək imkanları ilə də maraqlandı. Bu məqsədlə bağlanan müqavilələr barədə məlumat verildi. Bildirildi ki, innovativ texnologiyalarla işləmək bacarığına malik mütəxəssislərin hazırlığı burada uğurla həyata keçirilir və hazırlanan kadrlar əldə etdiyi biliyi istənilən istehsal sahəsində müvəffəqiyyətlə tətbiq etmək iqtidarındadır.

### Tələbə "bazar"ı

Nazir universitet tələbələrinin əl işlərindən ibarət sərgiyə də baxdı. Məlum oldu ki, tələbələr öz əllərinin əməyi ilə müəyyən qazanc əldə etməyə başlayıblar. Belə ki, onlar düşüncələrinin və qabiliyyətlərinin məhsulu olan ayrı-ayrı nümunələri sataraq kiçik gəlir əldə edirlər. Tələbələr gəlir qutusuna daxil olan və o qədər də böyük olmayan həmin qazancla müəyyən ehtiyaclarını ödəyirlər. Nazir tələbələrin qiymətləndirmə siyasəti ilə - öz əl işlərinə necə qiymət qoyduqlarıyla da maraqlandı və diqqətini çəkən bir neçə nümunəni aldı.

### Prezident təqaüdçülərinin 9-u bu universitetin tələbəsidir

Tanışlıq Kimya mühəndisliyi laboratoriyasında davam etdi. Tələbələr qeyd etdilər ki, bəzi çatışmayan avadanlıqlar olsa da, buradakı şərait mütəxəssis hazırlığını axsatmadan tamamlamağa imkan verir. Kadr hazırlığında unikal baza hesab edilən universitet laboratoriyalarının təkmilləşdirilməsində dövlətin və nazirliyin köməyinə ehtiyac olduğu xüsusi vurğulandı.

Sonra nazir universitetin kollektivi ilə görüşdü. Görüşdə rektor Havar Məmmədov bildirdi ki, sözügedən ali təhsil ocağında 3800 bakalavr təhsil alır. Bu il Prezident təqaüdünə layiq görülənlərdən 9-u məhz Bakı Mühəndislik Universitetinin tələbəsidir. Ümumilikdə isə universitetdə 55 Prezident təqaüdçüsü təhsil alır.

### "Bakı Mühəndislik Universiteti yüksək potensiala malikdir"

Təhsil naziri Mikayıl Cabbarov həm müəllim, həm də tələbə kontingentinin mövcud bazadan istifadə etmək, innovasiyaları tətbiq etməklə böyük tədqiqatlar, layihələr həyata keçirmək gücündə olduğunu qeyd etdi. O, mühəndis hazırlığı sahəsində Bakı Mühəndislik Universitetinin potensialını yüksək qiymətləndirdi: "Bəzi ali təhsil müəssisələrimizdə, məsələn, kompüter mühəndisliyi üzrə yüksəkixtisaslı mütəxəssisləri hazırlamaq üçün müvafiq baza yoxdur. Bu baxımdan həmin universitetlərə sözügedən ixtisas üzrə kadr hazırlığı ilə məşğul olmaq hüququ verməməliyik. Lakin tələbələrinin 70 faizi ingiliscə təhsil alan, müasir idarəetmə formasını özündə birləşdirən bir formatda fəaliyyət göstərən Bakı Mühəndislik Universiteti bu imkanlara malikdir".

Mikayıl Cabbarov hər bir ali təhsil müəssisəsinin nailiyyətlərində mühitin birinci dərəcəli əhəmiyyət kəsb etdiyini vurğuladı: "Uğur qazanmaq üçün lazım olan həmin mühit burada mövcuddur. Digər amillər - idarəetmənin, insan kapitalının keyfiyyəti, motivasiyası, maddi-texniki baza və s. amillər imkan verir ki, Bakı Mühəndislik Universiteti qısa müddət içərisində universitetlər arasında öz layiqli yerini tutsun. Bunun üçün dövlət də zəruri sayılan dəstəyini əsirgəməyəcək. Çünki bu, ali təhsil sisteminin maraqlarına cavab verən siyasətdir".

### Müasir idarəetmə formatı

Təhsil naziri universitet qurularkən təhsil ocağının idarəetmə orqanının formalaşmasına da diqqətlə yanaşıldığını qeyd etdi. Onun sözlərinə görə, yeni yaradılan Bakı Mühəndislik Universiteti müasir idarəetmə formatına görə digər ali təhsil müəssisələrindən fərqlənəcək. Belə ki, universitetin strateji inkişaf məsələləri üzrə idarəetmə orqanı ictimai əsaslarla fəaliyyət göstərən Himayəçilər Şurasıdır. Bakı Mühəndislik Universitetinin Himayəçilər Şurasına təhsil nazirinin müavini Ceyhun Bayramov rəhbərlik edəcək. Nazir qeyd etdi ki, Təhsil Nazirliyi gələcəkdə Himayəçilər Şurasının tərkibində digər qurumların nümayəndələrini də görmək arzusundadır. Eyni zamanda, ali təhsil müəssisəsinin fəaliyyətinə köməklik göstərən özəl sektor təmsilçiləri də Himayəçilər Şurasında yer ala biləcək.

Daha sonra Bakı Mühəndislik Universitetinin müəllimləri çıxış edərək müxtəlif məsələlərlə bağlı fikirlərini bildirdilər. Görüşdə nazir xüsusi vurğuladı ki, səsləndirilən hər bir maraqlı təklif dəyərləndiriləcək.







# 2017-2018-ci dərs ilində dövlət ümumtəhsil məktəblərində məktəbəhazırlıq qruplarının təşkili barədə

## Azərbaycan Respublikası təhsil nazirinin əmri

Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Uşaqların məktəbəhazırlığının təşkili məsələləri haqqında" 2016-cı il 11 iyul tarixli 271 nömrəli qərarının icrası ilə əlaqədar Azərbaycan Respublikası Təhsil Nazirliyinin 2017-ci il üçün "Tədbirlər Planı"nın 3.1.3.1-ci bəndinin yerinə yetirilməsi məqsədilə "Azərbaycan Respublikası Təhsil Nazirliyi haqqında Əsasnamə"nin 13.5-ci bəndini əsas tutaraq

**ƏMR EDİRƏM:**

**1.** Naxçıvan MR Təhsil Nazirliyi, Bakı Şəhəri üzrə Təhsil İdarəsi, Gəncə Şəhər Təhsil İdarəsi və rayon (şəhər) təhsil şöbələrinə tapşırılsın ki:

1.1. Aidiyyəti yerli təşkilatlarla birgə 2017-2018-ci dərs ilində məktəbəhazırlıq qruplarına cəlb olunacaq 2012-ci il təvəllüdlü 5 yaşlı uşaqların sayının dəqiqləşdirilməsi, ərazilər üzrə məktəbəhazırlıq təhsili təşkil ediləcək məktəblərin və müəllimlərin müəyyənləşdirilməsi üçün müvafiq tədbirlər görsünlər.

1.2. Məktəbəhazırlıq qruplarının müəllimlərinin, əsasən, diaqnostik qiymətləndirmədə yüksək nəticə göstərmiş və həmin dərs ilində IV siniflərlə işləyəcək ibtidai sinif müəllimləri arasından seçilməsini nəzarətdə saxlasınlar.

1.3. Məktəbəhazırlıq qruplarının müəyyən olunmuş qaydalar əsasında komplektləşdirilməsini təmin etsinlər.

1.4. Məktəbəhazırlıq qrupları yaradılacaq ümumtəhsil məktəblərində lazımi təlim şəraitinin təmin olunması istiqamətində tədbirlər həyata keçirsinlər.

1.5. 2017-ci il avqust ayının sonunadək əlavə olunan formalar üzrə məlumatları və görülmüş işlər barədə yazılı hesabatı Nazirliyə göndərsinlər.

**2.** Məcburi köçkün məktəblərində müvafiq imkan və şərait, kadr potensialı olmadığı, məcburi köçkün ailələrindən olan uşaqların mövcud sayı bu məktəblərdə məktəbəhazırlıq qruplarının təşkilinə əsas vermədiyi hallarda həmin uşaqlar məktəbəhazırlıq təhsilinə ərazi üzrə yerli məktəblərdə cəlb edilsinlər.

**3.** Müvafiq ərazi maliyyə hesablaşma mərkəzləri məktəbəhazırlıq qruplarının mövcud normativlər əsasında və müəyyən edilmiş say çərçivəsində təşkilini nəzarətdə saxlasınlar.

**4.** Təhsilin inkişafı proqramları şöbəsi (E.Əmrullayev), İnsan resursları şöbəsi (E.Bağırov), Təhsil İşçilərinin Peşəkar İnkişafı İnstitutu (V.Yaqublu) məktəbəhazırlıq təhsilini aparacaq müəllimlərin yerlərdən alınmış adlı siyahısı əsasında həmin müəllimlər üçün təsdiq olunmuş tədris planı və proqrama uyğun öyrədici təlimlərin iyun-sentyabr ayları ərzində təşkilini təmin etsinlər.

**5.** Ümumi və məktəbəqədər təhsil şöbəsi (A.Əhmədov), Təhsil İnstitutu (E.Əmrullayev), Tədris resursları şöbəsi (E.Rüstəmov) 2017-2018-ci dərs ilində məktəbəhazırlıq təhsilinin təşkili üçün tələb olunan tədris resurslarının, malların adı və miqdarı barədə məlumatı Maliyyə şöbəsinə təqdim etsinlər.

**6.** Maliyyə şöbəsi (R.Orucov) və Əsaslı Tikinti və Təchizat idarəsi (A.Axundov) ayrılmış büdcə vəsaiti çərçivəsində olmaqla əmrin 5-ci bəndinin icrası üzrə təqdim olunacaq məlumatlar əsasında məktəbəhazırlıq təhsilinin təşkili ilə bağlı tələb olunan tədris resurslarının və digər malların satınalınması və vaxtında ümumi təhsil müəssisələrinə çatdırılması ilə bağlı aidiyyəti tədbirlərin görülməsini təmin etsinlər.

**7.** İnformasiya şöbəsi (E.Əliyev) KİV-lərdə məktəbəhazırlığın təşkili ilə bağlı təbliğat və maarifləndirmə işlərinin həyata keçirilməsini, əmrin "Azərbaycan müəllimi" qəzetində dərc olunmasını və Nazirliyin internet saytında yerləşdirilməsini təmin etsin.

**8.** Əmrin icrasına nəzarət nazir müavini Ceyhun Bayramova həvalə olunsun.

**Mikayıl CABBAROV,**
**Azərbaycan Respublikasının təhsil naziri**

*4 aprel 2017-ci il*

# Təhsil nazirinin Yardımlı şəhərində vətəndaşların qəbulu vaxtı dəyişdirilib

Təhsil naziri Mikayıl Cabbarovun 10 aprel 2017-ci il tarixinə nəzərdə tutulmuş qəbulunun vaxtı dəyişdirilib.

Təhsil naziri 17 aprel 2017-ci il tarixində saat 09:00-da Yardımlı şəhərindəki Heydər Əliyev Mərkəzində öncə qəbula yazılmış Astara, Lənkəran, Lerik, Yardımlı, Masallı və Cəlilabad rayon sakinlərini qəbul edəcək.

# "Ən yaxşı təqdimat" müsabiqəsinin ölkə mərhələsi keçirilir

Ümummilli lider Heydər Əliyevin anadan olmasının 94-cü ildönümü münasibətilə keçirilən "Ən yaxşı təqdimat" müsabiqəsinin ölkə mərhələsinə başlanılıb.

Ümumi təhsil müəssisələrinin IX-XI sinif şagirdləri arasında keçirilən təqdimat müsabiqəsi Təhsil Nazirliyi, Heydər Əliyev Fondu, Yeni Azərbaycan Partiyası, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Respublika Komitəsi tərəfindən təşkil olunur.

Müsabiqənin ölkə mərhələsində respublikanın bütün bölgələrindən olan 103 nəfər şagird iştirak edir. Şagirdlər Təhsil Nazirliyində yaradılmış işçi qrupunun qarşısında 10 dəqiqəlik təqdimat edir, onların çıxışları əvvəlcədən müəyyən edilmiş meyarlar əsasında maksimum 10 balla qiymətləndirilir.

"Ən yaxşı təqdimat" müsabiqəsinin nəticələrinə əsasən, şagirdlər diplom, tərifnamə və qiymətli hədiyyələrlə təltif olunacaqlar.

# Direktor olmaq istəyənlər üçün 700-ə yaxın vakansiya

## Namizədlərdən ehtiyat kadr bazası da formalaşdırılacaq

Yusif ƏLİYEV

*Müəllifinin Napoleon olduğu söylənilən bir aforizmə görə, general olmağı arzulamayan əsgər yaxşı əsgər deyil. Əslində bütün fəaliyyət sahələrində çalışanlar üçün keçərli saymaq mümkün olan bu fikri təhsilə də şamil etsək, onda sıravi müəllimlərin direktor olmaq istəyini ancaq təqdir etmək olar. Təhsil Nazirliyinin son illər direktor vəzifəsinə qəbul üçün keçirdiyi müsabiqələrin statistikası isə belə müəllimlərin sayının ilbəil artdığını göstərir. Bu yaxınlarda nazirlik tərəfindən direktor olmaq istəyənlərin qarşısında "yaşıl işıq" yandıran daha bir addım atılıb: nazirin müvafiq əmri ilə ümumtəhsil müəssisələrinin direktoru vəzifəsinə qəbul üzrə yeni qaydalar təsdiq olunub. Yeni qaydalara əsasən bu vəzifəyə iddialı olanlar 3 mərhələli müsabiqədən keçməlidirlər. Bəs qaydalarda direktor vəzifəsinə qəbulla bağlı hansı yeniliklər nəzərdə tutulub? Müsabiqə prosesi necə təşkil ediləcək, hansı müddətdə icra olunacaq? Kimlər müsabiqəyə qatıla bilər?*

*Müsabiqənin təşkili və gedişi ilə bağlı hər kəsi maraqlandıran bu kimi suallara aydınlıq gətirmək üçün Təhsil Nazirliyinin İnsan resursları şöbəsinin müdir əvəzi, Müsabiqə Komissiyasının üzvü Eşqi Bağırova müraciət etdik.*

### Məqsəd direktor vəzifəsinə səriştəli, peşəkar adamları seçməkdir

- Məlum olduğu kimi, 2013-cü ildə ölkə başçısı tərəfindən "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası" təsdiq edilib. Strategiyada təhsilin inkişafı üçün 5 strateji istiqamət müəyyən olunmuşdur ki, onlardan da biri təhsil sahəsində nəticələrə görə cavabdeh, şəffaf və səmərəli tənzimlənmə mexanizmlərinə əsaslanan yeni idarəetmə sisteminin yaradılmasıdır.

Həmin strateji istiqamətin icrası yönündə artıq bir sıra addımlar atılmış, 2014 və 2015-ci illərdə Təhsil Nazirliyi tərəfindən müxtəlif müsabiqələr keçirilmiş, Bakı və Sumqayıt şəhərlərində yerləşən ümumtəhsil müəssisələrində direktor işləmək arzusunda olan müəllimlər üçün tam ödənişsiz təlimlər təşkil olunmuşdur. Həmin təlimləri uğurla başa vuran namizədlərin təyinatları olmuşdur.

Eyni zamanda həm 2014, həm də 2015-ci ildə regionlarda da direktorların işə qəbulu üzrə yeni qaydalar təsdiq edilmiş, daha da təkmilləşdirilmiş həmin qaydalara müvafiq olaraq müsabiqələr keçirilmiş, nəticədə yeni direktorlar təyin olunmuşdur. Sonuncu cari ilin mart ayında təsdiq olunmuş qaydalar isə direktor vəzifəsinə işə qəbul üzrə müsabiqənin əvvəlkilərdən daha təkmil və səmərəli keçirilməsi üçün şərait yaradır.

### 7 gündə 2 min nəfərdən çox iddiaçı ərizə verib

Müsabiqə 3 mərhələdən ibarətdir. İlkin mərhələ elektron ərizələrin qəbuludur. Aprelin 1-də bu mərhələyə artıq start verilib və indiyədək 2 min nəfərədək iddiaçı ərizəsini yerləşdirib. Ərizələrin qəbulu aprelin 15-də başa çatacaq. Lakin bu hələ müsabiqənin ilk mərhələsinin sonu deyil. Belə ki, elektron ərizələrin qəbulu başa çatdıqdan sonra onlarda olan məlumatlar Təhsil Nazirliyində yaradılmış işçi qrupu tərəfindən yoxlanılacaq, namizədlər haqqında yerli təhsili idarəetmə orqanlarının rəyləri öyrəniləcək. Təbii ki, bütün bunlar bir müddət vaxt aparacaq. Yalnız bunlardan sonra təsdiq edilmiş elektron ərizələri göndərən namizədlər müsabiqənin ikinci test imtahanı mərhələsinə dəvət olunacaqlar.

### Test imtahanı və esse

Test imtahanı mərhələsində namizədlərə 40 sual təqdim ediləcək. Test imtahanından dərhal sonra bu mərhələnin tərkib hissəsi kimi namizədlərə konkret bir mövzu üzrə 200-250 sözdən ibarət esse yazmaq təklif olunacaq. Onlar esseni bundan əvvəlki qaydalarda öz əksini tapdığı kimi kağız üzərində deyil, kompüter vasitəsi ilə yazacaqlar ki, bu da son qaydalarda nəzərdə tutulmuş daha bir yenilikdir. Bu, eyni zamanda namizədlərin İKT bacarıqlarını yoxlamağa da imkan verəcək. Nazirliyin müsabiqə komissiyası tərəfindən müəyyənləşdirilmiş esse mövzuları qabaqcadan elan olunacaq və onlar test imtahanı başa çatan kimi proqram təminatı tərəfindən seçilərək namizədə təqdim olunacaq.

### Esseyə qoyulan əsas tələblər

Eşqi Bağırovun sözlərinə görə, direktor olmaq istəyənlərin yazacaqları esselərə bir sıra tələblər verilir. Bunlara essenin verilən mövzuya uyğunluğu, ədəbi dilin orfoqrafik qaydalarına riayət olunması, yazının strukturu və onun təsviri, üslub və s. Esse bu meyarlar əsas götürülməklə Təhsil İnstitutunun mütəxəssisləri tərəfindən 20 ballıq şkala ilə qiymətləndiriləcək və onun nəticəsi müsabiqədə nəzərə alınacaq.

### Namizədlərin balları necə hesablanacaq

Həm test imtahanı, həm də ondan sonra yazılacaq esse üzrə ayrı-ayrılıqda qiymətləndirmə aparılacaq. Sonuncu müsahibə mərhələsi də qiymətləndirildikdən sonra bütün mərhələlər üzrə verilən qiymətlər toplanaraq ümumi bala uyğun namizədlərin seçdikləri vakant yerə yerləşdirilməsi aparılacaq. Təbii ki, bütün bunlar da proqram təminatı vasitəsilə baş tutacaq. Ümumiyyətlə, müsabiqənin mərhələlərinin hamısı tam elektronlaşdırılıb. Hətta əgər ötən il müsahibə mərhələsi kağız üzərində aparılırdısa, bu il o da tam elektron formatda həyata keçiriləcək. Yəni, komissiya üzvləri qiymətləri, əlavə qeydləri olacaqsa, onları proqram təminatına yerləşdirəcəklər.

### 700-ə yaxın vakant yer elan olunub

Eşqi Bağırovun dediklərindən məlum oldu ki, müsabiqəyə 700-ə yaxın vakant yer elan olunub ki, bu da ötən illərlə müqayisədə ən çoxdur. Müsahibimizin sözlərinə görə, yeni qaydalarda əsas yeniliklərdən biri də ehtiyat kadr bazasının formalaşdırılmasıdır. Bu o deməkdir ki, əgər ötən illərdə keçid balını toplayıb seçdikləri vakant yerə düşə bilmədikləri təqdirdə namizədlərin nəticəsi ləğv olunur və onlar növbəti dəfə müsabiqəyə cəlb olunurdularsa, yeni qaydalara görə belə olmayacaq. Belə ki, bu müsabiqədə keçid balını toplayıb rəqabət səbəbindən seçdikləri vakant yerlərə düşə bilməyən namizədlərdən ehtiyat kadr bazası yaradılacaq və onların nəticələri 2 il qüvvədə saxlanılacaq. Yəni, onların bu müddət ərzində yeni yaranan və yaxud mövcud vakant yerlərə təyinatı fərdi qaydada Təhsil Nazirliyi tərəfindən həyata keçiriləcək.

### Hər bir namizəd 4 vakant yer seçə bilər

Yeni qaydalara əsasən, hər bir namizədə hazırda işlədiyi müəssisənin yerləşdiyi şəhər və rayonda, yaxud faktiki yaşadığı rayon (şəhər) üzrə 4 vakant yer seçmək imkanı verilir. Bəs, əgər həmin şəxsin yaşadığı və ya işlədiyi yerdə heç bir vakant yer yoxdursa, onda necə? Onun başqa bir imkanı olacaqmı?

E.Bağırov bu məsələyə də aydınlıq gətirdi. Onun sözlərinə görə, hazırda elə bir rayon, şəhər yoxdur ki, orada direktor vəzifəsi vakant olmasın. Lakin onların sayı rayonlar, şəhərlər üzrə müxtəlifdir. Ən çox vakant yerlər Ağdam, Cəlilabad, Goranboy rayonlarındadır. Şəhərə yaxın yerlərdə və şəhər məktəblərində isə onların sayı nisbətən azdır. Bu barədə statistika yaxın günlərdə Təhsil Nazirliyi tərəfindən elan olunacaq.

### Müsabiqədə iştirak üçün yaş həddi 65-dir

Məktəb direktorluğuna namizədlər üçün bəlli bir yaş həddi də olmalıdır. Müsahibimizin sözlərinə görə, bu yaş həddi 65-dir və onun müəyyənləşdirilməsində əmək qanunvericiliyi əsas götürülüb. Qanunvericilikdə 65 yaş çalışmanın son yaş həddi olduğu üçün müsabiqə üçün də elə bu yaş həddi müəyyənləşdirilib.



Test suallarının məzmununa gəldikdə isə, onlar əsasən əmək və təhsil qanunvericiliyi, xüsusən də təhsil və əmək münasibətlərinin tənzimlənməsi üçün qəbul olunmuş normativ-hüquqi aktlar, onlardan irəli gələn məsələlər təşkil edir. Eyni zamanda müsahibə mərhələsində namizədlərin ümumi dünyagörüşü yoxlanılacaq. Nümunəvi test sualları və müsahibə materialları elektron ərizələrin qəbulu üçün yaradılan saytda yerləşdirilib və namizədlər həmin saytda onlarla tanış ola bilərlər.

Sonda onu da diqqətə çatdıraq ki, yeni qaydalara görə, müsabiqədə pedaqoji və ya idarəetmə sahəsi üzrə ali təhsilli və azı 5 il pedaqoji staja malik olan və hazırda ümumi təhsil müəssisələrində pedaqoji fəaliyyətlə məşğul olan şəxslər iştirak edə bilərlər.

Düzdür, hazırda dünyanın bir çox ölkələrində məktəb direktoru seçimlərində başqa ixtisas sahiblərinə, o cümlədən mühəndis, insan resursları üzrə mütəxəssislər və başqalarına da iştirak imkanı yaradılır. Bizdə isə pedaqoji staj əsas tələb kimi götürülür.

E.Bağırovun fikrincə, bu məsələlər, xüsusən pedaqoji staj, direktorun hansı ixtisasdan bu vəzifəyə gəlməsi gələcəkdə müzakirə oluna bilər. Onun sözlərinə görə, direktorluğa iddialı olan şəxs hüquqşünas da, mühəndis də, insan resursları üzrə mütəxəssis də ola bilər. Lakin onların pedaqogika üzrə bilikləri də olmalıdır. Xüsusən də istənilən halda idarəetmə sahəsi üzrə stajı hökmən olmalıdır.

# Birinci sinfə qəbulda mühüm yeniliklər



## Elektron qəbul şagird sıxlığı probleminin də operativ həllinə imkan verir

⇦ Əvvəli səh.1

### Yenilik: valideynlərə məktəbi və müəllimi seçmək hüququ verilib

Əvvəlki illərdən fərqli olaraq bu il I sinfə qəbulda mühüm bir yenilik də edilib: valideynlərə məktəbi, təlim dilini, müəllimi seçmək hüququ verilib. Qəbulun elektron sistemlə aparılması kimi bu yenilik də ictimaiyyət tərəfindən rəğbətlə qarşılanıb və təqdir olunub.

### 50 məktəbdə Alternativ Qeydiyyat Mərkəzi fəaliyyət göstərir

Prosesin normal getməsi və daşıdığı məqsədləri tam reallaşdırması üçün istər Təhsil Nazirliyi, istərsə də Bakı Şəhəri üzrə Təhsil İdarəsi tərəfindən bir sıra təşkilati addımlar atılıb, ictimaiyyət arasında zəruri maarifləndirmə işləri aparılıb. Təhsil Nazirliyinin bu barədəki əmrindən sonra Bakı Şəhəri üzrə Təhsil İdarəsi tərəfindən həmin əmrin icrasının təmin edilməsi, I sinfə şagird qəbulunun aparılması qaydalarının təsdiqi, prosedur qaydalarının müəyyənləşdirilməsi barədə əmrlər verilib, elektron qeydiyyat məsələsində vətəndaşlara kömək məqsədilə paytaxt üzrə 50 məktəbdə Alternativ Qeydiyyat Mərkəzi yaradılıb. Qeydiyyat və sənəd qəbulu prosesində yarana biləcək mübahisəli məsələlərin operativ həlli məqsədilə hərəsi iki rayonu əhatə edən 6 ümumtəhsil müəssisəsində Apelyasiya Komissiyası təşkil olunub. 15-17 mart 2017-ci il tarixlərində paytaxt məktəblərində I sinfə qəbulla bağlı vətəndaşları ən çox düşündürən məsələlərə aydınlıq gətirmək üçün idarənin "Facebook" səhifəsində və saytında müvafiq suallara cavab verilib, mətbuat konfransı, görüşlər keçirilib, elektron sənəd qəbulu aparılan *mektebeqebul.edu.az* saytının istifadəçiləri üçün videotəlimat hazırlanıb.

### Birinci sinfə qəbulu nəzərdə tutulan uşaqların 80 faizindən çoxu üçün artıq sorğu yerləşdirilib

Bakı Şəhəri üzrə Təhsil İdarəsindən verilən son məlumata görə, indiyədək (07.04.2017 saat 18:00) 36532 valideyn elektron sorğu yerləşdirib ki, bu da Bakı şəhəri üzrə dövlət ümumi təhsil müəssisələrinin I sinfə şagird qəbulu proqnozunun, təxminən, 80 faizindən çoxunu təşkil edir. Qəbulun 15 mart - 15 sentyabr 2017-ci il tarixlərini əhatə etdiyini və başlanmasından qısa müddət keçməsini nəzərə alsaq, bu, çox böyük rəqəmdir və prosesin uğurlu təşkilindən xəbər verir.

### Apelyasiya Komissiyalarına ən çox bölgələrdə qeydiyyatı olanlar müraciət edir

Bunu indiyədək apelyasiya komissiyalarına müraciət edənlərin sayının azlığı da sübut edir. Daxil olan müraciətlər isə ən çox başqa bölgələrdə qeydiyyatda olduğu halda lisey-məktəblərin mikroərazisində yaşayan uşaqların I sinfə müsabiqədən keçmək şərtiylə qəbul olunmaları ilə bağlı olub. Bundan başqa, bir çox məktəblərdə rus təlim dilində I sinfə vakant yerlərin olmaması ilə bağlı müraciət edənlər də çox olub. Ümumiyyətlə, müraciətlərin məzmunu ilə tanışlıq göstərir ki, onların çoxu məhz valideynlərin I sinfə şagird qəbulunun aparılması qaydaları ilə diqqətlə tanış olmalarının, burada irəli sürülən şərtləri nəzərə almamalarının nəticəsində yaranır.

Buna baxmayaraq müraciətlərə apelyasiya komissiyalarında diqqətlə və operativ baxılması, araşdırılması, onlarla bağlı təhsil haqqında normativ aktlara uyğun qərar qəbul olunması təmin edilir.

### I sinfə qəbul zamanı məktəb seçimində təhsil müəssisəsinin layihə tutumu nəzərə alınır

Qeyd edək ki, I sinfə qəbul zamanı məktəb seçimi, bir qayda olaraq, məktəblərin layihə tutumu nəzərə alınmaqla valideynlər tərəfindən həyata keçirilir. Lakin şagird axınının çox olduğu bəzi məktəblərdə şagird qəbulu, ilk növbədə, aşağıdakı prioritetlər nəzərə alınmaqla aparılır:

1) Məktəbin mikroərazisi;

2) Bacı və ya qardaşının həmin məktəbdə təhsil alması;

3) Valideynlərinin həmin məktəbdə işləməsi.

Müəllimlərin seçimi də valideynlər tərəfindən, müvafiq qaydalara uyğun olaraq aparılır.

I sinfə qəbulun elektron sistem vasitəsilə həyata keçirilməsi zamanı şagird sıxlığı ilə əlaqədar yaranmış problemlərin mikroəraziyə uyğun olaraq vakant şagird yerlərinin mövcud olduğu digər məktəblərə yönləndirilməsi yolu ilə reallaşdırılır.

### I sinfə kimlər qəbul olunur

Xatırladaq ki, ümumi təhsil məktəbinin I sinfinə 2017-ci il sentyabrın 15-nə kimi 6 yaşı tamam olan, fiziki və əqli cəhətdən normal inkişaf etmiş, eləcə də Təhsil Nazirliyi tərəfindən müəyyən edilmiş qaydada xüsusi istedadlı uşaqların vaxtından əvvəl I sinfə qəbulu üzrə müsabiqədən uğurla keçmiş 16.09.2011-ci il tarixindən 31.12.2011-ci il tarixinədək olan dövrdə anadan olan və dövlət ümumi təhsil müəssisələrində ödənişsiz məktəbəhazırlıq qrupunu bitirmiş uşaqlar qəbul edilir.

### Bu müəssisələrə qəbul müsabiqə yolu ilə aparılır

Təhsil Nazirliyinin birbaşa tabeliyindəki ümumi təhsil müəssisələrində və Bakı Şəhəri üzrə Təhsil İdarəsinin tabeliyində fəaliyyət göstərən 287 nömrəli "Zəkalar" liseyi, eləcə də 160 nömrəli Klassik Gimnaziyada 2017-2018-ci dərs ili üçün birinci sinfə, ilk növbədə həmin ümumi təhsil müəssisələrinin müəyyən edilmiş mikroərazisində yaşayan vətəndaşların ərizələrinin qeydiyyatı aparılır. Digər ərazilərdə yaşayan valideynlərin (qanuni nümayəndələrin) uşaqları qeyd olunan ümumi təhsil müəssisələrinə yalnız müsabiqə yolu ilə qəbul üçün qeydiyyatdan keçə bilərlər. Hər hansı səbəbdən özü elektron qeydiyyatdan keçə bilməyən şəxslər bu məqsədlə yaradılmış Alternativ Qeydiyyat Mərkəzlərinə müraciət edə bilərlər.

### Valideynlər neçə məktəb seçə bilərlər

Qaydalara görə, valideynə yalnız bir məktəbi seçib sorğu yerləşdirmək hüququ verilir. Qəbul müsabiqə əsasında aparılan müəssisələrin, lisey və gimnaziyaların isə ikisinə sorğu yerləşdirmək mümkündür. Müsabiqənin nəticələrinə görə lisey və gimnaziyalara qəbul edilməyən uşaqların valideynləri elektron sistemdə yenidən ümumtəhsil məktəbi seçə bilərlər. Valideyn məktəbi seçdikdən sonra fikrini dəyişə bilər. Bunun üçün o, sistemə əvvəl yerləşdirdiyi sorğunu ləğv etməli, sonra yeni məktəb seçməlidir. Bakı şəhəri üzrə I sinfə qəbul müsabiqə əsasında aparılan müəssisələrə, lisey və gimnaziyalara elektron qeydiyyat aprelin 5-də başa çatıb. Seçim üçün müsabiqələr isə aprelin 15-dən mayın 15-dək həyata keçiriləcək.

### Sənədlər təhsil müəssisələrindəki işçi qrupları tərəfindən qəbul ediləcək

6 yaşı sentyabrın 16-dan dekabrın 31-dək tamam olan xüsusi istedadı ilə fərqlənən uşaqların valideynlərinin elektron ərizələrinin qeydiyyatı qəbul müsabiqə əsasında keçirilən müəssisələrə martın 1-dən başlanıb və aprelin 5-də başa çatıb, ümumtəhsil məktəblərində isə iyulun 1-dən 31-dək aparılacaq.

Onu da diqqətə çatdıraq ki, valideynlər şagird qəbulu üzrə işçi qrupuna şəxsiyyəti təsdiq edən sənədin əsli və surətini, uşağın sağlamlığı haqqında 26U formalı arayışı, 3x4 sm. ölçüdə 2 fotoşəkli, əgər varsa məktəbəhazırlıq qrupunu bitirməsi haqqında arayışı, valideyn "Şəxsi kabinet"indən çap olunmuş ərizəni təqdim etməlidir. Şəxsiyyəti təsdiq edən sənədlərə uşağın doğum haqqında şəhadətnaməsi, Azərbaycan Respublikası ərazisində müvəqqəti və ya daimi yaşamaq üçün icazə vəsiqəsi, Birləşmiş Millətlər Təşkilatı Qaçqınların İşləri üzrə Ali Komissarlığının himayə sənədi daxildir. Qeydiyyat valideynlərin və ya digər qanuni nümayəndənin özü tərəfindən onlayn və ya istəyi əsasında hər bir məktəbdə yaradılacaq qeydiyyat komissiyasında, ya da Bakı şəhərinin hər inzibati rayonunda fəaliyyət göstərəcək alternativ komissiya tərəfindən aparılacaq.



# Müəllimlər elektron lövhələrdən necə istifadə edirlər?

## Paytaxt məktəblərində apardığımız müşahidələr fərqli mənzərələr üzə çıxardı

Niyazi RƏHİMOV

Son illər dövlətimizin təhsilə göstərdiyi xüsusi diqqət və qayğısı nəticəsində orta ümumtəhsil məktəblərinin maddi-texniki bazası gücləndirilmiş, tədrisin keyfiyyətinin artırılması məqsədilə təhsil ocaqları müasir avadanlıqlarla təchiz olunmuşdur. Belə avadanlıqlardan biri də interaktiv elektron lövhələrdir. Nəzərə çatdıraq ki, tədris prosesində elektron lövhənin tətbiqi müəllimlə şagird arasında informasiya mübadiləsinin səmərəliliyini artırır. Bundan başqa, elektron lövhə müəllimə bir çox vasitələrdən geniş istifadə imkanı yaradır ki, bu da şagirdlərin tədris materiallarını daha yaxşı mənimsəmələrinə kömək edir. Bu lövhələrlə keçirilən dərslərdə şagirdlər daha maraqla iştirak edir. Bəs, görəsən məktəblərimizdə vəziyyət necədir? Müəllimlər elektron lövhələrdən səmərəli istifadə edirlərmi? Suallarımıza cavab tapmaq məqsədilə paytaxtın bir sıra orta ümumitəhsil müəssisəsində olduq.

### İki sinifdə vəziyyət ürəkaçan deyildi

Öncə Bakının Xətai rayonunda yerləşən 245 nömrəli tam orta məktəbdə olduq. Nəzərə çatdıraq ki, adıçəkilən məktəb "Elektron məktəb" pilot layihəsinə qoşulub və burada kifayət qədər elektron lövhə mövcuddur. Məktəb direktorunun tədris işləri üzrə müavini Könül Ağaliyeva bizimlə söhbətində bildirdi ki, hazırda tədris ocağında 23 ədəd elektron lövhə var və həmin lövhələr işlək vəziyyətdə müəllimlərin ixtiyarındadır. Sonra sinif otaqlarında dərsləri müşahidə etdik. Biologiya müəllimi Dilşad Nağıyevanın sinifdə elektron lövhədən məharətlə istifadə etdiyinin şahidi olduq. Lakin digər iki sinifdə isə vəziyyət elə də ürəkaçan deyildi. Müşahidələrimizdən məlum oldu ki, həmin siniflərdə dərs deyən müəllimlər İKT ilə bağlı təlimlərdən keçməsinə baxmayaraq elektron lövhələrdən demək olar ki, istifadə edə bilmirlər. Direktor müavini özü də etiraf etdi ki, ibtidai siniflərdə bu lövhələrdən intensiv və səmərəli istifadə olunsa da, yuxarı siniflərdə dərs deyən müəllimlərin bir çoxu hələ də lövhələrdən yararlana bilmir.

### Müəllimlər elektron lövhələrdən peşəkarlıqla istifadə edirdilər

Sonra paytaxtın Suraxanı rayonunda yerləşən 87 nömrəli tam orta məktəbə getdik. Məktəbin direktoru Elmira Ələkbərova ilə birgə elektron lövhə olan siniflərdə olduq. Müəllimlərdən Samirə Əzimova, Aytən Qarayeva, İradə Mahmudova və Evelina Bukreyevanın dərslərini izlədik. Mərkəzdən kənarda olmasına baxmayaraq bu məktəbdə çalışan müəllimlər elektron lövhələrdən çox peşəkarlıqla istifadə edirlər. Siniflərdə xüsusi bir ab-hava mövcud idi. Bundan başqa, həmin siniflərdə müəllimlərlə yanaşı, şagirdlərin əksəriyyəti də elektron lövhələrdən istifadə edirdilər. Biologiya müəllimi Evelina Bukreyevanın elektron lövhə vasitəsilə apardığı təcrübə işi daha maraqlı və effektiv idi.

### Pedaqoji heyətin əksər hissəsi lövhələrdən yararlana bilmir

Təəssüflər olsun ki, Suraxanı rayonunda yerləşən 84 nömrəli məktəbdə vəziyyət fərqli idi. Bu məktəbdə çalışan cəmi iki müəllim- ibtidai sinif müəllimləri Əsiyə Qafarova və Şəfəq İbişova elektron lövhələrdən səmərəli istifadə edə bilirdilər. Hətta həmin müəllimlər "EDU Media" tərəfindən keçirilən kurslarda fəal iştirak etdiklərinə görə məktəbə prometan lövhə, proyektor və noutbuk da qazandırıblar. Lakin buna baxmayaraq pedaqoji heyətin əksər hissəsi lövhələrdən yararlana bilmir. Bu faktı məktəbin direktoru Nəsimi Quliyev də təsdiqlədi. Direktor bizimlə söhbətində vurğuladı ki, müəllimlər hələ də tam olaraq İKT biliklərinə yiyələnməyiblər.

### Lövhələrlə bağlı müəllimlər az məlumatlı idilər

Sonda üzümüzü paytaxtın Yasamal rayonunda yerləşən 158 nömrəli tam orta məktəbinə tutduq. İkinci növbə olduğu üçün yalnız ibtidai siniflərdə müşahidələr apara bildik. Elektron lövhələr olan iki sinifdə olduq. Müşahidələrimizdən məlum oldu ki, hər iki müəllimin bu lövhələrlə bağlı məlumatı zəifdir. Həmin siniflərdə olarkən uşaqlarla söhbətimizdən də bu nəticəyə gəldik ki, lövhələrdən yalnız informatika dərslərində istifadə olunur. Direktor Mehriban Ələkbərova bizimlə söhbətində də bildirdi ki, məktəbin bütün müəllimləri olmasa da, pedaqoji işçilərdən prometan lövhədən məharətlə istifadə edənlər az deyil.

*Paytaxt məktəblərindən bir neçəsində apardığımız araşdırmalardan məlum oldu ki, elektron lövhələrdən bir çox müəllim hələ də tam istifadə edə bilmir. Müəllimlərimizin əksəriyyəti İKT ilə bağlı təlimlərdən keçməsinə baxmayaraq bu kimi məsələlərdə aktiv deyillər. Lakin müasir təlim avadanlıqlarından məharətlə istifadə edən, yüksəkixtisaslı, səriştəli, öz üzərində daim çalışan müəllimlərimiz də az deyil.*

# Danışıq Klubları çərçivəsində görüş

"Ümumi təhsil məktəblərində İngilis dilində Danışıq Klublarının yaradılması" layihəsi çərçivəsində keçirilən təlimlər ilə bağlı görüş keçirilib. Görüşdə layihənin koordinatorları və layihəyə cəlb olunan ümumi təhsil məktəblərinin ingilis dili müəllimləri iştirak ediblər.

Görüşdə 9 sessiyanı əhatə edən təlimlərin keyfiyyət göstəriciləri müzakirə edilib, klubların yaradılması istiqamətində həyata keçiriləcək növbəti mərhələlər haqqında məlumat verilib.

Görüş zamanı klubların dərs müşahidələrinin cədvəlləri, metodiki proqramın hazırlanması, şagirdlərin klublara cəlb olunma metodları, klub fəaliyyətlərinin təşkili ətrafında səmərəli fikir mübadiləsi aparılıb. Bundan başqa, layihə barədə ingilis dili müəllimlərinin təəssürat, rəy və təklifləri dəyərləndirilib, onların müvafiq tələblərə uyğunluğu müzakirə edilib.

İclasda bildirilib ki, layihənin əsas məqsədi müxtəlif yaş qruplarından olan şagirdlərin məktəbdə əldə etdikləri xarici dil biliklərini praktiki danışıq məşğələləri vasitəsilə daha da möhkəmləndirmək, məktəblilərin ingilis dilində fikirlərini düzgün və səlis ifadə etməsinə dəstək vermək, ünsiyyət vərdişlərini təkmilləşdirmək və xarici dildə ünsiyyət komplekslərini aradan qaldırmaqdan ibarətdir.

Layihənin koordinatoru aprelin 10-dan start götürəcək layihənin növbəti mərhələsi olan danışıq klublarının müşahidələri haqqında ətraflı məlumat verib. Bildirilib ki, dərs müşahidələrinin sonunda müəllimlərə dəstəkləyici rəy veriləcək, onlara müvafiq dəstək göstəriləcək.

Qeyd edək ki, "Ümumi təhsil məktəblərində İngilis dilində Danışıq Klublarının yaradılması" layihəsi Bakı Şəhəri üzrə Təhsil İdarəsi və Amerikanın Azərbaycandakı səfirliyinin birgə əməkdaşlığı çərçivəsində həyata keçirilir.

# "İslam Həmrəyliyi İli"nə həsr olunmuş səyyar mühazirələr davam edir

Bakı Şəhəri üzrə Təhsil İdarəsinin tabeliyində olan ümumi təhsil məktəblərində "İslam Həmrəyliyi İli"nə həsr olunmuş səyyar mühazirələr davam edir.

Səyyar mühazirələr Təhsil Nazirliyi və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi tərəfindən imzalanmış "Təhsil müəssisələrində uşaq və gənclərin mənəvi inkişafı, milli-mənəvi və ümumbəşəri dəyərlər ruhunda tərbiyə olunması tədbirlərinin gücləndirilməsi haqqında" Fəaliyyət Planına uyğun olaraq təşkil edilir.



"İslam Həmrəyliyi İli" çərçivəsində fevral-mart aylarında paytaxtın ümumi təhsil müəssisələrində "Dünyəvi dövlətdə İslam və milli-mənəvi dəyərlər", "Dini mədəniyyət abidələrimiz və erməni vandalizmi", "Azərbaycan cəmiyyətində İslam həmrəyliyi", "Dünyəvi dövlətdə din və birlik", "İslam həmrəyliyi dini radikalizmə qarşı mübarizə metodu kimi", "Milli-mənəvi dəyərlər və gənclik", "İslam həmrəyliyinin Azərbaycan modeli", "Dünyəvi dövlətdə multikultural və tolerant dəyərlərin vəhdəti", "Milli-mənəvi dəyərlərimiz və İslam" və digər bu kimi mövzularda mühazirələr keçirilib.

Mühazirələrdə Bakı Şəhəri üzrə Təhsil İdarəsinin, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Bakı şəhəri üzrə şöbəsinin nümayəndələri, rayon icra hakimiyyətləri və rayon polis idarələrinin əməkdaşları, tərbiyə işləri üzrə direktor müavinləri (təşkilatçılar), uşaq birliyi rəhbərləri, psixoloqlar, valideyn icmasının nümayəndələri və IX-XI sinif şagirdləri iştirak ediblər.

Mühazirələrdə hər bir gəncin vətənpərvərlik ruhunda böyüməsinin vacibliyi vurğulanıb, gənclər arasında milli-mənəvi və ümumbəşəri dəyərlərin təbliğinin əhəmiyyətinə toxunulub, dini radikalizmin zərərli təsirləri, gənclərin onların fəsadlarından qorunmaları üçün maarifləndirmə işlərinin aparılmasının vacibliyi qeyd olunub.

Mühazirələrin sonunda şagirdləri maraqlandıran suallar cavablandırılıb, "Fitnə" sənədli filmi nümayiş olunub.

Qeyd edək ki, aprel ayında "İslam Həmrəyliyi İli" ilə əlaqədar səyyar mühazirələrin paytaxtın 14 ümumi təhsil məktəbində keçirilməsi nəzərdə tutulub.

# V-VI sinif şagirdləri məntiq olimpiadasının ilk turunda yarışdılar

Aprelin 1-də Lütfi Zadə adına Məktəblilərarası II Məntiq Olimpiadasının ilk turu-məktəbdaxili mərhələsi keçirilib. Olimpiadada ümumi təhsil məktəblərinin hər iki (Azərbaycan və rus) bölməsinin V-VI sinif şagirdləri iştirak ediblər. Bütövlükdə yarışlara Bakı şəhəri üzrə 315 məktəbdən 19958 şagird qatılıb. Bilik yarışı bütün məktəblərdə saat 10:00-da başlayıb və 11:30-da bitib. Bu mərhələdə şagirdlərə 30 test sualı təqdim olunub. İlk turun nəticələrinə əsasən 2026 şagird uğur qazanaraq olimpiadanın final mərhələsinə vəsiqə əldə edib.



Mayın 6-da təşkil olunacaq final mərhələsində də şagirdlər saat yarım ərzində 30 test sualını cavablandırmalı olacaqlar.

Final mərhələsinin nəticələrinə əsasən, Bakı şəhəri üzrə ən yüksək məntiqi təfəkkür nümayiş etdirən məktəblilər mükafatlandırılacaq.

Qeyd edək ki, Bakı Şəhəri üzrə Təhsil İdarəsi və "İstək" liseyinin birgə təşkilatçılığı ilə keçirilən olimpiadada şagirdlərin bədii, mücərrəd və verbal məntiqi təfəkkürü qiymətləndirilir. Olimpiadanın əsas məqsədi şagirdlərin məntiqi biliklərinin artmasına təkan vermək, onlara beynəlxalq, yerli olimpiadalar və bu kimi digər bilik yarışlarında iştirak təcrübəsi qazandırmaq, istedadlı, xüsusilə məntiqi təfəkkürü daha yaxşı inkişaf etmiş şagirdləri aşkara çıxarmaq, onların həvəsləndirilməsi və elmə olan marağının artırılmasından ibarətdir.

# Metodologiya təlimlərinə start verilib

"Uğur üçün Tədris" (SPEX) layihəsi çərçivəsində metodologiya təlimlərinə start verilib. Metodologiya təlimlərinin həyata keçirilməsində əsas məqsəd müəllimlərin əldə etdikləri nəzəri biliklərin dərslərdə tətbiqinin təkmilləşdirilməsindən və müəllimlərin ingilis dilində danışıq səriştəsinin artırılmasından ibarət olub.

"British Council" təşkilatının peşəkar təlimçiləri tərəfindən aparılan 40 saatlıq təlimlər Beynəlxalq Aptis İmtahanının nəticələrinə əsasən, 12 inzibati rayon üzrə müəyyən edilmiş təlim mərkəzlərində həftədə 1 dəfə olmaqla intensiv şəkildə həyata keçirilir.

Metodologiya təlimləri boyunca müəllimlər 40 saatı əhatə edən peşəkar görüşlərə cəlb olunurlar. Görüşlər zamanı müəllimlərin dərsləri müşahidə olunur və təlimçi-fasilitatorlar tərəfindən müəllimlərə tədris prosesinin təşkili istiqamətində inkişafetdirici rəylər verilir.

Metodologiya təlimlərindən sonra müəllimlər layihənin növbəti mərhələsi olan Məktəb əsaslı peşəkar təlimlərə cəlb olunacaqlar.

Qeyd edək ki, "Uğur üçün tədris" (SPEX) layihəsi Bakı Şəhəri üzrə Təhsil İdarəsi, "British Council" təşkilatı və Təhsil İşçilərinin Peşəkar İnkişafı İnstitutunun birgə əməkdaşlığı çərçivəsində həyata keçirilir.

# Uşaqları ürəkdən sevmək lazımdır...

## Müəllim peşəsində ən qorxunc hal uşaqlara laqeydlikdir



**Şalva AMONAŞVİLİ,**
*Rusiya Təhsil Akademiyasının akademiki, Beynəlxalq Humanist Pedaqogika Assosiasiyasının prezidenti, yazıçı*

Müəllim peşəsi müasir dünyada ən mühüm peşələrdən biridir. Müasir müəllim təkcə uşaqları öyrətmir, özü də şagirdlərindən öyrənmək iqtidarındadır. Axı müəllim elm və kiçik şəxsiyyət arasında olan bir insandır. O, erudisiyalı və təhsilli, öz fənnini biləndir: Yalnız böyük bilik ehtiyatı insana başqalarını öyrətmək hüququ verir. Müəllim uşağa hörmətlə yanaşmalıdır. Bu gün uşaq müəllimləri təkcə şagird kimi maraqlandıra bilməz. Onların hər birinin öz keyfiyyətləri, tələbatları, istək və hədəfləri var, buna görə də müəllim şagirdə bir insanın insana olan münasibəti kimi yanaşmalıdır.

Müəllim uşağa onun yalnız gələcəkdə necə görmək istədiyi kimi baxmamalıdır, onu bu günün uşağı kimi anlamalıdır – o, bu gün necədir, dərsdə hansı çətinliklər yaşayır, hansı qayğıları var? Müəllim müasir, ziyalı bir insan olmalıdır. Uşaqları elə maraqlandırmağı bacarmalıdır ki, onlar dərsə həvəslə gəlsinlər, məşğələlər bir göz qırpımında keçsin və dərsdən sonra şagirdlər növbəti görüşləri gözləsinlər. Xoşbəxt müəllimin şagirdləri məktəbdə xoşbəxtlik yaşayır: onlar fəaliyyət göstərir, yaradırlar, hiss edirlər ki, onları sevirlər və onlara xeyirxahlıq arzulayırlar. Hələ Sokrat iki min il bundan əvvəl demişdir: Hər bir insanda günəş var, ona yalnız işıqlanmağa imkan verin. Bizlərdən hər birimiz özümüzün sevgi və isti payını başqalarına hədiyyə edə bilərik.

Müasir müəllim gülümsəməyi bacaran və bütün ətrafındakıları maraqlandıra bilmək bacarığı olan insandır, axı məktəb o vaxt yaşayır ki, orada müəllim uşaq üçün maraqlıdır. Niyə mən müəlliməm? Mən sadəcə öz işimi sevirəm. Öz işimdə mən həmişə bu prinsipə əməl edirəm: Şagirdə zərər vermə, ona bilik vermək üçün səndən asılı olan bütün hər şeyi et ki, o, uşaqlıqdan özünü şəxsiyyət kimi hiss etsin, onun ləyaqətini sındırma. Uşaqlarda pedaqoqa qarşı xüsusi duyğu var və onlar yalnız o müəllimin dərslərində həvəslə oxuyurlar ki, o özü də həvəslidir, öz peşəsini sevir, onları başa düşür, hansı yaşda olmasından asılı olmayaraq bütün varlığı ilə gəncdir. Müəllimin peşəsi tamamilə adi deyil. Müəllimlik – bu, sadəcə peşə deyil. Bu ruhun vəziyyətidir. Bu, həyat tərzidir.

Müəllim özüylə onu əhatə edən dünya arasında harmoniyada olan şəxsiyyətdir. Bu ünsiyyət istedadıyla əlaqəli olan yüksək peşəkarlıqdır. Müəllim peşəsi hərtərəfli bilik, sonsuz mənəvi xeyirxahlıq, uşaqlara müdrik sevgi tələb edir.

Bizim işimizin sirlərini dərk etməyənlərə o, adi görünür: dəftərlər, jurnallar, dərslər. Amma müəllim peşəsi öz mahiyyətinə görə sevinc bəxş edir, çünki ən təmiz, səmimi və ədəbli insanlar – bizim uşaqlar ətrafımızdadır. Və çox məsuliyyətlidir, çünki bizə həyatda ən dəyərli insanları – uşaqları etibar ediblər. Mən uşaqları sadəcə ona görə sevirəm ki, onlar uşaqlardır. Yalnız bazar ertəsi – cümə günləri və yalnız məktəbdə dərs səviyyəsində pedaqoq olmaq olmaz. Öz şagirdlərini sevmək, hər bir uşağa qarşı diqqətli olmaq, onu çətin dəqiqələrdə dəstəkləmək bacarığı – bütün bunlar yalnız ürəyin çağırışı ilə, ürəyin tələbi ilə mümkündür. Onu sevin ki, tədris edirsiniz və onları sevin ki, dərs deyirsiniz (V.O.Klyüçevski).

Uşaqları sevmək... Bu, mənim pedaqoji kredomdur. Sevmək – deməli, anlamaq ki, onlar proqramlaşdırılmış varlıqlar deyillər, öz xarakterləri, temperamentləri, vərdişləri ilə şəxsiyyətdirlər. Anlamaq ki, dünyada qabiliyyətsiz uşaqlar yoxdur. Anlamaq lazımdır ki, təkcə mən, pedaqoq uşağı öyrətmirəm, həm də o, mənim şagirdim, öz kiçik həyat təcrübəsinə baxmayaraq, mənə həyatı dərk etməyə kömək edir. Belə çıxır ki, biz eyni vaxtda öyrənirik. Müəllim olmaq öz şagirdlərinin dayağı olmaq deməkdir. İstənilən vəziyyətdə pozitivi tapmaq, bu nikbin yükü öz şagirdlərinə ötürməkdir. Onları biliklərə maraqlandırmaq, ruhlandırmaq, qanadlandırmaq, onlara ilham vermək, çətinliklərə qarşı durmağı və qalib gəlməyi öyrətməkdir. Lakin hələ bu kifayət etmir. Öz pedaqoji səylərinin nəticələrini gözlərkən səbir nümayiş etdirmək, ən mürəkkəb situasiyalarda belə nikbin qalmaq və müəllimlik yolunda insani keyfiyyətləri itirməmək lazımdır. Müasir uşaq çağdaş informasiya dünyasında yaşayır, buna görə də müəllim üçün bu gün öz fənnini və tədrisin metodikasını bilmək kifayət deyildir.

İnnovasiya texnologiyalarına malik olmaq, təhsil prosesində rəqəmsal və elektron resurslardan effektiv istifadə etmək lazımdır. Şagirdlərimizin informasiya resursları dünyasına özünəməxsus bələdçi olmaq mənim üçün çox əhəmiyyətlidir. Elə bir dünyaya ki, orada tədqiqatçı, menecer, reklam agenti olmaq mümkündür. Bu gün böyük rus yazıçısı və humanist Lev Nikolayeviç Tolstoyun aşağıdakı sözləri necə də müasir səslənir: Müəllim heç də o insan deyil ki, pedaqoji təhsil alır, məhz o insandır ki, onda yalnız müəllim olmalıdır və başqa birisi ola bilməmək kimi daxili əminlik var.

Müəllimin istedadı başqasına bilik vermək və çətin məsələləri yüngül etmək bacarığından ibarətdir. Müəllim kimi doğulmaq lazımdır. Başqalarını tərbiyə etmək üçün o, özü tərbiyə edilmiş olmalıdır. Müəllim yalnız o halda yaxşıdır ki, onun sözləri işlərindən ayrılmır. Müəllim olmaq ən sadə iş deyil. Müxtəlif düşüncəli uşaqlardan vahid və möhkəm kollektiv yaratmaq bacarığına malik olmaq, bu, bir məharətdir. Hər bir şagirddə şəxsiyyəti görmək, bu, peşəkarlıqdır. Onlarla xeyirxah və yaddaqalan məktəb həyatı yaşaya bilmək isə istedaddır. Əsl müəllimlər bu keyfiyyətlərə malik olmalıdır.

Mən istəyirəm ki, bizim indiki həyat şəraitimizdə müəllim öz xüsusi qiymətini və həvəsini itirməsin. Hər kəs dahi rəssam, böyük musiqiçi və ya aktyor ola bilmir. Əsl müəllim də hər kəs ola bilmir. Bütün dövrlərdə müəllimlik ən lazımlı və ən mürəkkəb peşələrdən biri olub. Bu peşəni seçən insan özünün bütün həyatını uşaqlara bağlayır. O yalnız oxumağı öyrətmir, yalnız öz biliklərini vermir, həm də uşağa bu mürəkkəb dünyada öz yerini tapmaqda kömək edir, onun baxışlarına təsir edir, xarakterini və şəxsiyyətini formalaşdırır. Əlbəttə ki, peşəyə həvəs olmadan effektiv pedaqoji fəaliyyət qeyri-mümkündür. Müəllimlik – ürəyin peşəsidir. O, insana uşaqlığın və uşağın dünyasında olmağa, onlarla eyni dildə danışmağa, onları anlamağa imkan verir. Mənim fikrimcə, müəllim peşəsində ən qorxunc hal uşaqlara laqeydlikdir.



Uşaqlar hər bir uydurmanı müəyyən edə bilir, diqqətsizliyə kəskin reaksiya verirlər, buna görə də müəllim istənilən situasiyada öz şagirdləri ilə münasibətdə dürüst olmalıdır. Pedaqoq öz fənnini mükəmməl bilməlidir, hər dərsini maraqlı, səmərəli, ən əsası isə şagirdlər üçün yaddaqalan edə bilməlidir. Müəllim hər bir şagirdi eyni cür sevməlidir. Sadə bir səbəbə görə ki, onlar, şagirdlər – uşaqlardır. Əgər müəllim uşağın iç dünyasına, onun həyəcanlarına laqeyddirsə, onun yeri, hətta öz fənnini gözəl bilsə belə, məktəb deyil.

Beləliklə, əsl müəllim olmaq nə deməkdir? Gündəlik hər bir əməkdə sevinc və məmnunluq tapmaqdır. Uşağın müvəffəqiyyətlərinə və uğursuzluqlarına dərindən şərik olmaqdır. Müəllim uşaqları sevməli və onlarla ünsiyyətdən zövq almalıdır. Problemlərin həlli, hədəflərə nail olmaq yollarının axtarışında mütəxəssis olmalıdır. Hər bir uşağa oxumaqda və inkişaf etməkdə kömək etməlidir. Yeni iş metod və formaları axtarmalı və tapmalıdır. Mən öz işimdə bu prinsipləri rəhbər tuturam. Onların arasında əsas və ya ikinci dərəcəli, çox və ya az əhəmiyyətlisi yoxdur. Bəlkə, onlar çox sadədir? İşlədiyim illər ərzində mən bir şeyi tam mənimsəmişəm ki, müəllimin bacarığı xoşbəxt tapıntı, təsadüfi uğur deyil, məhz sistemli, ağır zəhmətdir, həyəcanlı fikirlər, uğursuzluqlar və kəşflərlə zəngin axtarışlardır.

- Müəllim uşağa hörmətlə yanaşmalıdır.
- Uşaqlarda pedaqoqa qarşı xüsusi duyğu var.
- Müəllimlik – bu, sadəcə peşə deyil. Bu, ruhun vəziyyətidir.
- Mən uşaqları sadəcə ona görə sevirəm ki, onlar uşaqlardır.
- Öz şagirdlərini sevmək ürəyin tələbi ilə mümkündür.
- Uşaqları sevmək... Bu, mənim pedaqoji kredomdur.
- Dünyada qabiliyyətsiz uşaqlar yoxdur.
- Hər bir şagirddə şəxsiyyəti görmək, bu, peşəkarlıqdır.
- Müəllimlik – ürəyin peşəsidir.
- Müəllim kimi doğulmaq lazımdır. Başqalarını tərbiyə etmək üçün o, özü tərbiyə edilmiş olmalıdır.

# İnklüziv təhsil

## Bu, müasir cəmiyyətin təhsil sistemindən gözləntisidir



**Anar XƏLƏFOV,**
*Azərbaycan Respublikası Təhsil Nazirliyi nəzdində De-İnstitutlaşma və Uşaqların Müdafiəsi İdarəsinin Xüsusi təhsil şöbəsinin müdiri*

Tarixin müxtəlif dövrlərində dövlətlərin qüdrətini nümayiş etdirən özünəməxsus göstəricilər mövcud olmuşdur. Əgər orta əsrlərdə bu, dövlətin hərbi gücü sayılırdısa, XIX-XX əsrlərdə iqtisadi inkişaf səviyyəsi mühüm olan göstərici kimi çıxış edirdi. Hazırda müasir cəmiyyətdə hansı göstəricilər dövlətin qüdrətini əks etdirir? Əgər biz Birləşmiş Millətlər Təşkilatının və Avropa Birliyinə üzv dövlətlərin öhdəliklərinə nəzər yetirsək, tam əminliklə deyə bilərik ki, müasir cəmiyyətin inkişaf səviyyəsinin göstəricisi zəif və həssas sosial təbəqənin rifahının yüksəldilməsi üçün onların daha çox xidmətlərlə əhatə olunması ilə ölçülür.

### Əlilliyi olan şəxslərə dövlətin xüsusi qayğısı

Bu gün Azərbaycan Respublikası dünyəvi bir dövlət kimi Avropa Birliyinə üzv olmaq istəyindədir. Bunun üçün Azərbaycan dövləti təkcə iqtisadi inkişafa yox, bütövlükdə cəmiyyətin və onun zəif təbəqəsinin rifahının yüksəldilməsi istiqamətində də ciddi tədbirlər həyata keçirir. Bu məqsədlə də Azərbaycan Respublikası BMT-nin Uşaq hüquqları və Əlilliyi olan şəxslərin hüquqları haqqında konvensiyalara qoşulmuşdur. Həmçinin Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən irəli gələn öhdəliklərin həyata keçirilməsinə yönəlmiş normativ-hüquqi aktların icrasına dair Dövlət proqramları və inkişaf strategiyaları hazırlanır və yerinə yetirilir.

### Sosiallaşmanı təmin edən təhsil

Müasir cəmiyyətdə əlilliyi olan şəxslər fiziki, yaxud psixi məhdudiyyətləri səbəbindən cəmiyyətin zəif təbəqəsi sayılır. Beynəlxalq ictimaiyyət əlilliyi olan şəxslərin (uşaqların) cəmiyyətin fəal üzvü olması üçün onların hamı ilə birgə təhsil almasının vacibliyini vurğulayır. Məhdudiyyətlərindən asılı olmayaraq bir çox əlilliyi olan şəxslər cəmiyyət həyatına uyğunlaşmaqla, digərləri ilə qarşılıqlı münasibət qurmaqla inkişaf edə, öz imkanlarını, qabiliyyətlərini üzə çıxara bilərlər. Lakin cəmiyyətdən təcrid olunmuş şəraitdə təhsil alan şəxslər, akademik biliklərə yiyələnsə belə, cəmiyyətin fəal üzvü olmasında uğursuzluğa düçar olma ehtimalı böyükdür. Çünki cəmiyyətdən təcrid olunduğu təqdirdə onun sosial bilik və bacarıqları formalaşmır. Sosial kompetensiya spontan olaraq başqaları ilə ünsiyyətdə formalaşır. Sosial kompetensiyası zəif olan insan cəmiyyət içində yaşamaqda çətinlik çəkir, bu da onda ikincili pozuntulara, ünsiyyətdən və münasibətlərdən yayınmaya gətirib çıxarır. Beləliklə, cəmiyyətə töhfə verəcək insan əvəzinə bir çox halda antisosial davranış nümayiş etdirən və cəmiyyətə iqtisadi, sosial baxımdan başqalarından asılı olan üzv formalaşır.

### Hamı ilə birgə, lakin fərdiləşdirilmiş təhsil

Əlilliyi olan şəxslərin ümumtəhsil müəssisələrinə cəlb olunması, onların cəmiyyətə inteqrasiyasında mühüm rol oynadığı artıq beynəlxalq aləmdə qəbul olmuş bir həqiqətdir. İnklüziv təhsil vasitəsi ilə əlilliyi olan şəxs və onun xüsusi təhsil ehtiyaclarının qarşılanmasına yönəlmiş xüsusi pedaqogika, yardımçı texnologiya, didaktik materiallar, xüsusi müyəssər mühit ümumtəhsil müəssisəsinə keçirilir. İnklüziv təhsil hamı ilə birgə təhsil almaqdır, lakin bu, ümumtəhsil proqramına qoşulmaq demək deyil. İnklüziv təhsil vasitəsi ilə hər bir şəxsin öyrənmə imkanları nəzərə alınır və təhsil həmin şəxsin təhsil ehtiyaclarının qarşılanması üçün fərdiləşdirilir.

### İlk təşəbbüslər

2004-cü ildən başlayaraq Azərbaycanda inklüziv təhsilin tətbiqi ilə bağlı bir sıra təşəbbüslər olmuşdur. Xüsusi qayğıya ehtiyacı olan (sağlamlıq imkanları məhdud) uşaqların təhsilinin təşkili ilə əlaqədar İnkişaf Proqramı (2005-2009-cu illər) çərçivəsində inklüziv təhsilin həyata keçirilməsi üçün UNESCO-nun maliyyə dəstəyi ilə 2005-ci ildən 3 pilot layihənin icrasına başlanılmışdır. Layihələrin icrası olaraq 15 ümumtəhsil məktəb, 13 məktəbəqədər təhsil müəssisəsindən 268 nəfər əlilliyi olan uşaq inklüziv təhsilə cəlb olunmuşdur.

2015-ci ildə Azərbaycan Respublikası Təhsil Nazirliyi ilə UNİCEF-in birgə əməkdaşlığı çərçivəsində inklüziv təhsil ilə bağlı görülmüş işlər və bu sahədə beynəlxalq təcrübə təhlil edildi. Nəticə etibarı ilə əlilliyi olan şəxslərin təhsilinin təşkili yeni mərhələyə keçdi. Bu mərhələdə xüsusi təhsil sahəsində köklü islahatların aparılması, əlilliyi olan uşaqların təhsilə cəlb olunma qaydalarının yenilənməsi, onların ümumtəhsil məktəblərində inklüziv təhsilə cəlb edilməsi və inklüziv təhsil sahəsində yeni yanaşmaların tətbiqi nəzərdə tutulmuşdur.

### İbtidai təhsil səviyyəsində inklüziv təhsil modeli

Əlilliyi olan uşaqların ümumtəhsil məktəblərində təhsilə cəlb olunması məqsədilə Azərbaycanda ibtidai təhsil səviyyəsində inklüziv təhsil modelinin hazırlanması işlərinə başlanıldı. İbtidai təhsil səviyyəsində inklüziv təhsil modelinin hazırlanması üçün fəaliyyət planı və yol xəritəsi hazırlandı.

Bakı şəhəri üzrə 2015-2016-cı tədris ilində iki eksperimental məktəb (220 və 138 nömrəli), 2016-2017-ci tədris ilindən isə iki məktəb (252 və 202 nömrəli) seçildi.

### Bu modellə işləyənlər üçün təlim kursları

İlk seçilmiş iki məktəbin ibtidai sinif üzrə müəllimlərinə və rəhbər işçilərinə 2015-ci ilin avqust və sentyabr aylarında Almaniyanın Oldenburq Universitetinin professor heyəti tərəfindən iki həftəlik təlim keçirilmişdir. Onlar bir həftə Almaniyada təcrübə səfərində olmuşlar. 2016-cı ildən pilot məktəblərin pedaqoji heyətinin xüsusi təhsil sahəsində bilik və bacarıqlarının artırılması Azərbaycan Respublikası Təhsil Nazirliyinin mütəxəssisləri tərəfindən davam etdirilmişdir.

Əlilliyi olan uşaqların fərdi təhsil planlarının hazırlanması üçün beynəlxalq səviyyədə tətbiq olunan yeni qiymətləndirmə alətləri (metodikaları) alındı və tətbiqinə başlanıldı.

Pilot seçilmiş müəssisələrdə loqopedik xidmət yaradıldı. Bununla yanaşı, məktəblərin infrastrukturunda müvafiq dəyişikliklərin edilməsi ilə bağlı təmir işləri aparıldı.

### Xüsusi təhsil üzrə müəllim kadrlarının hazırlığı

Məsələyə kompleks (sistemli) yanaşma məqsədilə xüsusi təhsil üzrə müəllim hazırlığının təkmilləşdirilməsi ilə bağlı islahatlara başlanılıb. Azərbaycan Dövlət Pedaqoji Universitetində korreksiyaedici təlim üzrə yeni kafedra yaradılıb. Xüsusi təhsil üzrə müəllim hazırlığı sahəsində aparılan islahatlar çərçivəsində kurikulumların yenilənməsi, yeni sillabusların hazırlanması, xüsusi təhsil üzrə ədəbiyyatın tərcümə edilib, elektron formada müəllimlərin və tələbələrin istifadəsinə verilməsi nəzərdə tutulub.

### İnklüziv təhsilin inkişafı üzrə Dövlət Proqramı

Əlilliyi olan uşaqların təhsilə cəlb olunması üçün inklüziv təhsil proqramının qəbul edilməsi "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası, "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası" və Tədbirlər Planında da öz əksini tapmışdır.

Bu məqsədlə 2016-2023-cü illərdə Azərbaycan Respublikasında əlilliyi olan şəxslər üçün inklüziv təhsilin inkişafı üzrə Dövlət Proqramı hazırlanmış və təsdiq olunması üçün Azərbaycan hökumətinə təqdim edilmişdir. Proqramın məqsədi bütün təhsil pillələri üzrə əlilliyi olan şəxslərin təhsilə cəlb olunmasını və bunun üçün maneəsiz mühitin yaradılmasını təmin etməkdən ibarətdir.

Ümumilikdə, nəzərdə tutulan tədbirlər sağlamlıq imkanları məhdud olan şəxslərin keyfiyyətli təhsillə əhatə olunmasına və cəmiyyətə inteqrasiyasına xidmət edəcəkdir.

# Telecom Paristech Universitetində təhsil alan ilk azərbaycanlı idim



**Şəhriyar MƏMMƏDOV,**
*Fransanın Telecom Paristech Universitetinin magistri*

1989-cu ildə Bakı şəhərində anadan olub. 1996-2007-ci illərdə paytaxtdakı 153 nömrəli tam orta məktəbdə oxuyub. 2007-2011-ci illərdə Azərbaycan Dövlət Neft Akademiyası, 2011-2013-cü illərdə isə Qafqaz Universitetində təhsil alıb. 2015-ci ildən "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı" çərçivəsində Fransanın Telecom Paristech Universitetində təhsil alıb. Hər 3 universitetdə əla qiymətlərlə (GPA 4/4 ilə) oxuyub. İş təcrübəsi əsasən telekommunikasiya şirkətində olub. Bakcell, "ZTE", "Huawei" və "SAP" şirkətlərində müxtəlif vəzifələrdə çalışıb. Əlavə olaraq "Velorent", "CycleBaku" kimi startupların təsisçilərindən biri olub və Qafqaz Universitetində yeni nəsil şəbəkələr və telekommunikasiyaların əsasları fənnini tədris edib.

### Bugünkü uğurlarıma görə valideynlərimə borcluyam

Orta məktəbi tərifnamə ilə bitirmişəm. Dəfələrlə ilin şagirdi seçilmişəm. Mənim bir şəxsiyyət kimi inkişafımda ibtidai sinif müəllimim Hirzad xanımın böyük rolu olub. Məktəb illərində təhsil ocağının keçirdiyi kütləvi tədbirlərdə, 20 Yanvar faciəsi və Xocalı soyqırımına həsr olunmuş anım mərasimlərində yaxından fəal iştirak etmişəm. Ümumiyyətlə, bütün fənlərə maraq göstərirdim, buna görə də ixtisas seçimində tez-tez qrupları dəyişirdim, gah IV qrup üzrə həkim olmağa (10-cu sinfə qədər), sonra II (10-cu sinifdə), sonda isə I qrupa sənəd verməyə qərar verdim. Bu qərarım XI sinifdə oxuyarkən dəyişmədi. Əsas motivasiya mənbəyi olaraq məndən 3 yaş böyük olan qardaşımın Azərbaycan Dövlət Neft Akademiyasında TEMPUS Proqramına daxil olmasını qeyd edə bilərəm. Və zamanla ən doğru qərar verdiyimə əmin oldum. Uşaq olarkən, kifayət qədər oyuncaqlarım olmadığından evdə olan digər əşyalardan nəsə düzəltmək, müxtəlif oyunlar barədə düşünürdüm. Hesab edirəm ki, bütün bunların mənim yaradıcı və fərqli düşünməyimdə böyük rolu olub.

Mənim 27 yaşım var və bu günə qədər verdiyim bütün qərarlarda valideynlərimdən yalnız dəstək gördüm və düşünürəm ki, bugünkü uğurlarıma görə onlara borcluyam. Xaricdə təhsillə bağlı sərgidə iştirak etdim və oradakı mühit mənim üçün təhsilimi xaricdə davam etdirməkdə əsas oldu. Üzərimə düşənləri yerinə yetirdim və sənədləri internet vasitəsilə Təhsil Nazirliyinə göndərdim. İnformasiya təhlükəsizliyi sahəsində kifayət qədər biliyə sahib olmadığımdan müsahibə mərhələsində zəif iştirak etdim və birinci il Dövlət Proqramından təqaüd qazana bilmədim. Bu, məni həvəsdən salmadı, əksinə, gedəcəyim ölkənin dilini və mədəniyyətini daha da yaxşı öyrənməyə, ixtisasım üzrə müxtəlif treninqlərdə iştirak etməyə, bilik və bacarıqlarımı artırmağa vaxt qazandırmış oldu. Bu isə növbəti ildə Dövlət Proqramına müraciət edərək uğur əldə etməyimə səbəb oldu.

Proqrama qəbul olunmağım barədə xəbəri böyük sevinclə qarşıladım. O vaxt "Huawei" şirkətində çalışırdım. Müştəri ilə şirkətdə iclasların birində iştirak edirdim. Fasilədən istifadə edərək email-mi yoxladım və çətinliklə də olsa iclası davam etdirmək məcburiyyətində qaldım. Lakin bu xəbəri anama sms vasitəsilə göndərməyi də unutmadım.

### "Ölkənizə gedib ev tikib yaşayacağam"

Oxuduğum universitetdə 40-dan artıq ölkədən olan tələbələr təhsil alır, bu da mənə qısa zaman ərzində müxtəlif mədəniyyətlər, ölkələr haqqında ətraflı məlumat toplamağa və yeni dostlar qazanmağıma imkan verdi. Universitet 1992-ci ildən fəaliyyət göstərir və 25 il ərzində orada təhsil alan ilk azərbaycanlıyam və bu mənim üçün böyük uğur idi əslində. Sadəcə, bir faktı deyə bilərəm ki, administrasiya şöbəsində çalışan xanımlardan biri "əgər Azərbaycanda hamı sənin kimidirsə, ölkənizə gedib orada ev tikib yaşayacağam" söylədi. Bunu eşitmək çox xoş idi. Çünki bunu öz kiçik uğurlarımdan biri kimi qiymətləndirirdim. Digər misal. Bakıdan daim paxlava və s. şirniyyatlar aparıb müəllim və tələbə yoldaşlarımla bölüşürdüm. Şirniyyatlarımızı hətta o qədər sevmişdilər ki, Bakıdan alıb yenidən göndərməyimi xahiş etdilər, təbii ki, bu dəfə hədiyyə kimi yox, tələbə olduğumun fərqində idilər...



### SABAH qruplarının fəaliyyətini yaxından izləyirəm

Azərbaycan təhsil sistemində aparılan islahatları yüksək qiymətləndirirəm. Universitetlərimizdə baş verən dəyişiklikləri, xüsusən də SABAH qruplarının fəaliyyətini yaxından izləyirəm. Ali məktəblərimizdə müşahidə etdiyim keyfiyyət və struktur dəyişiklikləri təhsil sistemimizin sürətlə inkişafından xəbər verir. Oxuduğum universitetdə digər ölkələrdən də analoji dövlət proqramları ilə təhsil alan tələbələr var. Müqayisə üçün deyə bilərəm ki, bizim təqaüd proqramı hər cəhətdən - ödənişlərlə, sənədlərlə bağlı və s. onlarınkından üstündür. Qeyd etməliyəm ki, heç bir gecikmə, çətinliklə qarşılaşmadım, istənilən sualıma operativ şəkildə cavab verən Təhsil Nazirliyinin müvafiq şöbəsinin kollektivinə tam səmimi olaraq dərin təşəkkürümü bildirirəm, məhz buna görə tam fikrimi dərslərə yönəldib təhsilimdə yüksək göstəricilər əldə etdim.

### Yatmağa cəmi 4 saat vaxtım qalırdı

Fransada tələbə həyatım ilk günlərdə çox stresli keçdi, boş vaxt demək olar ki, olmurdu. Yatmağa 4 saat vaxtım qalırdı. Valideynlərim ilk dəfə səsimi may ayında eşitdi. Ona qədər isə sadəcə "whatsapp"-la "hər şey yaxşıdır, narahat olmayın" yazırdım. Boş vaxtlarım olanda əsasən universitetin təşkil etdiyi tədbirlərə qatılırdım. Bir velosipedim var idi. Bununla belə, Fransada tələbə həyatımın olduqca rəngarəng olduğunu deyə bilərəm. Universitetlərin şirkətlərlə birgə layihələr həyata keçirməsi və tələbələri müxtəlif ölkələrdə təcrübə mübadiləsinə göndərməsi təqdirəlayiq bir haldır. Tələbələr bir-biri ilə təhsildəki uğurlarına görə bəhsə girirlər. Universitetlər əyləncə üçün də müəyyən büdcə ayırırlar və tətillərdə digər ölkələri gəzmək xərcləri belə, ödənilir.

İxtisasım mənim üçün tamamilə yeni bir sahədir və 2014-cü ildə mən bu qərarı verərkən bəlkə də informasiya təhlükəsizliyi bugünkü qədər aktual və perspektivli görünmürdü. Hazırda isə ən yüksək 3 IT ixtisasdan biridir: Big Data, IOT və Info Security.

### Tələbə ilə qrup rəhbəri kimi davranırlar

Universitetdəki tədris mühiti xeyli maraqlı məqamları ilə seçilir. Ali məktəbdə sanki iş həyatındakı bir mühit hökm sürür. Tələbə ilə qrup rəhbəri kimi davranırlar. Müəllimlər öz sahələrində kifayət qədər dərin təcrübəyə malikdir və daim yeni texnologiyalarla dərsləri və tapşırıqları yeniləyirlər. Universitetdə mühazirələr əsasən həftədə 1 fəndən 3 saat (1.5 saat +15 dəqiqə fasilə +1,5 saat), 14 həftə ərzində və fəndən asılı olaraq laboratoriyalar və ev tapşırıqları olur. Çox zaman dərs saatı prezentasiya üçün kifayət etmir, əlavə olaraq internetdən araşdırmaq və kitablar oxumaq lazım gəlir. İmtahanlara nəzarət PhD tələbələri tərəfindən həyata keçirilir və tapşırıqlar əsasən düşünmə tələb edir, yeni slaydlarda yazılandan daha çox oxuduqdan sonra çıxan nəticələrə əsaslanan suallardır. İmtahanlar çox fərqlidir, dərslər bitir, 1 həftə fasilə və hər gün imtahan olmaqla 1-2 həftə ərzində tamamlanır. İmtahan dövrü çox stresli keçir, bəzən 3 gün ərzində 6 imtahan vermək tələb olunur.

Bütün çətinliklərinə baxmayaraq xaricdə təhsilin mühüm üstünlüklərindən danışmaq lazımdır. Xaricdə təhsil insana özünə fərqli bucaqdan baxmağa şərait yaradır deyərdim, bu isə boşluqları, zəif tərəfləri görüb onları düzəltməyə imkan verir. Avropa İttifaqı tədqiqatlara kifayət qədər investisiyalar ayırdığından orada sənayedə çalışanların və PhD tələbələrinin maddi durumunda böyük fərqlər yoxdur, istərdim Azərbaycanda da şirkətlər və təhsil müəssisələri oxşar təcrübədən istifadə etsin.

Xaricdə təhsil əslində gözlədiyimdən artıq nəticəni verdi. Düşüncə tərzim belə dəyisdi, həyatımda verdiyim ən doğru qərarlardan biri oldu. Artıq "Google", "Apple", "Microsoft" kimi şirkətlərin əlçatmaz olduğunu düşünürəm.

Fransanın Nitse şəhərində yaşayıram. Burada mənim üzərimə ölkəmiz haqqında ünsiyyətdə olduğum insanlara maksimum məlumat vermək, facebook, linkedin və s. sosial şəbəkələrdə məlumatlar paylaşmaq vəzifəsi düşürdü. Hər il keçirilən "International Meal" tədbirində ölkəmizi layiqincə təmsil etdim. Tədbirdə iştirak edənlərə Azərbaycan və milli yeməyimiz haqqında məlumat verməklə ölkəmizi tanıtmağa çalışdım.

Sonda planlarım barədə danışmaq istərdim. Planlarım çoxdur. Onları reallaşdırmağa ümid edirəm. Əsas məqsədim texnologiyalardan istifadə etməklə sərhədsiz dünya qurmaqdır. Bildiklərimi və öyrəndiklərimi hazırda tələbələrlə paylaşıram. Öz sahəmdə malik olduğum bilik və iş təcrübəm, düşünürəm ki, IT idarəetmə sahəsində çalışmağım üçün yetərlidir.

## 2030-cu ildə onlayn-kursların müəllimləri robotlar olacaq

Futurist Tomas Freyanın fikrincə, 2030-cu ildə onlayn-kursların müəllimləri robotlar olacaqlar. İnternetdə ən böyük kompaniya təhsil sahəsində ixtisaslaşmış yeni firma olacaq. Proqnozlara əsasən "Coursera" və "Khan Academy" kimi təhsil platformaları gələcəkdə də əvvəlki kimi böyük rol oynayacaqlar. Əhəmiyyətli fərq ondan ibarət olacaq ki, onlayn-kursların müəllimi robotlar olacaq. Süni intellekt elə bir səviyyəyə çatacaq ki, o, dərsləri fərdiləşdirmək üçün hər bir tələbənin güclü və zəif tərəflərini dəqiq aşkar etməyə şərait yaradacaq. T.Freyanın sözlərinə görə, fərdiləşdirmə daha sürətli və daha effektiv oxumağa imkan verəcək: məsələn, bütün bakalavriat proqramını 6 aya başa vurmaq mümkün olacaq. Hələlik onlayn təhsilinin ən vacib problemi qarşılıqlı təsirdir. Bu sahədə hətta ən yaxşı proqramlar altıyaşlı uşağı belə əhatə edə bilmir. Xatırladaq ki, artıq robotlardan təhsil assistentləri kimi fəal istifadə olunur. Belə ki, Corciya Texnologiya İnstitutunda assistent Djill Vatson (Watson sistemi) tam semestr ərzində göndərilmiş mesajlara cavab verib, bildirişlər göndərib, məktublar yazıb, həm də tanınmamış olaraq qalıb.



## Pis hava şəraiti təlimin nəticələrini aşağı salır

Mütəxəssislər şagirdlərin hazırlıq səviyyəsini təhlil edərək belə bir qənaətə gəliblər ki, pis hava şəraiti kimi faktor təlim nəticələrini aşağı salır. Xüsusilə də bu, məktəblilərə aiddir. Bir neçə amil var ki, təhsilalanların davamiyyətini aşağı salır. Amerikada aparılmış tədqiqatlara əsasən, yağışların və tutqun hava şəraitinin hökm sürdüyü regionların şagirdləri özlərini süst və gücdən düşmüş hiss edirlər. Bununla əlaqədar olaraq uşaqların əqli qabiliyyətləri yüksək göstəricilərə malik deyil. Digər tərəfdən pis hava şəraiti şagirdlərin məktəbə çatması imkanlarını məhdudlaşdırır, məktəb proqramına aid materialların vaxtlı-vaxtında mənimsənilməsinə mane olur. Buna görə də təhsili idarəetmə qurumları pis hava şəraitinə görə şagirdlərin təhsilinin distant yolla aparılmasını nəzərdən keçirirlər.

## Əcnəbi tələbələr Yeni Zelandiyanı seçir

Yeni Zelandiya universitetlərində təhsil alan əcnəbi tələbələrin 40 faizi ali təhsili başa vurduqdan bir il sonra bu ölkədə işlə təmin olunub. Bu barədə ölkənin Təhsil Nazirliyinin "Moving Places" adlı hesabatında qeyd olunur. Əcnəbi tələbələrin 27 faizi məzun olduqdan sonra evə qayıdıb, 22 faizi isə təhsilini davam etdirir. Əmək bazarında ən çox tələb olunan işçilər universitet məzunları və ya diplomlu mütəxəssislər olub. Onlardan 63%-i məzun olduqdan bir il sonra iş yeri tapıb. 5-7 dərəcəli peşəkar sertifikatlar alanlar arasında işlə təmin olunanların sayı 53, elmlər doktoru dərəcəsi alanlar arasında isə 45 faiz təşkil edib. Qeyd olunur ki, son illərdə Yeni Zelandiyada əcnəbi tələbələrin sayında artım müşahidə olunur. Hökumət isə əcnəbi tələbələrin cəlb olunması üzrə səylərini daha də artırıb.



## Onlayn kursların effektivliyi yoxlanılacaq

2017-ci ilin sonuna kimi Rusiya Federasiyasının Təhsil və Elm Nazirliyi onlayn-kursların effektivliyini yoxlayacaq. Bəzi ali məktəblərdə fənlər qismən və ya tamamilə onlayn rejimdə tədris olunacaq. Nazirlik eksperiment gedişində onlayn-kurslara əsaslanan bir neçə təhsil modelini təlimin ənənəvi formasının effektivliyi ilə müqayisə edəcək. İki modelin - fənlərin qismən və ya tamamilə distant kursla əvəz olunmasının sınaqdan keçirilməsi nəzərdə tutulub. Bundan əlavə, nazirlik distant təhsil texnologiyalarının reallaşdırılması üçün yeni yanaşmalar işləyib hazırlayacaq. İlk növbədə bu virtual akademik mobilliyin tətbiqi və fərdi təlim trayektoriyalarının qurulmasına aiddir. Təşəbbüsün hədəfi təhsil proqramlarının keyfiyyət və effektivliyini yüksəltmək, həmçinin fərdi təlim trayektoriyalarının seçimi üçün imkanları genişləndirməkdir.

**Oruc MUSTAFAYEV,**
*xarici mətbuat materialları əsasında*

# Səfir BDU-da təhsil alan türkiyəli tələbələrlə görüşüb



Türkiyənin ölkəmizdəki səfiri Erkan Özoral Bakı Dövlət Universitetində olub. BDU-nun mətbuat xidmətindən verilən məlumata görə, səfiri yenidən universitetdə görməkdən məmnunluğunu ifadə edən rektor, akademik Abel Məhərrəmov Türkiyə universitetləri ilə əlaqələrdən, "ikili diplom" məsələsindən və bu günlərdə qardaş ölkənin 3 ali təhsil ocağı ilə imzalanan müqavilələrdən bəhs edib.

Səfir Erkan Özoral, öz növbəsində, universitetlər arasında elm-təhsil sahəsində həyata keçirilən layihələrin vacibliyini vurğulayıb.

Daha sonra səfir Erkan Özoral BDU-da təhsil alan türkiyəli tələbələrlə görüşüb.

Tələbələrin arzu və istəklərini dinləyən səfir, eyni zamanda problemləri ilə maraqlanıb, təhsil aldıqları müddətdə vaxtı düzgün dəyərləndirməyi, peşəkar mütəxəssis kimi özlərini inkişaf etdirməyi tövsiyə edib. Sonda tələbələri maraqlandıran suallar cavablandırılıb.

# Konfrans gələcək tərcüməçilər üçün böyük təcrübədir



Aprelin 1-də Bakı Slavyan Universitetində (BSU) "Müasir tərcüməşünaslığın və mədəniyyətşünaslığın aktual problemləri" mövzusunda tələbə və magistrantların respublika elmi konfransı keçirilib.

Konfransı BSU-nun rektoru, professor Nurlana Əliyeva giriş sözü ilə açaraq keçirilən tədbirin mahiyyəti barədə danışıb. Qeyd edilib ki, konfransın məqsədi gənclərin müasir dövrdə azərbaycanşünaslığın inkişafı və dünya ölkələrində Azərbaycan dilinin tədrisi ilə bağlı məsələlərin tədqiqinə cəlb edilməsidir. Tərcümə fakültəsinin təşkil etdiyi tədbiri yüksək qiymətləndirən professor Nurlana Əliyeva vurğulayıb ki, tərcüməşünaslıq elminin kökündə multikultural dəyərlər dayanır. Rektor multikulturalizmin hökm sürdüyü BSU-da ənənəvi olaraq keçirilən belə konfransların gələcək tərcüməçilərimiz üçün böyük təcrübə olduğunu diqqətə çatdırıb.

BSU-nun elmi işlər üzrə prorektoru, professor Rafiq Novruzov tərcüməşünaslıq elminin bütün elmləri özündə ehtiva etdiyini qeyd edib. Prorektor tərcüməşünaslığın peşəkarlıq tələb etdiyini, bu konfransın gənclərin bilik və bacarıqlarının üzə çıxarılmasına imkan yaratdığını deyib. O, eyni zamanda konfransın tərcümə fakültəsi ilə yanaşı, digər fakültələrdə də keçiriləcəyini, müxtəlif mövzuları əhatə edəcəyini vurğulayıb.

Sonra BSU-nun Tələbə Elmi Cəmiyyətinin sədri Aygün Mahmudova elmi konfransın işi barədə iştirakçılara ətraflı məlumat verib. Bildirilib ki, respublikanın 12 ali məktəbini əhatə edən konfrans öz işini 5 bölmə üzrə qurub.

Konfransda BDU-dan Aynur Mustafayeva, M.Lomonosov adına Moskva Dövlət Universitetinin Bakı filialından Bəhruz Səmədov, BSU-dan Fatimə Zeynalova, GDU-dan Xanım Əmiraslanova hazırladıqları mövzular barədə məlumat veriblər.

Konfransda müxtəlif universitetlərin tələbə və magistrantlarının iştirakı ilə elmi diskussiyalar, seminarlar aparılıb, bölmələr üzrə məruzələr dinlənilib.

Sonda fərqlənən tələbələrə diplomlar, iştirakçılara sertifikatlar təqdim edilib.

# Azərbaycan Dillər Universitetində Frankofoniya Mərkəzi açılıb



Aprelin 4-də Azərbaycan Dillər Universitetində (ADU) Frankofoniya Mərkəzinin açılış mərasimi keçirilib. Universitetin mətbuat xidmətindən daxil olan məlumata görə, mərasimdə ADU-nun rektoru vəzifəsini icra edən professor Əfqan Abdullayev, Fransanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri xanım Aurelia Buşe və Frankofoniya Universitetləri Agentliyinin Mərkəzi və Şərqi Avropa üzrə direktoru Mohamed Ketata iştirak ediblər. Mərasimdə açılış rəmzi olan qırmızı lent kəsilib.

Tədbirdə çıxış edən universitetin Fransa Məlumat Mərkəzinin mütəxəssisi Jalə Salmanova mərkəz haqqında iştirakçılara qısa məlumat verib.

Sonra ADU tələbələrinin iştirakı ilə "Arşın mal alan" tamaşası fransız dilində təqdim olunub.

Tamaşadan sonra çıxış edən Frankofoniya Universitetləri Agentliyinin Mərkəzi və Şərqi Avropa üzrə direktoru M.Ketata agentliyin ADU-da yaradılmasından şad olduğunu deyib. O, hər il ADU-da Frankofoniya günlərinin təntənəli şəkildə qeyd olunduğunu vurğulayıb.

Fransanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri xanım A.Buşe isə tələbələrin istedadını yüksək qiymətləndirib. O, tədbirin təşkil olunmasında əməyi keçən hər kəsə təşəkkürünü bildirib. Səfir Fransa universitetləri ilə ADU arasında əlaqələrin inkişaf edəcəyinə ümid etdiyini söyləyib.

Qeyd edək ki, mərkəzin açılışından öncə professor Ə.Abdullayev M.Ketata ilə görüşüb. Professor universitetin tarixi, beynəlxalq əlaqələri, tədris prosesi haqqında məlumat verib. Fransa Məlumat Mərkəzinin fəaliyyətindən danışıb. O, ADU tələbələrinin fransız dilini böyük maraqla öyrəndiklərini qeyd edib və onların Fransanın tarixi, mədəniyyəti haqqında biliklərə də yiyələndiyini vurğulayıb. ADU-nun bir çox ölkənin nüfuzlu ali təhsil müəssisələri ilə əməkdaşlıq etdiyini bildirən Ə.Abdullayev universitetin Fransanın Strasburq Universiteti ilə əlaqələrindən danışıb. O, Fransanın Azərbaycandakı səfirliyi ilə universitet arasındakı əlaqələrin yüksək səviyyədə inkişaf etdiyini də sözlərinə əlavə edib.

Səmimi qəbula görə təşəkkürünü bildirən M.Ketata rəhbərlik etdiyi agentliyin fəaliyyət istiqamətləri haqqında məlumat verib. M.Ketata fransız dilinin tədrisi üçün keçilən bütün təlimləri dəstəklədiyini bildirib, ADU ilə əməkdaşlığın inkişaf edəcəyinə və əlaqələrin bundan sonra daha da genişlənəcəyinə əminliyini vurğulayıb.

Görüşdə gələcək əməkdaşlıq perspektivləri, birgə layihələrin təşkil olunması haqqında müzakirələr aparılıb.

Görüşdən sonra M.Ketata ADU-nun İnformasiya Resurs Kompleksi (İRK) ilə yaxından tanış olub.

# ADNSU ilə fransız universitetlərinin əməkdaşlığı genişlənir



Aprelin 3-də Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin (ADNSU) rektoru, professor Mustafa Babanlı Frankofoniya Universitetləri Agentliyinin regional direktoru Mohamed Ketata ilə görüşüb.

Fransız universitetləri ilə əməkdaşlığın müzakirə olunduğu görüşdə Azərbaycan və Fransa arasındakı təhsil və mədəni əlaqələrin tarixindən danışılıb, Fransız-Azərbaycan Universitetinin (UFAZ) iki ölkə təhsilini birləşdirən ən uğurlu layihələrdən olduğu vurğulanıb. ADNSU-nun rektoru, professor Mustafa Babanlı qonaqlara universitet haqqında geniş məlumat verib, universitetdə ingilis dili ilə yanaşı, fransız dilində də tədris aparılmasının prioritet istiqamətlərdən olduğunu diqqətə çatdırıb. Fransız dilində tədris aparılması üçün professor və müəllim heyətinin olduğunu qeyd edən rektor azərbaycanlı tələbələrin fransız dilinə böyük maraq göstərdiklərini bildirib.

"UFAZ bizim təhsil əlaqələrimizin daha da genişləndirilməsinə və yeni layihələrə şərait yaratdı. UFAZ bizim üçün olduqca mühümdür. Bu əlaqələrimizin daha da inkişafı üçün yeni əməkdaşlıqlara hər zaman hazırıq", - deyə rektor, professor M.Babanlı bildirib.

Səmimi qəbula görə rektor, professor Mustafa Babanlıya təşəkkürünü bildirən Mohamed Ketata rəhbərlik etdiyi agentliyin fəaliyyət istiqamətləri, üzvləri və digər mühüm məsələlər haqqında məlumat verib. ADNSU ilə əməkdaşlıqdan məmnun olduğunu qeyd edən M.Ketata fransız dilinin tədrisi üçün keçirilən bütün təlimləri dəstəklədiyini bildirib. O bildirib ki, ADNSU ilə əməkdaşlıq yüksələn xətt üzrə inkişaf edəcək və əlaqələrin bundan sonra daha da genişlənəcəyinə əminlik ifadə edib.

Sonra Frankofoniya Universitetləri Agentliyinin nümayəndələri UFAZ-ı ziyarət edib, tədris prosesi və auditoriyalarla tanış olub.

# Plagiatlıqla mübarizəyə yönəlmiş innovativ layihələr həyata keçirilir



Sumqayıt Dövlət Universitetinin mətbuat xidmətindən verilən məlumata görə, aprelin 5-də Polşanın "Plagiat.pl" şirkətinin nümayəndələri SDU-da olublar. Rektor, professor Elxan Hüseynov qonaqlara ali təhsil ocağı haqqında ətraflı məlumat verib. Universitetin beynəlxalq əlaqələrindən söz açan rektor ikitərəfli əlaqələrin daha da genişləndirilməsi məsələsinə də toxunub. Bildirib ki, SDU dünyanın və respublikamızın qabaqcıl ali məktəbləri ilə əməkdaşlıq edir. Rektor vurğulayıb ki, plagiatla mübarizə üçün hərtərəfli tədbirlərin gücləndirilməsi istiqamətində mühüm işlər görülür. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən intellektual mülkiyyətin, müəllif hüquqlarının qorunması və antiplagiat məsələlərinə xüsusi diqqət yetirildiyini deyən rektor ölkədə Təhsil Nazirliyi, Azərbaycan Milli Elmlər Akademiyası, Müəllif Hüquqları Agentliyi, eləcə də bir çox universitetlər və müvafiq qurumlarda plagiatlıqla mübarizəyə yönəlmiş innovativ layihələr həyata keçirildiyini diqqətə çatdırıb. SDU-da ötən tədris ilindən tətbiqinə başlanan plagiat proqramı bakalavr, magistr və doktorluq dissertasiyalarına, həmçinin istənilən digər elmi və ya tədris sənədlərini yoxlamağa imkan yaradır. Görüşdə intellektual mülkiyyətin, müəllif hüquqlarının qorunması və plagiatlıqla mübarizə problemlərinə elmi və hüquqi müstəvidə baxılmasının zəruriliyi qeyd edilib.

"Plagiat.pl" şirkətinin regional direktoru Əli Təhməzov proqramın işləmə mexanizmi barədə məlumat verib. Bildirib ki, Polşada 2002-ci ildə fəaliyyətə başlayan şirkətin əsas məqsədi müəllif hüquqları pozuntuları və intellektual mülkiyyətdən icazəsiz istifadə olunmasına qarşı mübarizə aparmaqdır. Bu gün şirkət Polşa, Rumıniya, Almaniya, Moldova, Kolumbiya, Qazaxıstan və Azərbaycandakı sifarişçiləri proqramlarla təmin edir.

O, alim, mütəxəssis və tələbələrin tədqiqat işlərini plagiatlıqdan qorumağa xidmət edən Ümumdünya Antiplagiatlıq Şəbəkəsinin yaradılması məqsədilə ali məktəblər, hökumət orqanları və nəşriyyatlarla sıx əməkdaşlıq əlaqələrinin qurulduğunu söyləyib. Şirkətin hazırladığı "StrikePlagiarism" sisteminin müxtəlif mətnlərdən köçürülmüş fraqmentləri aşkar etməyə imkan verdiyini bildirib. Sözügedən antiplagiat sisteminin Azərbaycan Respublikasının Təhsil Nazirliyi tərəfindən yüksək qiymətləndirildiyini söyləyən nümayəndə bu proqramın artıq Azərbaycanın bir neçə universitetində geniş tətbiq olunduğunu diqqətə çatdırıb.

Sonra mövzu ətrafında geniş fikir mübadiləsi aparılıb.

# Universitet əməkdaşları Polşada keçirilən təlimdə iştirak ediblər




Xəbər verildiyi kimi, ötən ay "Naxçıvan" Universitetinin bir qrup əməkdaşı AESOP layihəsinin Xəzər Universitetində keçirilən iclasında iştirak ediblər.

"Naxçıvan" Universitetinin mətbuat xidmətinin məlumatında bildirilir ki, bu günlərdə isə Gürcüstanın Akaki Tsereteli Dövlət Universitetinin koordinatorluğu ilə həyata keçirilən AESOP layihəsinin növbəti təlimi Polşada, Varşava Universitetində keçirilib. Tədbirdə partnyor universitet kimi "Naxçıvan" Universitetini ali təhsil ocağının tədris şöbəsinin müdiri Anar Abuzərli, layihə koordinatoru Elmira Hüseynova, xarici dillər fakültəsinin dekan müavini Yasin Babazadə və həmin fakültənin müəllimi Könül Babayeva təmsil ediblər.

Azərbaycan, Ukrayna və Gürcüstandan nümayəndələrin də iştirak etdiyi təlimin keçirilməsində məqsəd ombudsman aparatlarının funksiya və strukturunun nəzəri və praktiki cəhətdən öyrənilməsindən ibarətdir. Təlim çərçivəsində keçirilən iclasda giriş sözü ilə çıxış edən Varşava Universitetinin tələbə işləri üzrə prorektoru Yolanta Çoinska-Mika təlimin mahiyyəti barədə ətraflı məlumat verib.

Daha sonra partnyor universitetlərin təqdimatı keçirilib. "Naxçıvan" Universiteti haqqında geniş məlumatı və videoçarxı universitetin layihələr üzrə koordinatoru Elmira Hüseynova təqdim edib. Qeyd edək ki, əvvəlcədən müəyyənləşdirilmiş proqrama uyğun olaraq Varşava Universitetinin Ombudsman aparatının rəhbəri Anna Sibulka bu təşkilat haqqında tədbir iştirakçılarına ətraflı məlumat verib.

10 aprel İnşaatçılar günüdür

# AzMİU-nun 97 yaşlı İnşaat fakültəsi



**Hikmət MƏMMƏDOV,**
*AzMİU-nun inşaat fakültəsinin dekanı, əməkdar müəllim*

Ölkə Prezidenti İlham Əliyevin 16 dekabr 2009-cu il tarixli sərəncamı ilə hər il aprelin 10-u Azərbaycanda "İnşaatçılar Günü" peşə bayramı kimi qeyd olunur. Ölkə inşaatçılarının peşə bayramının təntənəli şəkildə qeyd olunması dövlət başçısının tikinti sektorunun inkişafına böyük dəstəyinin, bütövlükdə tikinti kompleksi əməkçilərinin - inşaatçı, memar və layihəçilərin çətin və şərəfli əməyinin layiqincə qiymətləndirilməsinə diqqət və qayğısının bariz nümunəsidir, onların əməyinə verilən yüksək qiymətdir.

Azərbaycanda inşaat və memarlıq ənənələri zəngin və qədim tarixə malikdir. Qurub yaratmağa böyük həvəsi olan insanlarımız əsrlər boyu daş yonub, kərpic kəsib "tikdim ki, izim qala" prinsipi ilə milli memarlığı formalaşdıran möhtəşəm mədəniyyət abidələri, saraylar, yaşayış məskənləri tikib, yaradıb bəşər mədəniyyətinə bəxş etmişdir. Zəhmətkeş insanlarımız-inşaatçılarımız, memarlarımız tarixin bütün dönəmlərində zamanın tələbinə, həyatın çağırışına müdrikcəsinə yanaşmış, əsrlərdən bəri toplanmış təcrübə və ənənələr əsasında Azərbaycan memarlıq və inşaat sənətini bütün Şərqdə tanıtmışdılar.

Zaman keçdikcə inşaat sənəti inkişaf edir, dövrün tələblərinə uyğun memarlıq növləri və nümunələri yaranır, bu sənətə maraq və diqqət artırdı. XIX əsrin 80-ci illərində ölkəmizdə sənayenin inkişafı fonunda XX əsrin əvvəllərindən başlayaraq tikinti işləri geniş vüsət alırdı, həmin dövrdə bu gün də qiymətli memarlıq abidələri kimi qorunan onlarla yaşayış binası və sosial obyekt inşa edilmişdi. Kapitalizmin inkişafı həyatın bütün sahələrinə, o cümlədən tikinti sahəsinə də böyük dəyişikliklər gətirmişdi. Məhz bu dönəmdə Şərq və Qərb memarlığının nadir nümunələrini özündə birləşdirən Bakı şəhəri dünyanın ən gözəl şəhərlərindən birinə çevrilmişdi. Bakı milyonçularının sifarişi ilə Avropadan peşəkar memarlar dəvət olunurdu. Tağıyevin qadın müsəlman məktəbinin, Bakı Şəhər İcra Hakimiyyətinin, İqtisad Universitetinin, Kukla Teatrının, Memarlar İttifaqının, İsmailiyyənin binaları və digər müxtəlif üslublarda layihələndirilmiş möhtəşəm memarlıq əsərləri bu gün də qədim şəhəri bəzəməkdədir.

Azərbaycanın quruculuq tarixinin ən məhsuldar, uğurlu səhifələri kimi tarixə düşən XX əsrin ikinci yarısında ümummilli liderimiz Heydər Əliyevin Azərbaycanda birinci dəfə hakimiyyətdə olduğu illərdə respublikamızda tikinti sektoru daha sürətlə inkişaf etdi. Bu dövrdə Bakı Məişət Kondisionerləri Zavodu, Bakı Dərin Özüllər Zavodu, Şəmkir Su Elektrik Stansiyası, onlarla nəhəng istehsalat obyektləri, yüzlərlə yaşayış binası, səhiyyə, mədəniyyət, təhsil obyektləri tikilib istifadəyə verildi. "Azərbaycan", "Abşeron" otellərinin, "Respublika" sarayının, "Gülüstan" sarayının, Milli Məclisin və Prezident Aparatı binasının inşası bilavasitə ulu öndərin nəzarəti altında həyata keçirilirdi.

Azərbaycan inşaatının şanlı ənənələri bu gün də davam etdirilir, ümummilli liderin siyasi kursunun layiqli davamçısı Prezident İlham Əliyevin rəhbərliyi altında ölkəmizin ərazisi başdan-başa nəhəng tikinti-abadlıq və quruculuq meydanına çevrilib. İnşaatçıların, memarların və layihəçilərin gərgin əməyi sayəsində son illərdə respublikamızda yeni məktəb binaları tikilib, bəziləri əsaslı təmir edilib, müasir avadanlıqla təchiz olunmuş onlarla diaqnostika mərkəzi və digər səhiyyə obyektləri, dünya və Avropa standartlarına tam cavab verən olimpiya idman kompleksləri, yüzlərlə çoxmərtəbəli yaşayış binası istifadəyə verilib. Sevindirici haldır ki, inşaatçılarımızın bu ağır işi, böyük əməyi ölkə Prezidenti tərəfindən yüksək mükafatını alıb, onlar fəxr və sevinclə hər il aprelin 10-da öz peşə bayramlarını qeyd edirlər.



Tarixə İnşaatçılar Günü kimi düşən bu bayram günündə düşünürəm ki, Azərbaycanda ali təhsilli inşaatçı kadrlar yetişdirən yeganə ali təhsil ocağı olan Azərbaycan Memarlıq və İnşaat Universitetinin də öz payı var, professor-müəllim heyətiylə yanaşı, gələcəyin inşaatçıları olan tələbələrimiz də 10 aprel tarixində peşə bayramı sevincini yaşayırlar. Dövlət başçısı tərəfindən inşaatçı əməyinə verilən dəyər, böyük ehtiram inşaatçı kimi bizi sevindirir, ruhlandırır. AzMİU-nun qocaman fakültələrindən olan 97 yaşlı inşaat fakültəsində hazırlanan kadrlar təkcə ölkəmizdə deyil, onun hüdudlarından kənarda həyata keçirilən layihələrə imza atır, mühüm, böyük tikintilərdə çalışır, tikinti-quruculuq işlərinin müəllifi kimi tanınırlar.

Universitetimizdə inşaatçı kadrlar hazırlayan inşaat fakültəsi böyük inkişaf yolu keçib. Yuxarıda qeyd etdiyim kimi, XIX əsrin sonları XX əsrin əvvəllərində Azərbaycanda dövrün çağırışlarına cavab verə biləcək təhsil ocaqları olmadığı üçün böyük tikinti işlərinə əcnəbi mütəxəssislər cəlb olunurdu. 1920-ci ildə Bakıda Politexnik İnstitutunun yaradılması və onun tərkibində inşaat mühəndisliyi ixtisası üzrə kadr hazırlığının başlanması demək olar ki, bizim fakültəmizin əsasını qoydu. Bu gün inşaat fakültəsi AzMİU-nun ən qocaman, aparıcı, vacib, həmişə tələb olunan fakültələrindən biridir. Təbii ki, 97 ildə fakültəmiz daha da böyüyüb, inkişaf edib, uğurlar qazanıb. Bu gün fakültədə təhsil Azərbaycan, rus və ingilis dillərində aparılır, bakalavr pilləsində 1200-ə yaxın tələbə təhsil alır, "İnşaat mühəndisliyi" ixtisası üzrə mütəxəssislər hazırlanır. Bu gün inşaat fakültəsi respublikanın ali məktəbləri arasında yeganə fakültədir ki, beynəlxalq təhsil sisteminə inteqrasiya olunub. Türkiyənin İstanbul Texniki Universiteti ilə AzMİU arasında bağlanmış müqaviləyə əsasən, 2013-2014-cü tədris ilindən hər iki universitetin inşaat fakültəsi "ikili diplom" proqramı üzrə birgə kadr hazırlığını ingilis dilində ortaq proqram əsasında aparır. Moskva Dövlət Universiteti tərəfindən Beynəlxalq İnşaat Universitetləri Assosiasiyasının iclaslarında mütəmadi iştirak edirik və tələbələrimiz həmin assosiasiya çərçivəsində təşkil olunmuş distant təhsil proqramı üzrə müəyyən fənlər üzrə mühazirələr dinləmək imkanı da qazanıb.

Tədrisin keyfiyyətini artırmaq üçün fakültədə ixtisaslaşdırılmış auditoriyalar və laboratoriya otaqları yaradılıb, 2015-2016-cı tədris ilindən müasir tələblərə cavab verən inşaat konstruksiyalarının sınağı və tədqiqi laboratoriyası istifadəyə verilib, inşaat konstruksiyalarının kompüter layihələndirilməsi laboratoriyası fəaliyyət göstərir. Tədrisin nəzəri əsaslarının təcrübədə tətbiqi işinin səmərəliliyini yüksəltmək üçün fakültənin istehsalatla əlaqələrinin genişləndirilməsinə xüsusi diqqət yetirilir. Bağlanmış müqavilələr əsasında tələbələrimiz tədris-istehsalat və tədris-texnoloji təcrübələrini Bakının tanınmış sənaye müəssisələrində və inşaat şirkətlərində (Heydər Əliyev adına Bakı Neft Emalı Zavodu, Heydər Əliyev adına Bakı Dərin Özüllər Zavodu, ARDNŞ, Akkord, FHN, Paşa-İnşaat, BP, İCOM və s.) keçirlər.

Fakültənin məzunları arasında respublikanın ictimai-siyasi həyatında və istehsalat sahəsində tanınmış kadrlar çoxdur, onlardan Baş nazirin müavinləri Yaqub Eyyubov və Abid Şərifovu, Milli Məclisin deputatı Aydın Mirzəzadəni və başqalarını misal göstərmək olar. Bu gün fakültədə gənc müəllimlərlə yanaşı, qocaman müəllimlərimiz də çalışırlar, Əsgər İsayev, Sabir Quliyev, Rasim Bayramov, Musa Kələntərov, Xalid Nəcəfov və başqalarının mühazirələri tələbələr üçün həmişə maraqlıdır. Ölkə Prezidentinin sərəncamı ilə təsdiq olunmuş "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nın tələblərinə uyğun olaraq tədrisin keyfiyyətini artırmaq üçün yeni metodlardan, imkanlardan istifadə edirik, tələbələrimizin mütəxəssis kimi hazırlanmasına çalışırıq.

Bu bayram günündə həm inşaatçı, həm inşaatçı kadrlar hazırlayan mütəxəssis kimi 10 aprel İnşaatçılar Günü münasibətilə ölkəmizin çoxminli inşaatçı ordusunu, inşaatçı kadrların hazırlanmasında müstəsna xidmətləri olan həmkarlarımı-universitetimizin professor-müəllim heyətini, gələcəyin inşaatçıları olan tələbələrimizi təbrik edirəm, təhsildə, tədrisdə və karyeralarında uğurlar arzu edirəm. Əziz inşaatçılar, qurun, yaradın, Azərbaycanımızı gözəlləşdirin!

# Maarifçi

*Oktay Səmədovun 60 yaşına*



Oktay Əlipaşa oğlu Səmədov 8 aprel 1957-ci ildə Bakı şəhərində anadan olub, 1974-cü ildə 36 nömrəli məktəbi, 1978-ci ildə M.F.Axundov adına Azərbaycan Pedaqoji Rus dili və Ədəbiyyatı İnstitutunu fərqlənmə diplomu ilə bitirib. 1978-1980-ci illərdə təyinatla göndərildiyi Saatlı və Dəvəçi (indiki Şabran) rayonlarının kənd məktəblərində rus dili müəllimi işləyib. 1981-1984-cü illərdə SSRİ Pedaqoji Elmlər Akademiyasının Milli Məktəbdə Rus Dilinin Tədrisi Elmi-Tədqiqat İnstitutunun aspiranturasında təhsil alıb. 1986-cı ildə rus dilinin tədrisi metodikası sahəsində namizədlik dissertasiyasını müdafiə edib, pedaqoji elmlər üzrə fəlsəfə doktoru, dosentdir. Bakı Slavyan Universitetində müəllim, baş müəllim, magistratura şöbəsinin müdiri, tərbiyə işləri üzrə prorektor olub. 10-dək elmi-metodik vəsaitin, dərslik və lüğətlərin, 50-dən çox elmi məqalənin müəllifidir, bir çox beynəlxalq elmi-praktik konfranslarda məruzə ilə çıxış edib. Rus dilinin tədrisi metodikası, gənclərin təlim və tərbiyəsi, tərcümə problemlərinə dair elmi məqalələri Rusiya, Ukrayna, Türkmənistan ali məktəblərinin elmi məcmuələrində dərc edilib. Ailəlidir, iki övladı var.

2014-cü il mayın 7-də Prezident İlham Əliyevin Fərmanı ilə yaradılmış Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondunun icraçı direktoru təyin edilib.

Prezident İlham Əliyevin qlobal çağırışlara cavab verərək iqtisadi inkişafdan əldə olunan kapitalı birbaşa insan kapitalının inkişafına yönəltmək çağırışının real təcəssümü olan Bilik Fondunun yaradılması ideyası ölkəmiz üçün əhəmiyyətli oldu, bir çox tanınmışlarımızın da dəfələrlə etiraf etdikləri kimi, bu dövlət qurumunun yaradılması günün tələbi idi və Fond qısa müddət ərzində özünü təsdiq edə bildi. Heç şübhə yoxdur ki, yarandığı gündən Fondun fəaliyyətinə rəhbərlik edən Oktay müəllimin işgüzarlığı, təşkilatçılığı, insanlarla ünsiyyət qurma bacarığı və yüksək mədəniyyəti, təbiətən maarifçi ziyalı olması qazanılmış uğurların əsas səbəbi, həm də nəticəsidir.

2014-cü ilin iyulunda Fondun üçüncü işçisi mən oldum və tanışlığımızın ilk günlərindən Oktay müəllimin gendən, qandan gəlmə mərifət, tərbiyə sahibi olduğunu gördüm. İlk vaxtlar Bakı Slavyan Universitetinin 2 otağında yerləşmişdik. 40 il müddətində təhsil aldığı və çalışdığı universitet tələbə və müəllimlərinin ona münasibətindəki içdən gələn hörmət, sevgini duymaq üçün məxsusi həssaslığa ehtiyac yox idi. Ünsiyyətdə olduğum tələbələrdən ilk eşitdiyim bu oldu: təmiz insandı.

Elə üç ildə gördüklərimiz də bu sadə həqiqəti təsdiq edib: dövlətin hər manatının qədrini ailə büdcəsi kimi qoruyur, israfçılıq, bədxərclik kimi xasiyyətlər Oktay müəllimin kitab-dəftərində yoxdur. Bu cür pak əməl sahibi olan bir kəsin daim ictimaiyyətlə ünsiyyət quran, insanların maariflənməsinə xidmət göstərən Bilik Fonduna rəhbərliyi əlavə stimuldur.

Bu daxili təmizlik, tapşırılan işə yüksək məsuliyyət hissi ilə yanaşma, təşəbbüskarlıq və təşkilatçılıq qabiliyyəti kökdən gəlir, əsli-nəcabətin təzahürüdür: Oktay müəllimin atası Böyük Vətən müharibəsinin odu-alovundan keçmiş, qələmini Yazıçılar Birliyinin üzvü kimi poeziyada, Jurnalistlər Birliyinin üzvü kimi publisistikada sınamış, tarda milli musiqimizi məharətlə ifa etməklə yanaşı, uzun illər boyu gözəl rəsm əsərləri yaratmış, 40 ilədək dövlət işində çalışmış bir ziyalı olub. Bir müddət Azərbaycan Kitabsevərlər Cəmiyyətində çalışıb, Respublika Bilik Cəmiyyətinin fəal üzvü olub. Maraqlı təsadüfdür.

Oktay müəllim işgüzardı, işləməkdən doymaz, yorulmaz. Bəzən bazar, bayram günləri axşamdan xeyli ötmüş zəng edər, nə isə soruşar işlə bağlı. Gün ərzində çatdırıb tamamlaya bilmədiyi sənədləri özü ilə evə aparar. Bilik Fondunun fəaliyyəti barədə şəxsən tərtib etdiyi 300 səhifəlik salnamə, yekun hesabatları görəndə də onun səbrinə, işgüzarlığına, diqqət və səliqəsinə yaxşı mənada həsəd aparmışıq. Biz onun məzuniyyət, istirahət etdiyinin də şahidi olmadıq heç. Yazıb, bəzən də savadımızı, operativliyimizi göstərmək niyyəti ilə tez-tələsik atırıq elektron poçtuna... Sonra yazdıqlarımızda elədiyi səliqə-sahmanlı düzəlişləri görəndə tələskənliyimizə peşiman oluruq. O, yazı, sənədləşdirmə, kargüzarlıq işlərinin peşəkarıdır. A.S.Puşkin adına Dövlət Rus Dili İnstitutunun rəhbəri Bakıda keçirilən təqdimatda Oktay müəllimin çıxışını dinlədikdən sonra dedi: "Təəssüf ki, bizim institutda rus dilində belə səlis, rəvan danışan alimlər azdır".

Natiqdir, səlis, rəvan nitqi var, auditoriyanı ələ ala bilir Oktay müəllim. Dəfələrlə bu sözləri müxtəlif sənət, peşə adamlarından, rayon rəhbərlərindən, alimlərindən qürur hissi ilə eşitmişik: "Amma müdiriniz savadlı, mərifətli, həssas adamdı ha..."

Bilik Fondunun əldə etdiyi uğurların bir səbəbi də Oktay müəllimin kollektivi işlətmək bacarığıdır. Çoxları inanmır ki, Fondun işçilərinin sayı cəmi 20 nəfərdir. Burda hər kəsin cavabdeh olduğu layihə var, ancaq gərək olanda hamı vahid komanda şəklində səfərbər olur. Təvazökarlıqdan uzaq olsa da, Bilik Fondu respublikada xeyli layihənin adını rəngarəng tədbirlərlə, davamlı, ardıcıl görüşlərlə yaddaşlara yazıb. Yazanlar sırasında Oktay müəllimin xüsusi yeri var...

60 yaşınız mübarək, Oktay müəllim! Xalqa, vətənə, dövlətə maarifçilik yolu ilə ləyaqətli, layiqli xidmətinizdə bundan sonra da uğurlarınızın bol olmasını diləyirəm.

Yaxşı ki, varsız, bizimlə birlikdəsiz!

**Hacı ABDULLA,**
*Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondunun sektor müdiri*

# "Aprel fatehləri" mövzusunda tədbir

Bakıdakı 283 nömrəli tam orta məktəbdə yeniyetmə və gənclərin vətənpərvərlik hisslərinin yüksəldilməsi və aprel döyüşlərinin ildönümü ilə əlaqədar "Aprel fatehləri" mövzusunda tədbir keçirilib.

Tədbirdə Binəqədi Rayon İcra Hakimiyyətinin, Bakı Şəhəri üzrə Təhsil İdarəsinin nümayəndələri, KİV-əməkdaşları və başqa qonaqlar iştirak ediblər. Öncə şəhidlərin ruhu bir dəqiqəlik sükutla yad olunub.

Sonra 2016-cı il aprelin 2-də keçirilən Azərbaycan Respublikası Prezidenti yanında Təhlükəsizlik Şurasının iclasında dövlət başçısı İlham Əliyevin çıxışından bir hissə nümayiş olunub. Məktəblilərin ifasında şəhidlərimizin və milli qəhrəmanlarımızın şücaətlərini əks etdirən ədəbi-bədii kompozisiya göstərilib, şeir söylənilib və mahnı oxunub.

Binəqədi Rayon İcra Hakimiyyətinin ictimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini Rauf Həsənov, Bakı Şəhəri üzrə Təhsil İdarəsinin müdir müavini Hüseyn Əsgərov və məktəbin direktoru Tünzalə Zeynalova aprel döyüşlərinin gənclərdə həmrəylik, vətənpərvərlik tərbiyəsinin və milli ruhun gücləndirilməsində böyük rolundan söhbət açıblar.

Tədbirdə iştirak edən şəhid Emin Bağırovun atası İmran Bağırov və Fəxrəddin Qurbanlının atası Seyfəddin Qurbanov da belə bir tədbirin təşkilinə görə məktəb rəhbərliyinə minnətdarlıqlarını bildiriblər.

Digər çıxışlar da olub. Qeyd olunub ki, aprel döyüşləri bizim şanlı qələbəmizdir. Torpaqlarımızın müdafiəsi uğrunda şəhid olan hərbiçilərimiz daim hörmət və ehtiramla yad ediləcək.

**Şakir CƏFƏROV**

# Elmi-praktik seminar keçirilib

Aprelin 6-da Azərbaycan Dövlət Pedaqoji Universitetində musiqi, təsviri incəsənət, fiziki tərbiyə və çağırışaqədər hazırlıq fakültəsinin təşəbbüsü və təşkilatçılığı ilə aprel döyüşlərinin ildönümü ilə bağlı "Azərbaycan Respublikası Silahlı Qüvvələri ölkənin suverenliyi və ərazi bütövlüyünün təminatçısı, hər bir vətəndaşın qürur yeridir" mövzusunda elmi-praktik seminar keçirilib. Universitetin ictimaiyyətlə əlaqələr şöbəsinin verdiyi məlumata görə, seminarda fakültənin müəllim və tələbələri, hərbçilər iştirak ediblər. Tədbirin əvvəlində aprel döyüşlərində həlak olmuş əsgər və zabitlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Seminarı giriş sözü ilə açan fakültənin dekanı, dosent Laçın Həsənova bildirib ki, aprel döyüşləri Azərbaycan Ordusunun böyük qələbəsidir. Bu qələbə ermənilərin "məğlubedilməzliyi" mifini dağıtdı və Dağlıq Qarabağda mövcud status-kvonun dəyişilməsinin vacibliyini bir daha ortaya qoydu.

Tədbirdə Müdafiə Nazirliyinin əməkdaşı, polkovnik Məhərrəm Cahangirov, aprel döyüşlərinin iştirakçıları, polkovnik-leytenant Vüqar Mirzəliyev, polkovnik-leytenant Eldəniz Sadıqov, ADPU-nun tərbiyə işləri üzrə prorektoru, professor Fikrət Rzayev, fakültənin baş müəllimi, kapitan Natiq Əliyev, III tədris ilinin tələbəsi Azər Əliyev çıxış ediblər.

Şəhid polkovnik-leytenant Sənan Axundovun həyat yoldaşı, fakültənin baş müəllimi Nəcibə Axundova çıxış edərək tədbirin keçirilməsinə görə ADPU-nun rəhbərliyinə təşəkkür edib, həyat yoldaşının döyüş yolundan danışıb, onunla bağlı xatirələrini bölüşüb, ailələrinə göstərilən dövlət qayğısından razılıq edib.

Tədbir fakültənin müəllim və tələbələrinin hazırladıqları konsert proqramı ilə davam edib. Vətənpərvərlik ruhunda səslənən və qələbəyə inamı ifadə edən musiqilər tədbir iştirakçılarında yüksək əhval-ruhiyyə yaradıb.



İstedad

# “Qaliblər sırasında olduğumu eşidəndə hədsiz sevindim”

## Akademik Zərifə Əliyeva adına liseyin şagirdi Rusiyada keçirilən müsabiqənin diplomu ilə təltif olunub




**Niyazi RƏHİMOV**

“Şagirdimiz Ləman Əhmədova Rusiya Yazıçılar İttifaqının “İlin şairi” milli ədəbi mükafatı üzrə keçirilən müsabiqədə “Debüt” nominasiyası üzrə qaliblərdən olaraq diplomla təltif olunub”. Bu sözləri Bakıdakı akademik Zərifə Əliyeva adına liseyin direktoru Mehriban Vəliyeva bilidirib. Direktor qeyd edib ki, Ləman müsabiqəyə ilk mərhələdə 3, sonrakı mərhələdə isə 4 şeir olmaqla 7 şeir təqdim etmişdir. Sevindirici haldır ki, Ləman Əhmədovanın müsabiqəyə təqdim etdiyi şeirlərdən 6-sı Rusiya Yazıçılar İttifaqının çap etdiyi “Debüt” kitabında yer alıb. Nəzərə çatdırım ki, müsabiqədə 6 nominasiyadan biri olan “Debüt” yeni yaradıcılığa başlayan şairlər üçün təşkil olunub. Azərbaycan şagirdinin belə bir müsabiqədə qaliblər sırasında olması, şeirlərinin böyük oxucu kütləsi olan kitabda yer alması bizim üçün çox qürurvericidir.

### “Şeirlərim Rusiya Yazıçılar İttifaqının çap etdirdiyi “Debüt” kitabında yer alıb”

Ləman Əhmədova iştirakçısı olduğu müsabiqə haqqında fikirlərini bizimlə bölüşüb: “İki il bundan öncə məndə şeir yazmağa həvəs yarandı. Əvvəllər şeirləri özüm üçün yazırdım və bu vərdiş məndə bir hobbi idi. Bir gün yazdığım şeirlərdən birini rus dili və ədəbiyyat müəlimim Alla Hacıyeva oxudu. O, mənə şeirlərimi bəyəndiyini bildirdi və bir sıra tövsiyələr verdi. Müəllimimizin dediklərindən sonra məndə şeirə, ədəbiyyata qarşı daha böyük həvəs yarandı və artıq bu işlə çox ciddi məşğul olmağa başladım. Bir gün Rusiyada belə bir müsabiqə keçirildiyini eşitdim və şeirlərimi həmin müsabiqəyə göndərdim. Müsabiqəyə qatılmaqda məqsədim sadəcə özümü sınamaq idi. Lakin müsabiqənin qalibləri sırasında olduğumu eşidəndə hədsiz dərəcədə sevindim. Şeirlərim Rusiya Yazıçılar İttifaqının çap etdirdiyi “Debüt” kitabında yer alıb. Bu məni daha çox qürurlandırır. Bu qürur hissini sözlə ifadə etmək çox çətindir. Gələcəkdə şeirlərimi toplayıb kitab çap etdirmək fikrindəyəm. Başqa ixtisas üzrə mütəxəssis olmağı planlaşdırsam da şeir yazmağı da unutmayacağam. Düşünürəm ki, hər bir şagird belə müsabiqə və yarışlarda iştirak edərək özünü sınamalıdır”.

# “Parisdə beynəlxalq musiqi yarışmasının ikincisi oldum”

## Nigar Hüseynli: “Ura! Ura! Azərbaycan! sözləri məni daha da ruhlandırdı”

**Sifai SƏFƏROVA**



Cümə günü saat 15 radələrində redaksiyanın telefonu zəng çaldı. Dəstəyi qaldırdım. Özünü təqdim edən şəxs Azərbaycan Milli Konservatoriyası tərkibində Respublika İncəsənət Gimnaziyasının direktoru Aytən Əhmədova idi. O, rəhbərlik etdiyi təhsil ocağının uğurlarından ürəkdolusu danışdı. Dedi ki, istedadlı sagirdlərinin sayı günü-gündən artmaqdadır. Nigar, Süleyman, Nihad, Banu və digərləri gimnaziyanın ünvanına xoş sözlər qazandıran yetirmələrdir. Sonda onlar haqqında məqalə hazırlanmasını arzuladığını bildirdi.

Direktorun öz yetirmələri haqqında ürəkdolusu danışması, şübhəsiz, diqqətimizdən yayına bilməzdi. Odur ki, ertəsi gün gimnaziyaya yollandım. Yolboyu dünya və Azərbaycan bəstəkarlarının sənət yolu yaddaşımda təzələndi. Axı, onları da ucaldıqları zirvələrə aparan yol uşaqlıq və yeniyetməlik dövründən başlamışdı. Onlar da görüşəcəyim istedadlı yeniyetmələr kimi ilk uğurlara məhz bu yaşda imza atmışdılar.

Bəli, həmin istedadlı şagirdlərdən biri olan Nigar Hüseynli ilə Aytən xanımın otağında görüşürük. Qarşımda səmimi, bir az da utancaq olan bir qız dayanıb. Deyir ki, uşaqlıqdan musiqiyə həvəsi olub. Uşaq ikən atası ona çoxlu oyuncaq musiqi aləti alırmış. İlk ifa etdiyi də pianinoda “Cücələrim” mahnısı olub. İndi də tez-tez o mahnını ifa edirəm, - deyir.

- Balaca qarmonum da vardı. Böyüdükcə qarmonum da böyüdü. Tütəkdə də ifa edə bilirəm. Qardaşım Rauf məni həmişə həvəslə dinləyir. O, ifa edəndə mən dinləyirəm. Qardaşım da mən oxuduğum gimnaziyada təhsil alır. Amma nədənsə onun bu sahəyə sonradan həvəsi azaldı. Dərs əlaçısıdır, bütün vaxtını dərs hazırlamağa sərf edir. Mənim isə günü-gündən musiqiyə həvəsim daha da artır. Düşünürəm ki, valideynlərim mənim musiqiyə olan həvəsimi düzgün qiymətləndiriblər. Artıq 5-ci sinif şagirdiyəm. Fortepiano sinfində müəllimim Nigar Nəcəfovadan dərs alıram. Bütün məşqlərə həvəslə qatılıram. Boş vaxtım çox az olur. Olanda da dünya şöhrətli bəstəkar L.Bethovenin əsərlərini dinləməyi xoşlayıram. Dərslərimi də yaxşı oxuyuram.

2016-cı ilin apreli mənim üçün çox uğurlu oldu. Parisdə Nikolay Rubinşteyn adına XIII beynəlxalq musiqi yarışmasına qatıldım. Orada dünya bəstəkarlarından F.Şopenin əsərlərindən parçaları və Azərbaycan bəstəkarı Niyazinin xoreoqrafik valsını məharətlə ifa etdim və Parisdə beynəlxalq musiqi yarışmasının ikincisi oldum. Tamaşaçı alqışları zalı bürüdü: “Ura! Ura! Azərbaycan!”. Bu sözlər məni daha da ruhlandırırdı. Sanki dünyanın ən xoşbəxt insanıydım. Gözlərim zalda oturan anamı axtarırdı. Anam da tamaşaçılara qoşulub “Nigarım, mənim!” - deyərək, əllərini havada yelləпід, sevincini gizlədə bilməyib ucadan qışqırırdı. Həmin gün yorğun olmağımıza baxmayaraq Fransanın Luvr muzeyində, Notr-Dam de Paris kilsəsində olduq. Ertəsi gün Yelisey sarayını, Eyfel qülləsini gəzdik. Bələdçilər Azərbaycandan olduğumuzu biləndə çox sevindilər, bizə hörmətlə yanaşdılar, orada çoxlu azərbaycanlıların yaşadıqlarını bildirdilər. “İbis” otelində qalırdıq. Məktəbimizdən iki nəfər - Banu Tağıyeva və Nuranə Əliyeva da bizimlə qalırdı. Onlar da fortepianoda dünya bəstəkarlarının bənzərsiz mahnılarını ifa edib II yerin qalibi olmuşdular. Vətənə qayıdanda sevincimin hədd-hüdudu yox idi. Tələsirdim ki, müəllimlərimlə, rəfiqələrimlə, bir də qardaşım Raufla təəssüratlarımı bölüşüm.



Həmin ilin dekabrında isə Nyu-Yorkda keçiriləcək beynəlxalq festivala gedəcəyimi biləndə çox sevindim. Nyu-Yorka getməzdən əvvəl müsabiqəyə iki əsər - A.Debusinin “Gəzinti”, F.Şopenin “Palanes” əsərlərindən ibarət səs yazılarımı göndərmişdim. Təxminən, bir aya müsbət cavab gəldi. Münsiflər heyəti səs yazımı bəyənmişdi.

Bilirsiniz, müsabiqədə anamla mən nə qədər həyəcan keçirirdik. Nəhayət, növbə mənə çatdı və münsiflər heyətinin qarşısında dünya bəstəkarlarının əsərlərini ifa edib qurtarandan sonra alqışlarla qarşılandım. Münsiflər heyəti mənə diplom təqdim edəndə yenə baxışlarım anamın həyəcan dolu baxışları ilə toqquşdu. İlahi, o baxışlar necə də mehriban və həyəcanlı idi! Bu baxışlar mənə stimul verdi və daha da ürəkləndim. Müəllimim Nigar xanım daha çox sevinirdi. Çünki əməyi hədər getməmişdi. Məktəbimizin adını ucaltmışdım.

7 gün şəhərdə qaldıq. Dünya Azərbaycanlılarının Həmrəylik Günü yaxınlaşdığı üçün şəhər al-əlvan şarlarla, yolkalarla bəzədilmişdi. Hər yan bayram libası geyinmişdi. Orada olarkən günlərimiz çox maraqlı keçirdi, Nyu-Yorkun Manhetten qəsəbəsində olduq. Qəsəbə haqqında məlumatları bizə bələdçilər verirdilər. “Azad qadın” heykəli ilə tanış olduq, gəmi ilə gəzintiyə çıxdıq. Gəzinti zamanı anama daha səylə çalışacağıma söz verdim. Çünki qarşıda növbəti beynəlxalq festivallar var idi. Qayıdandan sonra təəssüratlarımı dostlarımla bölüşdüm. Hamı sevinirdi. Onlar da mənim kimi xarici ölkədə olmaq, Azərbaycanı təmsil etmək arzusunda olduqlarını söyləyirdilər. Dostlarımı inandırdım ki, çox çalışsalar, arzularına çatacaqlar.

...Məktəbdə də məni gül-çiçəklə qarşıladılar. Direktorumuz Aytən Əhmədova, müəllimlərim sevinirdi, çünki müəllimlərimin əməyinin bəhrəsi göz önündə idi. Yeri gəlmişkən deyim ki, mən eyni zamanda məktəbimizin ictimai işlərində fəal iştirak edirəm. Çoxlu sayda fəxri fərmanlarım və diplomlarım var. Evimizdə uğurlarımla bağlı kolleksiya toplamışam. Ümummilli lider Heydər Əliyevin anadan olmasının 93-cü ildönümünə həsr olunmuş konsertdə fəal iştirak etdiyimə görə diplomla mükafatlandırıldım. Çoxlu bədii ədəbiyyat oxuyuram. Hazırda M.Tvenin “Şahzadə və dilənçi” əsərini qurtarmaq üzrəyəm. Gimnaziyada keçirilən “Nümunəvi xətt” yarışının qalibi olmuşam. Məktəbin xor kollektivinin üzvüyəm. Bu günlərdə Muğam Mərkəzində məktəbimiz tərəfindən təşkil olunan konsertdə xor kollektivində iştirak etmişəim.

*Nigar Hüseynli təəssüratlarını bizimlə bölüşməkdən doymurdu. Mən onu dinlədikcə, bir yeniyetmə istedadın dilindən qopan, ürəyi riqqətə gətirən uğurları eşitdikcə qürur hissi keçirirdim. Nə yaxşı ki, sənətə, musiqiyə, yaradıcılığa bu qədər hədsiz həvəs göstərən övladlarımız var, - deyə düşünürdüm.*

Elm xəbərləri

## Yeni nəsil 3D-printer təqdim olunacaq

**Yusif ƏLİYEV**




Rusiyanın “Rosatom” dövlət korporasiyasının tərkibinə daxil olan “Elm və innovasiyalar” Səhmdar Cəmiyyətinin baş direktorunun müavini Aleksey Dub“NDExpo-2017” forumunda yeni nəsil 3D-printer təqdim edəcəklərini açıqlayıb. O, bildirib ki, additiv texnologiyalar çox sürətlə inkişaf edir. Buna görə də mürəkkəb üçölçülü obyektləri asan, tez, keyfiyyətli, eyni zamanda ucuz istehsal etməyə imkan verən tətbiqin hazırlanmasına böyük ehtiyac duyulur.

**www.hi-news.ru** saytının məlumatına görə, burada, ilk növbədə, metal tozlardan konstruksiyalar çap etmək imkanına malik printerlər nəzərdə tutulur, lakin bu printerlərin digər sahələrdə də (məsələn tibdə) tətbiqi imkanları istisna olunmur.

“Rosatom” artıq yeni nəsil 3D-printerinin sınaq nümunəsini təqdim edib. 2017-ci ilin sonuna kimi sınaqların yekunlaşdırılması və ilk seriya nümunələrinin təqdim olunması planlaşdırılır.

Korporasiyanın nümayəndələri qeyd ediblər ki, bütün proqram-aparat kompleksi xarici analoqlardan təxminən 20 faiz daha ucuz başa gələcək. Həmçinin çap üçün metal tozların Rusiyada istehsal olunması çapa qənaət etməyə imkan verəcək.

## İnsan beyninin kompüterə qoşulması üçün interfeys işlənilir



“Tesla” və “SpaceX” şirkətlərinin rəhbəri İlon Mask dünyanı dəyişdirəcək növbəti layihəsini elan edib. Onun təsis etdiyi “Neuralink” adlı şirkətin məqsədi kompüterlə insan beynini əlaqələndirmək üçün neyron interfeysinin yaradılması sahəsində həllər hazırlamaqdır. Mühəndis simsiz neyrointerfeysi “neyron şəbəkə” (neural lace) adlandırır.

**www.belta.by** saytının məlumatına görə, şirkət beyinə implantasiya edilən qurğuların yaradılması üzərində işləyəcək. Bu qurğular insanlara kompüterlərə qoşularaq öz fikirlərini rəqəmsallaşdırmağa kömək edəcək.

Qeyd edək ki, “Neuralink” ilə yanaşı, “Kernel” şirkəti də insanlarda yaddaş və öyrənmə qabiliyyətinin yaxşılaşdırılması üçün implantasiya edilən qurğu hazırlayır.

## Yaponiyalı dizayner “ağıllı” divar təqvimi hazırlayıb



Yaponiyalı dizayner Koşo Tsuboi smartfonla sinxronlaşdırılan və planlaşdırılmış işlər haqqında informasiyanı əks etdirən “ağıllı” divar təqvimi hazırlayıb.

**www.hitech.newsru.com** saytının məlumatına görə, elektron mürəkkəb (e-ink) texnologiyası əsasında işləyən təqvim “Google” şirkətinin Yaponiyada fəaliyyət göstərən və dizaynerlərə yeni Android-qurğuları təqdim etmək imkanı təklif edən “Android Experiments” proqramı çərçivəsində yaradılıb.

“Google Calendar” proqramı ilə sinxronlaşdırılan, ay və ya gün üçün cədvəli əks etdirən “Magic Calendar” zahirən adi kağız təqvimi xatırladır. Qurğunun satışa çıxarılma tarixi və digər təfərrüatlar hələ ki, məlum deyil.

Qeyd edək ki, bu, son zamanlar təqdim edilmiş ilk belə qadcet deyil. Belə ki, ötən ilin sentyabrında Amerikanın “Glance Tech” startapı “Indiegogo” kraudfandinq platformasında “ağıllı” divar saatı “Glance Clock”un istehsalı üçün vəsait toplayıb. Bu saatlar Bluetooth vasitəsilə smartfon və ya fitnes-trekerlə sinxronlaşdırılır, həmçinin görüşlər, hava proqnozu və s. haqqında bildirişləri əks etdirir.

## Yeni qurğu tonometri əvəz edəcək




İsveçrənin “Leman Micro Devices” şirkətinin üzərində işlədiyi qurğu qan təzyiqini ölçən cihazı - tonometri əvəz edəcək. Hazırda sınaq mərhələsində olan tənzimləyicini istənilən smartfona inteqrasiya etmək mümkün olacaq.

Şirkət nümayəndələri əmindirlər ki, onlar qan təzyiqinin məhz klassik tibdəki analizi metodlarından istifadə edirlər ki, bu da hesablama nəticələrinin dəqiqliyinə səbəb olur.

**www.medgadgets.ru** saytının məlumatına görə, qurğu insanın sağlamlıq vəziyyətini digər parametrlər, təzyiq, nəbz, qanda oksigenin səviyyəsi, tənəffüs tezliyi və bədənin temperaturu üzrə də qiymətləndirə biləcək.

**www.ikt.az saytının materialları əsasında**

# "Müəllim hər zaman cəmiyyətin diqqət mərkəzində dayandığını unutmamalıdır"

## "Yetirmələrimi görəndə qürur hissi keçirirəm"

Xalidə İsmayılova 1955-ci ildə Ağstafa rayon Köçəsgər kəndində anadan olub. Orta məktəbi bitirdikdən sonra Azərbaycan Dövlət Pedaqoji İnstitutunda təhsil alıb. 1976-cı ildən Köçəsgər kənd 2 nömrəli tam orta məktəbində Azərbaycan dili və ədəbiyyat müəllimi işləyir.

*- Sizdə bu peşəyə marağı kim yaradıb?*

- Mən bu sənəti sevirdim, uşaqlıqdan marağım vardı və ona görə də müəllim oldum.

Bu sual həm də məni illər öncəyə qaytardı. Mən uşaq olarkən qonşuluğumuzda kirayədə yaşayan bir müəllim vardı. Mən onun uşaqları ilə dərslərimi bir yerdə hazırlayırdım və bir yerdə də oynayırdıq. İmran müəllim hər gün çantasını əlinə alıb məktəbə gedirdi. O, şagirdlərə dərs demək üçün başqa rayondan gəlmişdi. Məndə elə həmin vaxtdan müəllimliyə maraq yarandı.

*- Yaxşı müəllim olmaq üçün nə etmək lazımdır?*

- Yaxşı müəllim olmaq üçün illəri vermək lazımdır, müəllim nə qədər savadlı olsa da, hər zaman mütaliə etməlidir. Müəllim "müəllim" olduğunu, hər zaman cəmiyyətin diqqət mərkəzində dayandığını unutmamalıdır. Şagirdləri bir-birindən seçməməli, onları anlamalı və onlarla anlayacağı dildə danışmalıdır. Şagirdlərdə elə maraq yaratmalıdır ki, şagird fənni sevsin.

*- 41 illik iş təcrübəniz var. Bu illər ərzində nə qazandınız və nəyi itirdiniz?*

- Əminliklə deyə bilərəm ki, bu illərdə heç nə itirmədim. Amma qazandığım çox şey var. Böyük bir kəndin, hətta rayonun sevgisi və yüzlərə məzun qazandım...

Bu gün müəllim olduğum üçün fəxr edirəm. Mən müəllimi bağbana bənzədirəm. Onun meyvələri müxtəlif bağlara səpələnir. Onun hər yerdə meyvəsi var. Mən hara getsəm, hansı qapını döysəm, açılacaq qapım var. Bu illərdə mühəndislər, həkimlər, hüquqşünaslar, hərbçilər, müəllimlər və b. ixtisasa sahib məzunlar yetişdirmişəm. İndi mən yetirmələrimi görəndə fəxr edirəm, qürur hissi keçirirəm.



*- Xalidə xanım, bu gün müəllimlik ixtisasında oxuyan, amma gəlib kəndlərdə, qəsəbələrdə işləmək istəməyən müəllimlərə nə sözünüz var?*

- Heç nədən qorxmağa ehtiyac yoxdur. Bu gün kəndlər şəhərdən heç də fərqlənmir. Su, qaz, işıq, telefon, internet, ən əsası, təmiz hava, saf ürəkli insanlar və onların yolunu gözləyən şagirdlər var.

**Nəcibə VƏLİYEVA,**
*Ağstafa Rayon Təhsil Şöbəsinin ictimaiyyətlə əlaqələr üzrə məsul şəxsi*

# "Aprel döyüşləri dönüş nöqtəsi oldu"

Azərbaycan Dövlət Aqrar Universitetinin ictimai elmlər və multikulturalizm kafedrasının əməkdaşları təhsil müəssisəsinin aqrar iqtisadiyyat fakültəsində "Aprel döyüşləri dönüş nöqtəsi oldu" adlı "dəyirmi masa" keçirib.

ADAU-nun mətbuat xidmətindən redaksiyamıza daxil olan məlumata görə, tədbiri giriş sözü ilə kafedranın müdiri, professor Azad Bayramov açıb, aprel döyüşlərində şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib.



Kafedranın müəllimlərindən Elgün Aslanov, Əbdürrəhman Kazımov və tələbələr aprel döyüşlərinin əhəmiyyətindən danışıblar. Bildirilib ki, ordumuz, ümumən xalqımız böyük ruh yüksəkliyi, vətənpərvərlik nümayiş etdirib.

"Dəyirmi masa" iştirakçıları dövlət başçısının Azərbaycan Ordusunun aprel qələbələrinin ildönümü ilə əlaqədar bir qrup hərbçi ilə görüşünü və burada səsləndirilən mesajları da yüksək qiymətləndirib.

# Şagird və müəllimlər "Məktəb bağları" layihəsinə qoşulub

Martın 17-dən başlayaraq ölkəmizdə Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla xanım Əliyevanın təşəbbüsü ilə "Məktəb bağları" layihəsinin icrasına başlanılıb.

Masallı Rayon Təhsil Şöbəsindən aldığımız məlumata görə, aprelin 1-də rayon məktəbliləri və müəllimləri də "Məktəb bağları" layihəsinə qoşulublar. Layihə çərçivəsində Masallı şəhər 1 nömrəli tam orta məktəbdə keçirilən aksiyada 170 ədəd alma, armud, gilas ağacları əkilib.



Aksiyanın ilk günündə Masallı Rayon İcra Hakimiyyəti başçısının müavini Aybəniz Qafarova, təhsil şöbəsinin müdiri Tariyel Əkbərov və başqaları da iştirak ediblər.

Layihə çərçivəsində, həmçinin şəhər 3 nömrəli, Bədələn, Dəlləkoba kənd tam orta və Mahmudavar kənd ümumi orta məktəblərinin həyətində 500 ədəd meyvə ağaclarının əkilməsi nəzərdə tutulur.

# "Şəhidlər ölməz, Vətən bölünməz!"

Zaqatala rayonunun Yolayrıc kənd tam orta məktəbində aprel döyüşlərinə həsr olunmuş "Şəhidlər ölməz, Vətən bölünməz!" adlı tədbir keçirilib.

Tədbir Dövlət himninin səsləndirilməsi ilə başlayıb. Sonra şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Məktəb rəhbərliyi, müəllimlər və şagirdlərin iştirak etdiyi tədbirdə tarix müəllimi Ceyhun Məmmədov iştirakçılara ətraflı məlumat verərək bildirib ki, aprel döyüşləri Azərbaycanın şanlı qələbəsidir.



Zaqatala şəhidləri Sərxan Bayramov və Rəvan Nurayevin əziz xatirələri yad edilib və milli qəhrəmanlarımız haqqında şagirdlərə məlumat verilib.

Sonda ədəbi-bədii kompozisiya nümayiş etdirilib.

**Vüsalə BƏDƏLOVA,**
*Zaqatala Rayon Təhsil Şöbəsinin ictimaiyyətlə əlaqələr üzrə məsul şəxsi*

# Dayaq-məntəqələrinin növbəti iclası

Aprelin 1-də Qax Rayon Təhsil Şöbəsində fəaliyyət göstərən 7 dayaq məntəqəsinin növbəti iclası keçirilib. İclaslarda 63 nümunəvi "açıq dərs" təşkil olunub, 100-dən çox məruzə dinlənilib və bölmələrdə müzakirəsi aparılıb. Eyni zamanda məktəb və bölmə rəhbərlərinin iştirakı ilə dərslər geniş təhlil olunub.

Həmçinin təhsil şöbəsinin nəzdində koordinator qrupu yaradılıb və üzvləri dayaq məntəqələrinə təhkim edilib. Pedaqoji işçilərin təkmilləşməsi prosesinin məzmunlu təşkili üçün dayaq məntəqələrinin düzgün seçilməsinə, tədris bazası və təhsil göstəricilərinin də yüksək olmasına diqqət yetirilib. Dayaq məntəqələri təşkil olunduğu məktəblərin əksəriyyətinin müasir binası, zəngin fənn kabinetləri, laboratoriyaları, tədris emalatxanaları, idman qurğuları, kompüter texnologiyası və zəngin kitabxanası vardır.



**Günay MAHMUDOVA,**
*Qax Rayon Təhsil Şöbəsinin ictimaiyyətlə əlaqələr üzrə məsul şəxsi*

## Şamaxıda daha bir məktəb binası inşa edilir

Təhsil Nazirliyinin sifarişi ilə Şamaxı rayonunun Meysəri kəndində tam orta məktəb üçün yeni bina inşa edilir.

Şamaxı Rayon Təhsil Şöbəsindən bildirilib ki, 132 şagird yerlik bina ikimərtəbəlidir. Burada tədrisin müasir standartlar səviyyəsində təşkili üçün hər cür şərait yaradılacaq. Layihəyə əsasən, təhsil müəssisəsində 20 sinif otağı, kimya və fizika laboratoriyaları, kitabxana, idman və akt zalları, əmək təlimi otağı, yeməkxana və digər kabinetlər yaradılacaq. Kənd məktəbi üçün yeni binanın qarşıdakı dərs ilinədək istifadəyə verilməsi nəzərdə tutulub.

Qeyd edək ki, birinci Dövlət Proqramından indiyə qədər Şamaxıda ümumtəhsil məktəbləri üçün 20 yeni bina inşa olunub. Bu binalardan dördü Heydər Əliyev Fondu tərəfindən tikilib.

## Maarifləndirici seminar

Aprelin 3-də Göygöl rayon 1 nömrəli tam orta məktəbdə ingilis dili müəllimləri üçün "School is fun" adlı maarifləndirici seminar keçirilib. 20-dən çox müəllimin iştirak etdiyi seminarda qrup işlərinin təşkili, motivasiya, şagird nailiyyətlərinin qiymətləndirilməsi və öyrədici mühitin yaradılması mövzuları müzakirə olunub.

Qarşılıqlı fikir mübadiləsi əsasında keçən seminarda dərs müddətində istifadə ediləcək oyunlar, ingilis dili fənninin daha yaxşı öyrədilməsi yolları, qeyri-formal təhsilin metodları, ehtiyaca görə öyrətmə mövzuları barədə təlimçi tərəfindən izahatlar verilib və fərqli səpgidə oyunlar təşkil olunub.

Seminarda müxtəlif təlim və tədris üsulları müzakirə olunub, müəllimləri maraqlandıran suallar təlimçi tərəfindən cavablandırılıb. Eyni zamanda mövzuya aid praktik tapşırıqların həlli aparılıb.

**Raminə MƏMMƏDOVA,**
*Göygöl Rayon Təhsil Şöbəsinin ictimaiyyətlə əlaqələr üzrə məsul şəxsi*

## "Ordum varsa, yurdum var"

Lerik rayonunun Siyov kənd tam orta məktəbində şanlı tariximizdə özünə əbədi səhifə açan aprel döyüşlərinə həsr olunmuş " Ordum varsa, yurdum var" mövzusunda keçirilən tədbir maraqlı və yaddaqalan oldu. Şagird və müəllimlərlə bərabər kənd sakinləri də məktəbdə idi. Hərbi vətənpərvərlik mahnı və musiqisinin sədaları dalğa-dalğa ətrafa yayılırdı. Məktəbin direktor müavini Mahir Bayramov bildirdi ki, aprel döyüşlərində Azərbaycan əsgərinin möhtəşəm qələbəsi bir daha müstəqil dövlətimizin, ordumuzun gücünü göstərdi.

Tarix müəllimi Eldəniz Dadaşov "2016-cı ilin aprel döyüşləri şanlı tarixi qələbəmizdir" mövzusunda çıxış etdi. O, Azərbaycan tarixinin qəhrəmanlıq səhifələrini dəqiq faktlarla açıqladı, müasir, mütəşəkkil ordunun yaradılmasını ulu öndər Heydər Əliyevin Azərbaycan xalqı qarşısında ən böyük xidməti olduğunu dedi. Siyov kəndinin ağsaqqal ziyalısı Həsən Bayramov, şair-publisist Rövşən İmanov, məktəbin direktoru Zöhrab Mürşüdov, müəllimlərdən Qurbanəli Şiriyev, Xəyal Qəmbərov milli ordu quruculuğu haqqında danışdılar.

Məktəblilərin hazırladığı " Bilsin Ana torpaq, eşitsin Vətən, müsəlləh əsgərəm mən də bu gündən" adlı səhnə tədbirə özgə rəng qatdı. Şagirdlərdən Ruhfanə Qafarovanın, Kamal Zeynalovun, Səfa Həsənovun hərbi vətənpərvərlik mövzusunda söylədikləri şeirlər tədbir iştirakçılarına xoş təsir bağışladı.

**Zəfər ORUCOĞLU,**
*Lerik rayonu, Azərbaycan Jurnalistlər Birliyinin üzvü*

Səhifəni hazırladı: *Şakir CƏFƏROV*

# "Arzum Olimpiya çempionu olmaqdır"

## *Əli Əliyev, Dünya kubokunun qalibi:* "İranlı idmançını 25 saniyəyə nokaut etdim"



Əli Fəxri oğlu Əliyev 2000-ci il iyulun 3-də Bakıda idmançı ailəsində anadan olub. 14 yaşından idmanın kinq-boksinq və muay tay döyüş növləri ilə məşğul olmaq üçün "İnam" peşəkar idman klubunda məşqlərə başlayıb. Dəfələrlə Azərbaycan, Bakı çempionatlarının və beynəlxalq turnirlərin qalibi olub. Bakıdakı 283 nömrəli tam orta məktəbin XI sinif şagirdidir. Yeniyetmə idmançımız Əli Əliyev ilə söhbətimizə uşaqlıq illərindən başladıq.

- Uşaqlıqdan məşhur Amerika aktyoru Jan Klod Van Dammın və başqa döyüş ustalarının kinolarına baxmışam, mən də onlar kimi olmaq istəmişəm. Ailəmizdə 6 nəfərik. Atam, anam, iki bacım, mən və qardaşım. İdmana maraq məndə uşaqlıq vaxtlarından yaranıb. Atam Fəxri Əliyev tanınmış idmançıdır. Balaca olanda, təxminən, 8-10 yaşlarımdan atam həmişə mənə fiziki gücümün çox olması üçün jim, turnikdə dartınma hərəkətləri elətdirirdi. Mən 11-12 yaşlarımda artıq 30-40 dəfə jim edə bilirdim. Həmişə ən böyük arzularımdan biri yaşıdlarım arasında fiziki baxımdan güclü olmaq olub. Şübhəsiz, atamın idmançı olmağı məni də idman aləminə vurğun edib. İdman müəllimim və məşqçim atam olub. Atam olduqca tələbkardır. İstənilən bir fənd üzərində bəzən saatlarla məşq edirik. Çətinliyi sevən insanam. Bu idman növü də ən çətin idman növlərindəndir. İdmançıdan çox intizam, ciddiyyət tələb edir. Mən də çətinin üstünə qaçıram həmişə. Elə insanlar var ki, çətinliyi sevmir, rahatlığa üstünlük verirlər. Mənimsə xarakterimdə bu yoxdur, elə bu səbəbdən də ən ağır idman növünü seçmişəm. Məşqçilərin sözünə qulaq asmaq lazımdır. İdmançı gərək tələsməsin. Çətin idman növüdür. Məşq elə, öz gücünə inan və uğur qazan. Bu, bir az da xarakter məsələsidir.

### "İlk uğurum 2015-ci ildə olub"

Həmin yarışı indiki kimi xatırlayıram. Təcrübəli idmançılar arasında kinq-boksinq üzrə 60 kq çəki dərəcəsində respublika çempionatı keçirilirdi. Çox həyəcanlı idim. İlk dəfə güclü rəqiblərlə döyüşürdüm. Onların biri Gəncə, digəri isə Ağcabədi idmançısı idi. Birinci döyüşə rəqibimin başlamasını gözlədim. Sakit, səlist döyüşərək idman növünün qaydalarına uyğun Gəncə idmançısını 3-1 hesabı ilə, Ağcabədi təmsilçisini isə daha çətin 3-2 hesabı ilə məğlub etdim. Bundan başqa, 2016-cı ildə 28 may - Respublika Gününə həsr olunmuş Bakı Start İdman Kompleksində İran və Azərbaycan idmançıları arasında keçirilən beynəlxalq turnirdə iştirak etdim. Bu yarışda məndən olduqca təcrübəli və yaşda böyük olan İran idmançısı ilə qarşılaşdım. Burada ilk dəfə idi ki, kəmər uğrunda professional yarışa qatıldım. Bir şeyi də əlavə etmək istərdim ki, bu yarışda İran İslam Respublikasından ən güclü peşəkar idmançılar iştirak edirdi. Həmin döyüşdə rəqibimi 25-30 saniyə ərzində nokaut etdim.

Ölkəmizdən kənarda - İran, Gürcüstan və Türkiyədə keçirilən beynəlxalq turnirlərdə iştirak etmişəm. 2016-cı ilin yanvar ayında İran İslam Respublikasının paytaxtı Tehran şəhərində Asiya ölkələri arasında keçirilən beynəlxalq turnirdə bütün yarışları qələbə ilə başa vuraraq I yerin sahibi olmuşam. 2016-cı il avqustun 15-dən 25-dək Gürcüstanın Batumi şəhərində keçirilən Alpaqut döyüş növü üzrə dünya kuboku uğrunda yarışda bu döyüş növünün 2 versiyası üzrə rinqə çıxdım və dünya kubokunun qalibi oldum. Bundan başqa, həmin ilin dekabr ayında qardaş Türkiyənin Antalya şəhərində muay tay döyüş növünün ifma versiyası üzrə keçirilən Avropa kuboku uğrunda döyüşdə III yerə çıxdım. Bu yarışda birinci Polşa idmançısıyla qarşılaşdım. Rəqibim dəfələrlə dünya və Avropa çempionu olan güclü, peşəkar idmançı idi. Mən çətinliklə də olsa rəqibimi məğlub etdim. Ancaq ikinci dəfə Türkiyə döyüşçüsü ilə qarşılaşdım və türk qardaşıma məğlub olub, III yerlə kifayətləndim. Hazırda muay tayın ifma versiyası üzrə Tailandda keçirilən dünya çempionatının hazırlıqları gedir. Azərbaycan Muay Tay və Tayboks Federasiyasının tərkibində məşqlərimi davam etdirirəm. Bu ilin avqust ayında dünya çempionatında iştirak edəcəyəm. İnanıram ki, qələbə qazanacağam.

Yaşıdlarıma məsləhətim budur ki, pis vərdişlərdən uzaq olsunlar. Vaxtlarını səmərəli və mənalı keçirsinlər, ən başlıcası vətənpərvər olaraq xalqımıza, dövlətimizə layiq şəxsiyyət kimi formalaşsınlar.

*- Söhbətimizin əvvəlində qardaşının da idman sahəsinə böyük marağı olduğunu öyrəndik. Maraqlıdır, o da Əli kimi idmançı olmaq istəyirmi?*

- Bəli, qardaşım Xəyal da idmanı çox sevir və tanınmış idman ustası olmaq istəyir. O da bu məktəbdə V sinifdə oxuyur. Xəyal mənimlə müqayisədə 7-8 yaşlarından idmanın muay tay döyüş növü ilə məşğul olur. Artıq uğurları da kifayət qədərdir.

*- İdmanla məşğul olmaq üçün insanda hansı keyfiyyətlər olmalıdır?*

- Səbr, ciddilik, məsuliyyət. Bu üçü olduqdan sonra güc də gələcək, texnikan da yaxşı olacaq. İradə də olmalıdır. Mən özüm də müşahidə edirəm. Bezənlər, yarımçıq tərk edənlər çox olur. Yorulurlar, məşqdən sonra bədənləri ağrıyır. Biz də məşq edirik, yoruluruq, ağrıyırıq, robot deyilik ki. Əsas odur səbrli olasan, özünə inamın ola.

*- Dostluq etdiyin idmançılar varmı?*

- Belə bir deyim var, "idmançını idmançı yaxşı başa düşər". Dostlarımın içində idmançılar çoxdur. Onlar arasında atletlər, boksçular, güləşçilər, karateçilər var. Birinin adını çəksəm digərləri inciyəcək. Ona görə də ad çəkmək istəmirəm.

*- Bəs, Əli məktəbdə necədir?*

- Məktəbdə müəllimlərimlə və şagird yoldaşlarımla münasibətim çox gözəldir. Mən onları çox istəyirəm. Müəllimlər "sən bizim fəxrimizsən" deyir. Baxmayaraq ki, idmanla məşğul oluram, dərslərimi də yaxşı oxuyuram. 1-ci ixtisas qrupu üzrə hazırlaşıram. Arzum Azərbaycan Dövlət Neft və Sənaye Universitetinə qəbul olmaqdır.




*- Daha aşağı çəki dərəcələrində idmançılar üçün çəkilərini qorumaq çətin olur. Sən isə 60 kq çəki dərəcəsində mübarizə aparırsan. Qidalanma rejimin maraqlıdır...*

- Çəkim 60 kiloqramdır. İstəsəm 1 aya bu çəkini artıra və ya azalda bilərəm. Hər gün tezdən məktəbə gəlirəm, günorta hazırlıqlara gedirəm, axşam isə məşq edirəm. Bəzən elə olur ki, 5 dəfə yemək yeməliyəm ki, məşqdə başım gicəllənməsin. Bu gün normadan bir az çox yesəm, sabah 2 məşqdən sonra yenə əvvəlki normaya düşürəm. Ən çox sevdiyim yemək də "ləvəngi"dir.

*Bakıdakı 283 nömrəli tam orta məktəbin direktoru Tünzalə Zeynalova:* Əli Əliyev XI "a" sinif şagirdidir. İstər davranışına, istərsə də məktəbdaxili nizam-intizam qaydalarına əməl etməyinə görə olduqca nümunəvi şagirddir. Mən bu məktəbə təzə direktor təyin olunmuşdum. Təxminən bir ay olardı. Əli həmin ərəfədə çempion olmuşdu. Onunla görüşdüm, təbrik etdim. 5-10 dəqiqə söhbət etdik, o anda Əlinin danışığı, davranışı mənim diqqətimi çəkdi. İdmançı, qolu qüvvətli olmasına baxmayaraq, Əli nizam-intizamda başqalarına nümunədir. Adətən, idmançı uşaqlar özünü göstərməyə meyilli olurlar. Ancaq Əlidə belə şeylər yoxdur. O, idmanla bağlı məktəbin tədbirlərində də iştirak edir, həm də dərs əlaçısıdır. Fizika və riyaziyyat fənlərini çox gözəl bilir. Əli müəllimlərinin və məktəbin sevimlisidir.

**Müsahibəni qələmə aldı:**
*Rəşad ZİYADOV*

# IV İslam Həmrəyliyi Oyunlarının təbliğinə həsr olunmuş kütləvi idman tədbirləri keçirilib




Bakıda keçiriləcək IV İslam Həmrəyliyi Oyunlarının proqramına daxil edilmiş idman növlərinin məktəblilər arasında təbliğinə həsr olunmuş kütləvi idman tədbirləri davam edir.

İdman tədbirləri çərçivəsində Qazax rayon Olimpiya İdman Kompleksində boks, "Təhsil" Respublika İdman Mərkəzinin Gəncə filialının meydançasında atletika, Şəmkir rayon Olimpiya İdman Kompleksində sərbəst güləş, Sumqayıt Olimpiya İdman Kompleksində cüdo, "Şüa" İdman klubunda stolüstü tennis, Masallı Olimpiya İdman Kompleksində taekvando idman növləri üzrə zona yarışları keçirilib.

Ölkənin 30-a yaxın şəhər və rayonundan 1000 nəfərədək məktəblinin qatıldığı yarışlarda boks idman növü üzrə I yerə Gəncə şəhərinin, II yerə Şəmkir rayonunun, III yerə Qazax rayonunun, atletika idman növü üzrə I yerə Göygöl rayonunun, II yerə Mingəçevir şəhərinin, III yerə Ağdam rayonunun, sərbəst güləş idman növü üzrə I yerə Şəmkir rayonunun, II yerə Gəncə şəhərinin, III yerə Ağdam rayonunun, cüdo idman növü üzrə I yerə Sumqayıt şəhərinin, II yerə Siyəzən rayonunun, III yerə Xızı rayonunun, stolüstü tennis idman növü üzrə I yerə Nərimanov rayonunun, II yerə Nizami rayonunun, III yerə Qaradağ rayonunun, taekvando idman növü üzrə I yerə Masallı rayonunun, II yerə Lənkəran rayonunun, III yerə Biləsuvar rayonunun komandaları layiq görülüb.

Qaliblər diplom, medal və hədiyyələrlə təltif edilib.

Yarışların açılış mərasimlərində təhsil şöbələrinin, yerli icra orqanlarının, idman ictimaiyyətinin nümayəndələri iştirak ediblər. Tədbirlərin bədii hissələrində idmançıların nümunəvi çıxışları olub, yaradıcılıq müəssisələrinin dərnək üzvləri konsert proqramları ilə çıxış ediblər.

Qeyd edək ki, kütləvi idman tədbirlərinin keçirilməsində məqsəd IV İslam Həmrəyliyi Oyunlarının proqramına daxil olan idman növlərini məktəblilər arasında təbliğ etmək, onların idmana olan marağını artırmaq, məktəbliləri sağlam həyat tərzinə cəlb etməkdən ibarətdir.

Yarışlar ölkənin 76 şəhər və rayonu əhatə olunmaqla 6 zona və 11 idman növü - sərbəst güləş, yunan-Roma güləşi, cüdo, taekvando, karate, boks, atletika, stolüstü tennis, basketbol, akrobatika gimnastikası, bədii gimnastika üzrə keçirilir. Kütləvi idman tədbirlərinə 6 mindən çox şagirdin qatılması gözlənilir.

Yarışlar aprelin 26-da başa çatacaqdır.

# Futbol üzrə VII Respublika çempionatının 1/8 final mərhələsi keçirilib

## 8 komanda növbəti mərhələyə vəsiqə qazanıb

**Rəşad ZİYADOV**

Aprelin 1 və 2 tarixlərində ali və orta ixtisas təhsili müəssisələrinin tələbələri arasında futbol üzrə VII Respublika çempionatının PLAY-OFF(1/8 final) mərhələsi keçirilib. Bu mərhələdə 16 komanda tərkibində 200-ə yaxın tələbə futbolçu yarışlarda iştirak edib. Oyunların 6-sı Bakı şəhəri "Binə Arena"nın, Milli Aviasiya Akademiyasının və "Neftçi" Təlim-Məşq Mərkəzinin, 2-i isə Şirvan Şəhər Olimpiya Kompleksinin stadionlarında keçirilib. Nəticələrə əsasən, 8 komanda (Azərbaycan Dövlət Neft və Sənaye Universiteti, Azərbaycan Texniki Universiteti, Azərbaycan Memarlıq və İnşaat Universiteti, Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası, Milli Aviasiya Akademiyası, Bakı Dövlət Universiteti, Gəncə Dövlət Universiteti və Şirvan Dövlət İqtisadiyyat və Humanitar Kollecinin komandaları) 1/4 final mərhələsinə vəsiqə qazanıb. Bu mərhələnin yarışları aprelin 8-də Bakıda "Neftçi" Təlim-Məşq Mərkəzinin və "Binə Arena"nın stadionlarında keçiriləcək.

Qeyd edək ki, çempionat Azərbaycan Tələbə Futbol Federasiyası İctimai Birliyinin (ATFF) 2016-2020-ci illərdə fəaliyyət planına əsasən, ATFF və Azərbaycan Futbol Federasiyası Assosiasiyasının təşkilatçılığı, Təhsil Nazirliyi, Gənclər və İdman Nazirliyi, Sahə Futbol Federasiyasının dəstəyi ilə keçirilir. Burada əsas məqsəd ölkəmizin ali və orta ixtisas təhsili müəssisələrinin tələbələri arasında futbolun kütləviliyini təmin etmək, beynəlxalq yarışlarda iştirak etmək üçün respublikanın tələbələrdən ibarət yığma komandasına namizədləri müəyyənləşdirməkdir. Oyunlar FİFA-nın mövcud qaydaları əsasında keçirilir və AFFA-nın Hakimlər Komitəsi tərəfindən təsdiq edilmiş hakimlər heyəti tərəfindən idarə olunur. Futbol üzrə VII Respublika çempionatı aprelin 22-də başa çatacaq.





# Azərbaycanlı alimin əsəri Kanadada nəşr olunub

## Volter və Hüqonun yaradıcılığının Şərq qaynaqlarına dair yeni araşdırma

**Şahin XƏLİLLİ,**
*filologiya elmləri doktoru, professor*

Bu günlərdə filologiya elmləri doktoru, professor Əsgər Zeynalovun "Volter və Hüqonun Şərq baxışı" əsəri Kanadanın Viktoriya şəhərinin "First choice books" nəşriyyatında çapdan çıxıb. Kitabın ingilis dilinə tərcüməçisi dosent Fialə Abdullayeva, redaktoru ADU-nun doktorantı Səbinə Zeynalova, rəyçilər professor Qorxmaz Quliyev və fəlsəfə doktoru Vazeh Əsgərovdur.

Müəllif Volter yaradıcılığının Şərq qaynaqlarını araşdırarkən göstərir ki, Herodotun "Tarix", şərqşünas Bartelemi d'Erbelonun 1697-ci ildə nəşr etdirdiyi "Şərq kitabxanası" əsərləri, ixtisasca ərəbşünas olan Antuan dö Qallanın fransız dilinə tərcümə etdiyi məşhur "Min bir gecə" nağılları, görkəmli şərqşünas Peti dö la Kruanın fars dilindən fransız dilinə tərcümə etdiyi "Türk nağılları" (1707) və "Min bir gündüz" nağılları (1710-12), fransız səyyahları Tavernye və Şardənin yol qeydləri Volter yaradıcılığı üçün başlıca Şərq qaynaqları olmuşdur.

Ancaq professor Ə.Zeynalovun bu əsərində diqqətçəkən bir məqam da mövcuddur. İndiyədək əldə etdiyimiz ədəbiyyatlarda birmənalı şəkildə belə təqdim olunurdu ki, guya fransız şərqşünası Anketil dü Perronun Hindistana səyahətindən və 1771-ci ildə Parisdə fransız dilində "Avesta"nı nəşr etdirəndən sonra Avropa Şərqin bu möhtəşəm əsərilə tanış olmuşdur. Ancaq azərbaycanlı alim fransız yazıçısının "Zadiq və ya tale" (1747), "Millətlərin adətləri və düşüncə tərzi haqqında esse" (1756) əsərlərində "Avesta" dan gətirdiyi nümunələrlə Volterin dü Perronu, təxminən, 20-25 il qabaqladığı aydın olur. Tədqiqatçı onu da vurğulayır ki, Qərbdə Şərqə maraq çoxdan olsa da, ancaq XVIII əsrdə Avropada bütöv bir elm-şərqşünaslıq elmi yarandı. Tədqiqatçı monoqrafiyanın "Volter və Şərq mədəniyyəti" bölməsində oxucunun diqqətinə bir daha çatdırır ki, XVIII əsr fransız ədəbiyyatında Şərq mövzularına ən çox müraciət edən Volter olmuşdur. O, bu mövzuda həm nəsr, həm dram əsəri, həm də səkkiz cilddən ibarət "Esse" yazmışdır. Fransız ədibi tarixi prinsiplər əsasında qələmə aldığı "Millətlərin adətləri və düşüncə tərzi haqqında esse" əsərində dünya xalqlarının həyat tərzi, mədəniyyəti, elmi, adət və ənənələrindən bəhs etmiş, eyni zamanda bu əsərlərin ayrı-ayrı cildlərində Məhəmməd peyğəmbərin həyat və fəaliyyətindən, islam dininin yaranması və inkişafından, müsəlman mədəniyyəti və onun təsirindən ətraflı, geniş söhbət açmışdır.

Əsərdə Məhəmməd peyğəmbərin həyatı fransız mütəfəkkirinin yaradıcılığı əsasında ən incə detalları ilə təqdim olunmuşdur. Onun dünyaya gəliş tarixi, atası, babası haqqında yığcam məlumat, Xədicənin yanında qulluqçuluq etməsi və sonra onunla evlənməsi, islam dinini evdən qəbul etdirməyə başlaması, Məkkədən Mədinəyə getməsilə hicri tarixinin əsasının qoyulması, ətrafındakı ölkələri işğal edərək islam dinini yayması, dünyasını dəyişərkən camaatdan kiməsə borclu olduğunu soruşub, həmin borcu ödəməsi Volter yaradıcılığında öz əksini tapmışdır.

Onu xüsusi qeyd etmək lazımdır ki, fransız ədibi Məhəmməd peyğəmbər haqqında çox yüksək fikirdə olmuş, onun o zamankı cəmiyyətdə etdiyi yenilikləri yüksək qarşılamışdı.

Monoqrafiyadan bəlli olur ki, islamın sonrakı taleyi barəsində-xəlifələr Əbubəkr, Ömər, Osman, Əli, eyni zamanda Əməvilər və Abbasilər sülalələri haqqında danışan Volter, nəhayət, "Qurani-Kərim"in üzərinə qayıdır və ondan ağızdolusu söhbət açır.

Xilafətin inkişaf dövründən bəhs edən fransız mütəfəkkiri yazır ki, xəlifə imperiyasının ümumi qollarından biri Səmərqəndə qədər uzanır, ikincisi Qara dənizə tərəf yunan imperiyasına hücum edir, digəri isə 711-ci ildə Misirdən keçib, karfagenliləri, romalıları, qotları, vandalları və nəhayət, mavrlar adlanan ərəbləri rahatca tabe edərək İspaniyaya keçir. Hətta fransız ədibi etiraf edir ki, əsgər Şarl Martel olmasaydı, Fransa Məhəmmədi əyaləti olacaqdı. Tədqiqatçı fransız ədibinin fikrinə əsaslanaraq çox maraqlı bir həqiqəti diqqətə çatdırır: "Bilinmirdi ki, bir gün ərəblər Fransanın ortalarına qədər və Məhəmmədi türkləri Vyananın bircləri qarşısına qədər gələcəklər".

Ə.Zeynalov əsərində Volterin islam mədəniyyətinə münasibətindən də geniş bəhs etmişdir. Əsərdə göstərilir ki, Volterin fikrincə, orta əsr Şərq mədəniyyəti 786-809-cu illərdə xilafətə başçılıq etmiş Abbasi hökmdarından Harun Ər-Rəşidin vaxtında özünün növbəti mərhələsinə qədəm qoyur. Tədqiqatçı fikrini əsaslandırmaq üçün Volterin "esse"sinə müraciət edir: "Öz sələflərindən daha çox hörmət qazanan Şarlömanın müasiri Harun ər-Rəşid İspaniyadan Hindistana qədər ərazini özünə tabe etdirə bildi, elmi canlandırdı, incəsənəti yüksək səviyyədə çiçəkləndirdi, şairləri saraya cəlb edib şeirlər yazdırdı, öz geniş ölkələrində barbarlıq dalınca mədəniyyət gətirdi. Onun hakimiyyəti dövründə ərəblər qəbul etdiyi rəqəmləri Avropaya apardılar".

Volterin həqiqəti söylədiyinin üzərinə tədqiqatçı monoqrafiyasında dönə-dönə qayıdır. Fransız ədibi Şərqdə elmin ayrı-ayrı sahələrinin erkən inkişafını göstərmək məqsədilə müqayisələr aparır: "Kimya və tibbi elmi ərəblər tərəfindən inkişaf etdirildi. Bu gün biz təkmilləşdirdiyimiz kimyanı yalnız onların vasitəsilə tanımışıq. Biz əvvəllər Qalyənin və Hippokratın məktəbində vərdiş olmuş, minoratif (əhval-ruhiyyə) adlanan faydalı və yeni dərmanlar üçün onlara borcluyuq".

Nəhayət, tədqiqatçı fransız ədibinin fikrini ümumiləşdirərək yazır ki, Volter bütün elmlərə-kimya, astronomiya, riyaziyyat, tibb, poeziya və dilə toxunaraq bütün sahələrdə Şərq mədəniyyətinin güclü inkişafını və Avropanı bir neçə əsr qabaqladığını tutarlı faktlarla, müqayisələrlə təsdiq edir.

Ancaq bütün bunlarla yanaşı, azərbaycanlı alim fransız mütəfəkkirinin fikirlərinin hamısını adi bir şəkildə qəbul etmir, lazım gəldikdə ona öz münasibətini də bildirir. Volterin bəhs eydiyi dövrdə Şərqin yetirdiyi dahi simaların heç birinin adını çəkməməsi, bura daxil olan ölkələrdə həmin vaxtlarda fəaliyyət göstərən universitetlər və türklərin xilafətdə oynadığı rol haqqında heç bir söz deməməsi tədqiqatçıda təəssüf hissi doğurur.

Professor Ə.Zeynalovun monoqrafiyada yaradıcılığını tədqiqata cəlb etdiyi ikinci ədib kitabın adından göründüyü kimi dahi fransız yazıçısı Viktor Hüqodur.

Qeyd etmək lazımdır ki, tədqiqatçı Volter yaradıcılığından doktorluq dissertasiyası müdafiə etsə də o, istər respublikamızda, istərsə də beynəlxalq aləmdə daha çox Hüqonun mütəxəssisi kimi tanınmışdır. Çünki müəllifin respublikamızla yanaşı, dünyanın ən böyük dövlətlərində - Fransa, ABŞ, Almaniya, İngiltərə və Kanadada fransız ədibi haqqında kitabları işıq üzü görmüşdür.




Ayrı-ayrı vaxtlarda araşdırıcı fransız ədibinin bir sıra nəsr əsərlərini, poeziyasını, publisistikasını təhlil süzgəcindən keçirib, şeirlərini dilimizə çevirmişdir. Azərbaycan ədəbiyyatşünaslığında Volter və Hüqo haqqında ilk monoqrafiyaların müəllifi olan tədqiqatçı bu kitabda Hüqonun Şərq motivlərinin yaranma səbəblərinə münasibətini bildirmiş, şairin bu mövzuda yazdığı şeirləri geniş şəkildə araşdırmağa çalışmışdır. Ancaq onun "Hüqo islam dinini qəbul etmişdirmi?" ritorik sualla təqdim etdiyi yazı öz aktuallığı ilə mühüm əhəmiyyət kəsb edir. Müsəlman-xristian münasibətlərinin bu qədər kəskinləşdiyi bir vaxtda Bakıdan sonra İngiltərənin paytaxtı Londonda və Kanadada bu yazını ingilis dilində nəşr etdirmək və zəngin faktlarla Hüqonun islam dinini qəbul etməsini sübuta yetirmək azərbaycanlı alimin nə dərəcədə cəsarətli bir insan olduğunu əyani surətdə göstərir. Tədqiqatçı Hüqonun islam dinini qəbul etməsini sübuta yetirmək üçün nə qədər faktlara müraciət edir, bu mövzuda beynəlxalq konfrans və forumların çağırıldığını bildirir, fransız ədibinin islam dininə həsr etdiyi "Hicrinin doqquz ili", "Məhəmməd" və "Sidr ağacı" əsərlərinin 100 il müddətinə nəşrinə qadağa qoyulması barədə Fransa dövlətinin sərəncamını diqqətə çadırır. Bu yazıda ən çox diqqət çəkən məqamlardan biri "Hüqonun ömrünün son günlərində dəfələrlə "Qurani-Kərim"in" "Əl-Fatihə" surəsindən "İhdinəs siratəl müstəqim!" - "Tanrı, özün bizə doğru yol göstər!" kəlamını deyib ağlamasıdır.

Mən zəhmətkeş alim, səmimi, cəsarətli tədqiqatçı, təvazökar insanı "Volter və Hüqonun Şərq baxışı" monoqrafiyası münasibətilə təbrik edirəm.

## "AZƏRBAYCAN MÜƏLLİMİ"

| | |
|---|---|
| **Baş redaktor** Nurəddin Heydərov | n.heydarov@media.edu.az 538-21-66 |
| **Baş redaktor müavini** Sarvan İbrahimov | s.ibrahimov@muallim.edu.az 538-21-55 |
| **Məsul katib** Elman Əbdülov | e.abdulov@muallim.edu.az 510-68-73 |
| **Elm və təhsil şöbəsi** Yusif Əliyev | y.aliyev@muallim.edu.az 538-51-41 |
| **Beynəlxalq əlaqələr şöbəsi** Oruc Mustafayev | o.mustafayev@muallim.edu.az 538-67-41 |
| **İnformasiya şöbəsi** Niyazi Rəhimov | n.rahimov@muallim.edu.az 538-66-05 |
| **Gənclik və yaradıcılıq şöbəsi** Samirə Kərimova | s.kerimova@muallim.edu.az 539-19-74 |
| **Məktublar şöbəsi** Şakir Cəfərov | sh.cafarov@muallim.edu.az 539-64-00 |
| **Mühasibatlıq** | 539-67-74 |
| **Kompüter mərkəzi** | 539-07-98 |
| **Reklam və elanlar** | 539-20-77 (tel./faks) |

**Ünvan:** AZ-1100, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə 23 M, Mətbuat Evi, 5-ci mərtəbə

Qəzet "Azərbaycan müəllimi"nin kompüter mərkəzində yığılır və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet hər həftənin şənbə günü çıxır

**Bank hesabımız**
Azərbaycan Beynəlxalq Bankı "Mətbuat şöbəsi"
Kodu: 805142 VÖEN: 9900001881
M/h: AZ 03 NABZ 01350100000000002944
S.W.I.F.T.: IBAZAZ 2X

"Azərbaycan müəllimi" qəzeti redaksiyası
Hesab № AZ12 IBAZ38060019443164986216
VÖEN: 1300397831

**Lisenziya** № 022327, **İndeks:** 0003, **Tiraj** 6212, **Sifariş** 975

**Məsul növbətçi:** Y.Əliyev

# Doqquz yaşlı ifaçının uğuru

Bakı Şəhər Mədəniyyət və Turizm Baş İdarəsinin R.Hacıyev adına 15 nömrəli onbirillik musiqi məktəbinin üçüncü sinif şagirdi Cəmil Sədizadə Vladimir Kraynev adına II Moskva Beynəlxalq pianoçuların müsabiqəsində iştirak edib.

Baş İdarədən AZƏRTAC-a bildirilib ki, on nəfərdən ibarət münsiflər heyətinin qərarına əsasən gənc pianoçu diplomat adını qazanıb.

Hazırda 9 yaşlı pianoçu növbəti müsabiqəyə hazırlaşır. O, mayın 1-dən 8-dək Gürcüstanda keçiriləcək Beynəlxalq Gənc pianoçuların müsabiqəsində iştirak edəcək.

# Etibarsız sayılır

**Bakı şəhər** 199 nömrəli tam orta məktəbi 2004-cü ildə bitirmiş Səmədov İlqar Kərim oğluna verilmiş attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Beynəlxalq Universiteti** tərəfindən 2001-ci ildə Kərimov Fazil Stanbul oğluna verilmiş A-090806 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Şəmkir rayonu** Ələsgərli kənd tam orta məktəbini 2008-ci ildə bitirmiş Rüstəmli Tural Həsən oğluna verilmiş B-539014 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Culfa şəhər** 2 nömrəli tam orta məktəbi 2005-ci ildə bitirmiş Cəfərova Aygün İbrahim qızına verilmiş B-160083 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** Qobustan qəsəbəsi 195 nömrəli tam orta məktəbi 2004-cü ildə bitirmiş Ələkbərov Faiq Namiq oğluna verilmiş 027442 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 45 nömrəli tam orta məktəbi 1998-ci ildə bitirmiş Cəfərov Adəm Aləm oğluna verilmiş A-218374 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Ağstafa rayonu** Köçvəlili kənd tam orta məktəbini 2014-cü ildə bitirmiş Əhmədov Yusif Murad oğluna verilmiş 348200 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Ağstafa rayonu** Qaçaq Kərəm kənd tam orta məktəbini 2001-ci ildə bitirmiş Qəhrəmanov Kərəm Aqil oğluna verilmiş A-531036 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Ağstafa şəhər** 1 nömrəli tam orta məktəbi 1991-ci ildə bitirmiş İsmayılova Sevda Hüseyn qızına verilmiş 110202 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Ağstafa rayonu** Pirilli kənd tam orta məktəbini 2014-cü ildə bitirmiş Ramizova Məhbubə Mühəmməd qızına verilmiş B-054536 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**M.Əzizbəyov adına Azərbaycan Neft və Kimya İnstitutu** tərəfindən (ADNSU) 1990-cı ildə Mirzəyev Valeh Məmməd oğluna verilmiş PB-044837 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı Sosial-Pedaqoji Kolleci** tərəfindən 2014-cü ildə İsmayılova Türkanə Qiyas qızına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**Bakı Sosial-Pedaqoji Kollecini** tərəfindən 2013-cü ildə Bağızadə Sona Mahir qızına verilmiş tələbə bileti və qiymət kitabçası itdiyi üçün etibarsız sayılır.

**Mingəçevir şəhər** 18 nömrəli tam orta məktəbi 2007-ci ildə bitirmiş Quliyev Elnur Yusif oğluna verilmiş A-405988 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 32 nömrəli tam orta məktəbi 2007-ci ildə bitirmiş Abbaszadə Cahangir Əlibala oğluna verilmiş B-376244 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Füzuli rayonu** 22 nömrəli tam orta məktəbi 2009-cu ildə bitirmiş Həsənova Səhər Niyazi qızına verilmiş B-663159 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Tovuz rayonu** Bozalqanlı kənd tam orta məktəbini 1993-cü ildə bitirmiş Mehtiyev Gündüz Abbas oğluna verilmiş A-215388 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt şəhər** 85 nömrəli Texniki Peşə Məktəbi tərəfindən 1992-ci ildə Cəfərova Nüşabə Şamxal qızına verilmiş Г-417229 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 275 nömrəli tam orta məktəbin IX sinfini 1990-cı ildə bitirmiş Babayeva İrina Hüseynağayevnaya verilmiş 648296 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan İnşaat Mühəndisləri İnstitutu** tərəfindən 1981-ci ildə Əliyeva Rübabə Rəsul qızına verilmiş ЖВ-047828 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Əli Bayramlı Pedaqoji Texnikumu** tərəfindən 2004-cü ildə Həşimova Vəfa İbrahim qızına verilmiş BB-II-004896 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı Neft və Energetika Kolleci** tərəfindən 2015-ci ildə Quliyev Kamran Arzu oğluna verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**Şirvan şəhər** 10 nömrəli tam orta məktəbi 2000-ci ildə bitirmiş Əkpərzadə Ruqiyyə Əlifağa qızına verilmiş 474612 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Abşeron rayonu** Ceyranbatan qəsəbə 2 nömrəli tam orta məktəbi 2007-ci ildə bitirmiş Yusifov Tahir Vaqif oğluna verilmiş B-390757 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Dillər İnstitutu** (Azərbaycan Dillər Universiteti) tərəfindən 1996-cı ildə Məmmədova İlhamə Məmmədtağı qızına verilmiş AB-I-002760 nömrəli fərqlənmə diplomu itdiyi üçün etibarsız sayılır.

**Bakı Qızlar Universiteti** tərəfindən 2015-ci ildə Əhmədli Süsən Hikmət qızına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 298 nömrəli tam orta məktəbi 2008-ci ildə bitirmiş Rəhimova Gülşən Şakir qızına verilmiş 485195 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Neft Akademiyası** (ADNSU) tərəfindən 2012-ci ildə Nəsibi Səba Əliməmməd qızına verilmiş B-239629 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Qafqaz Universiteti** tərəfindən 2014-cü ildə Nəsibi Səba Əliməmməd qızına verilmiş AMN-000896 nömrəli magistr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Bərdə şəhər** 4 nömrəli tam orta məktəbi 2004-cü ildə bitirmiş Məmmədova Mələk Zahid qızına verilmiş B-058460 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Ağcabədi şəhər** 2 nömrəli tam orta məktəbi 2014-cü ildə bitirmiş Əliyeva Ayşən Natiq qızına verilmiş A-341860 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Füzuli rayonu** Əhmədbəyli kənd tam orta məktəbini 2004-cü ildə bitirmiş Nəsirova Aynur Bəyoğlan qızına verilmiş 087574 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Pedaqoji Universiteti** tərəfindən 2015-ci ildə Mikayılova Aygül Eldar qızına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**Bakı Dövlət Universiteti** tərəfindən 1997-ci ildə Fərzəliyeva (Axundova) Natəvan Ramiz qızına verilmiş A-001961 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 230 nömrəli tam orta məktəbi 2015-ci ildə bitirmiş Ağayeva Zəhra Nəriman qızına verilmiş A-408560 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 116 nömrəli tam orta məktəbi 1998-ci ildə bitirmiş Əhmədov Ruslan Zakiroviçə verilmiş A-295381 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Kooperasiya Universiteti** tərəfindən 2007-ci ildə Əfəndiyev Anar Namik oğluna verilmiş B-105545 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Texniki Universiteti** tərəfindən 2013-cü ildə Mirzəyeva Nəzrin Tofiq qızına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**H.B.Zərdabi adına Kirovabad Dövlət Pedaqoji İnstitutu** tərəfindən 1987-ci ildə Talıbova Qətibə Eyvaz qızına verilmiş HB-011834 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı Dövlət Universiteti** tərəfindən 2010-cu ildə Aslanov Kənan Oqtay oğluna verilmiş B-195277 nömrəli bakalavr diplomu və diploma əlavə qiymət kitabçası itdiyi üçün etibarsız sayılır.

**7 nömrəli Bakı Peşə Liseyini** 2014-cü ildə bitirmiş Osmanova Nigar Canbulad qızına verilmiş A-287578 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**S.M.Kirov adına Azərbaycan Dövlət Universiteti** tərəfindən 1988-ci ildə Rəcəbova Dilruba Vaqif qızına verilmiş PB-021587 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutu** tərəfindən 1983-cü ildə Kovaleva Diana Yuryevnaya verilmiş ЛВ-010850 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Naxçıvan şəhər** 10 nömrəli tam orta məktəbi 2007-ci ildə bitirmiş İsmayılov Nail Elman oğluna verilmiş A-388172 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**M.F.Axundov adına Azərbaycan Pedaqoji Rus Dili və Ədəbiyyatı İnstitutu** tərəfindən 1997-ci ildə Kərimova Aygün Aydın qızına verilmiş AB-I-055878 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**İmişli rayonu** 2 nömrəli qiyabi orta məktəbi 1986-cı ildə bitirmiş Şirməmmədova Könül Şirməmməd qızına verilmiş AK-282703 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 276 nömrəli tam orta məktəbi 2011-ci ildə bitirmiş Musayev Tərlan Tofiq oğluna verilmiş A-009379 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 7 nömrəli tam orta məktəbi 1997-ci ildə bitirmiş Poladov Rüstəm Fəxrəddin oğluna verilmiş A-170390 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Şamaxı rayonu** Sabir qəsəbə tam orta məktəbini 2004-cü ildə bitirmiş Nuriyev Şövqi Hüseyn oğluna verilmiş B-098706 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 157 nömrəli tam orta məktəbi 2013-cü ildə bitirmiş Dərgahov Elməddin Vidadi oğluna verilmiş A-114527 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Zərdab rayonu** Qaravəlli kənd tam orta məktəbini 2006-cı ildə bitirmiş Hümbətov Hümbət Bayram oğluna verilmiş A-322371 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 264 nömrəli tam orta məktəbi 2010-cu ildə bitirmiş Quliyeva Məlahət Dmitriy qızına verilmiş B-687671 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt şəhər** 25 nömrəli tam orta məktəbi 2010-cu ildə bitirmiş Fərhadi Benəzir Vüqar qızına verilmiş B-697693 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 314 nömrəli tam orta məktəbin IX sinfini 2014-cü ildə bitirmiş Həsənov Əli Mürşüd oğluna verilmiş A-427706 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Astara rayonu** Vaqo kənd tam orta məktəbinin IX sinfini 1985-ci ildə bitirmiş Heybətova Sevda İdris qızına verilmiş A-052256 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Neft Akademiyası** (ADNSU) tərəfindən 2000-ci ildə Əzizov Azər Vahid oğluna verilmiş A-048166 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 80 nömrəli tam orta məktəbi 1998-ci ildə bitirmiş Bəşirova Fatma Məhərrəm qızına verilmiş A-160425 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Quba şəhər** 3 nömrəli tam orta məktəbin IX sinfini 2004-cü ildə bitirmiş Rüstəmov Emil Hacıbaba oğluna verilmiş A-073753 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Zaqatala şəhər** 1 nömrəli tam orta məktəbi 1979-cu ildə bitirmiş Kərimova Aybəniz Kərim qızına verilmiş A-275118 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət İqtisad Universiteti** tərəfindən 2003-cü ildə Quliyeva Sevinc Əlövsət qızına verilmiş A-121385 nömrəli bakalavr diplomuna əlavə qiymət cədvəli itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Tibb Universiteti** tərəfindən 2007-ci ildə Muradov Rəşad Marif oğluna verilmiş BB-I-006671 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Tibb Universiteti** tərəfindən 2010-cu ildə Muradova Aytən Marif qızına verilmiş BB-I-014490 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Cəlilabad rayonu** Şiləvəngə kənd tam orta məktəbini 2000-ci ildə bitirmiş Məmmədov Camal Vəli oğluna verilmiş A-467898 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

## ALLAH RƏHMƏT ELƏSİN!

Xırdalan şəhər 2 nömrəli tam orta məktəbin direktoru Ədalət Camalova və pedaqoji kollektivi məktəbin sabiq direktoru

**ADİL KAZIMOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailə üzvlərinə dərin hüznlə başsağlığı verirlər.

---

Bakı şəhər 18 nömrəli tam orta məktəbin direktoru və kollektivi məktəbin müəllimi Esmiralda Binnətovaya oğlu

**SALMAN BİNNƏTLİNİN**

vaxtsız vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

# İNGİLİS DİLİNİ ÖYRƏNƏNLƏR ÜÇÜN

BRITISH COUNCIL

LearnEnglish

## Myths and legends – Australia

### Activity 1

Before you read, decide which word goes with which meaning.

| | | | |
|---|---|---|---|
| **1.** form | **2.** gather | **3.** obey | **4.** rainbow |
| **5.** serpent | **6.** store | **7.** tickle | **8.** tribe |

**a.** a group of people who live together and share the same culture and language
**b.** a half circle of seven colours that you see in the sky when it is raining and the sun is shining
**c.** begin to exist
**d.** collect several things, often from different places
**e.** do what you are told to do by a person or rule
**f.** put or keep things in a special place for use in the future
**g.** snake
**h.** touch someone lightly, making them feel uncomfortable and often making them laugh

### Activity 2

There are seven paragraphs in the following text, but they are not in the correct order. Read the text quickly and then arrange the paragraphs in the correct order. Write the number of the first paragraph in the first box, the number of the second paragraph in the second box, etc.

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| | | | | | | |

### The Rainbow Serpent

1. She travelled a long way but finally got bored because she was alone and so returned to the place where she had first appeared, and called to the frogs, ‘Come out!’
2. The bad animals became stone and turned into mountains and hills, but those who obeyed the rules were turned into humans, and lived in tribes with others of the same kind.
3. The frogs came out slowly because their stomachs were full of water, which they had stored in their sleep. The Rainbow Serpent tickled the frogs and, when they laughed, water flowed all over the Earth and that is how lakes and rivers were formed.
4. At first, all the animals behaved well, but then some started behaving badly and making trouble, and so the Rainbow Serpent made rules that they all had to obey. The Rainbow Serpent said, ‘Those who obey my rules will get a reward; I will turn them into humans. Those who don’t obey my rules will be punished and turned into stone, and will never walk on the Earth again.’
5. At the beginning of time everything on Earth was asleep. Nothing moved. Nothing grew. One day the Rainbow Serpent woke from her sleep and came out from under the ground.
6. The tribes lived together on the land given to them by the Rainbow Serpent and were very happy because they had everything that they needed.
7. Because there was water, all the animals woke up, and also grass and trees grew. The animals followed the Rainbow Serpent across the land. They were happy on Earth and each lived and gathered food with other animals of the same type. Some animals lived in rocks, others in the valleys, and others in trees and in the air.


© Hannah Eaton/British Council

### Activity 3

Decide if the following sentences are true or false, depending on the information in the text. If they are false, can you say why?

1. The Rainbow Serpent had been sleeping on the ground.
2. The Rainbow Serpent wasn’t happy while she was travelling because there were no other animals with her.
3. The frogs laughed because the Rainbow Serpent told them a joke.
4. The other animals woke up because the grass and trees grew.
5. Some of the animals started behaving badly despite the rules that the Rainbow Serpent had made.
6. Those who did not obey the rules were not turned into humans.
7. The tribes didn’t require anything else to make them happy.

### Activity 4

In Activity 2 you arranged the paragraphs in the correct order. What made you decide on the order of the paragraphs?

**Example:** *Paragraph 5 is first because it starts with the phrase ‘At the beginning of time’, and because the first word of the second paragraph (‘She’) is used instead of ‘the Rainbow Serpent’ and ‘her’ in the last sentence of the first paragraph.*

1. Paragraph 1 is next because ..........................................
2. Paragraph 3 is next because ..........................................
3. Paragraph 7 is next because ..........................................
4. Paragraph 4 is next because ..........................................
5. Paragraph 2 is next because ..........................................
6. Paragraph 6 is next because ..........................................

### Activity 5

In your country do you have a similar story to this one? Can you tell the story in English?

## Answers

**Activity 1**
1. c; 2. d; 3. e; 4. b; 5. g; 6. f; 7. h; 8. a

**Activity 2**
5, 1, 3, 7, 4, 2, 6

**Activity 3**
1. False (She had been sleeping under the ground)
2. True
3. False (They laughed because she tickled them)
4. False (They woke up because there was water)
5. True
6. True
7. True

**Activity 4**
1. Paragraph 1 is next because the first word (‘She’) is used instead of ‘the Rainbow Serpent’ in the previous paragraph, and it also introduces the frogs, which are the subject of the next paragraph.
2. Paragraph 3 is next because the information about the frogs follows on from the previous paragraph, and it also speaks about water, which is how the next paragraph begins.
3. Paragraph 7 is next because it begins with ‘With water’, which follows on from the previous paragraph.
4. Paragraph 4 is next because the word ‘they’ in the first sentence refers to ‘Some animals’ in the last sentence of the previous paragraph. Also, it describes the results of obeying or not obeying the rules, which is talked about more in the next paragraph.
5. Paragraph 2 is next because it talks more about the results of obeying or not obeying the rules, which was described in the previous paragraph. It also ends by talking about ‘the tribes’, which are spoken about more in the next paragraph.
6. Paragraph 6 is next because it begins with ‘The tribes’, which were referred to in the last phrase of the previous paragraph. The paragraph is also a suitable conclusion to the text.

To find more English language activities visit www.britishcouncil.org/learnenglish

Send your feedback to learnenglishprint@britishcouncil.org

© British Council 2017